## Günün sözü

**Prezident İlham Əliyev:**

Azərbaycan–Ermənistan sərhədində, Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququdur və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir.

## Sürət cəngavərləri döyüşə başlayır



Səhifə ⇨ 18


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 86 (30202) 28 aprel 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirmir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

*(ardı 2-ci səhifədə)*

## Nəsillərə örnək olan həyat yolu



Səhifə ⇨ 7

## Sadəlik, xeyirxahlıq və kübarlıq mücəssiməsi

Səhifə ⇨ 8

## Bitməyən bir eşq hekayəti

Səhifə ⇨ 9

## Sərhəd bütövlüyümüz – Qarabağ dirənişimizdə kulminasiya anı

Səhifə ⇨ 3



## Media və məsuliyyət

Səhifə ⇨ 13



## Ölkəmizin avtobus parkı yenilənir



Səhifə ⇨ 11

## Milli istiqlalın “Bəxtiyar harayı”



Səhifə ⇨ 5

## Milli dini kadrların hazırlanması zərurətdən yaranıb

Səhifə ⇨ 12

## Kolonna Bakıya gəldi və getdi... Nəticəsi olacaqmı?

Səhifə ⇨ 12

## Əvvəlcə Qaregin Njdeyə, indi isə “Nemezis” əməliyyatı “qəhrəman”larına İrəvanda abidə qoyulması...

Səhifə ⇨ 4

# Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirmir

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan–Ermənistan sərhədində, Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Ketrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Ketrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# “Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılmasına dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılmasına dair Anlaşma Memorandumu” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2023-cü il**

# “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasının “ASAN xidmət” təcrübəsindən faydalanaraq, İslam İnkişaf Bankına üzv ölkələrdə onlayn/elektron dövlət xidmətləri göstərilməsinin gücləndirilməsinə dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il martın 1-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasının “ASAN xidmət” təcrübəsindən faydalanaraq, İslam İnkişaf Bankına üzv ölkələrdə onlayn/elektron dövlət xidmətləri göstərilməsinin gücləndirilməsinə dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İslam İnkişaf Bankına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2023-cü il**

# Postmünaqişə dövründə Azərbaycanla Fransa arasında bir sıra fikir ayrılıqları olub

**Azərbaycan və Fransa arasında geniş əhatəliliyə baxsaq, burada həm sosial, humanitar, mədəniyyət, təhsil, elm, texnologiya və bir sıra digər sahələrdə birgə fəaliyyət, qarşılıqlı faydalı əməkdaşlıq müşahidə olunub. Bu müddət ərzində ölkələrimiz arasında parlamentlərarası əlaqələr mövcud olub, dostluq qrupları fəaliyyət göstərib, ölkələrimiz arasında qarşılıqlı çoxmilyardlı həcmdə investisiyalar edilib.**

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə keçirdiyi mətbuat konfransında bildirib.





“Eyni zamanda, biz səmimi şəkildə qeyd etməliyik ki, 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə Azərbaycan öz Konstitusiyasına, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və legitim hüquqa əsasən öz torpaqlarını azad etdikdən sonra Ermənistan–Azərbaycan postmünaqişə normallaşma mərhələsi ilə bağlı, yumşaq desək, bizim ölkələrimiz arasında bir sıra fikir ayrılıqları mövcud olub. Son iki il yarımlıq bir müddəti siyasi gündəlik baxımından dəyərləndirsək, bu, hansısa yeni siyasi təmasların, layihələrin, inkişafın deyil, hansısa qarşılıqlı diplomatik debatlar, fikir ayrılıqlarının nümayiş etdirilməsi fonunda keçib”, – deyə nazir qeyd edib.

Azərbaycan açıq və şəffaf şəkildə öz Konstitusiyasına və hüquqlarına uyğun öz ərazisində addım atıb. Bu addımdan iki il yarım əvvəl problemin mahiyyətini izah edib. Biz bu iki il yarımlıq müddət ərzində, bir dəfə də olsun, Fransadan Ermənistana çağırış görmədik. C.Bayramov vurğulayıb ki, Azərbaycanın suveren ərazilərində olan 10 min qanunsuz silahlının maliyyələşdirilməsi bölgədə gərginliyin bir nömrəli səbəbidir.

Fransa uzun illər ərzində – 25 ildən artıq müddət ərzində keçmiş Minsk Qrupunun həmsədri qismində bu münaqişənin həlli istiqamətində çox fəal rol oynayıb. Fransa bütün Avropa ölkələri arasında münaqişənin tarixini ən yaxşı bilən, ən fəal rolu olan bir tərəfdir. 2020-ci ilin Vətən müharibəsinədək danışıqlar prosesinin, vasitəçilərin çağırışları, Ermənistana təzyiq edəcəyi ilə bağlı Azərbaycanın gözləntiləri vardı. Sonradan bu uzunmüddətli gözləntilər məyusluğa çevrilmişdi. Bu, müəyyən mənada bizim xoşumuza gəlmirdi. Çünki bu, faktiki olaraq təcavüzkar ölkə ilə təcavüzə məruz qalmış ölkə arasında bərabərlik işarəsi qoyurdu. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan buna təmkinlə yanaşırdı. Bunu anlayışla qəbul edirdi ki, bu, beynəlxalq vasitəçilik roludur, beynəlxalq düzənin bir qaydasıdır. Ancaq 2020-ci ildən sonra biz bir çox hallarda bir sıra fərqli davranışlar görürük”, – deyə nazir əlavə edib.

Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsinin səbəbkarı olmayıb və hər zaman əlaqələrin müsbət müstəvidə inkişaf tərəfdarı olub. Ölkəmiz bunun üçün səylər göstərib. Nazir deyib ki, münasibətlərdə fikir ayrılığı olan zaman Azərbaycan tərəfi təmaslardan heç zaman çəkinməyib. Bu müddət ərzində də müxtəlif səviyyələrdə təmaslar intensiv olaraq davam edib.

“Ölkə arasındakı münasibətlər, sözün əsl mənasında, ən müxtəlif sahələri əhatə edən uğurlu əməkdaşlıq kimi səciyyələndirilə bilər. Biz bu uzun müddət ərzində olduqca strateji bir sıra sahələrdə böyük birgə layihələr həyata keçirmişik”, – deyə C.Bayramov əlavə edib.

Azərbaycan və Fransa tarixi tərəfdaşlardır. Biz Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdənik. Azərbaycan öz tarixində ağır yol keçib və bunu görmüşük. Bu sözləri Fransanın Avropa və Xarici İşlər naziri Ketrin Kolonna Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə keçirdikləri birgə mətbuat konfransında bildirib.

O bildirib ki, Birinci Qarabağ müharibəsində xeyli ölən və yaralanan olub, bu, olduqca təəssüflüdür. “Biz minadan təmizlənmə işlərinə dəstəyimizi vermişik və bu məsələnin həlli insan həyatını qorumuş olar. Fransa Azərbaycana minadan təmizlənməyə görə yarım milyon avro həcmində yardım edib. Minalara görə qurbanlar olub, ümid edirik ki, bundan sonra bu, daha davam etməyəcək”, – deyə Ketrin Kolonna bildirib.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# U.K.Ələkbərovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elm və təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Urxan Kazım oğlu Ələkbərov “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2023-cü il**

# Fransanın mövqeyi sülh prosesinə töhfə vermir



**Aprelin 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasına səfəri çərçivəsində Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildiriblər ki, nazirlər Ceyhun Bayramov və Ketrin Kolonna arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə Azərbaycan və Fransa arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, münasibətlərin hazırkı vəziyyəti, həmçinin regionda baş verən hadisələr müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Fransa arasında diplomatik münasibətlərin qurulmasından ötən illərdə iki ölkənin iqtisadi, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, humanitar və s. sahələr üzrə birgə layihələr həyata keçirilməsini xatırlayaraq, ölkələrimiz arasında səmərəli əməkdaşlıq təcrübəsinin davam etdirilməsi üçün imkanların mövcud olduğunu qeyd edib. Nazir Ceyhun Bayramov iki ölkə arasında münasibətlərin mövcud vəziyyətinin müzakirəsi, anlaşılmazlıqların aradan qaldırılması istiqamətində perspektivlərin və imkanların dəyərləndirilməsi üçün qarşılıqlı təmasların, siyasi dialoqun əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Postmünaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan tərəfindən Ermənistan ilə münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyini, hərbi-siyasi təxribatlar törətdiyini, öhdəliklərindən boyun qaçırdığını, üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğunu bildirib. Nazir Ceyhun Bayramov mövcud çağırışlar və çətinliklərə baxmayaraq, Azərbaycanın regionda sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb. Fransanın keçmiş münaqişənin həll olunması istiqamətində danışıqlar prosesində iştirakına istinad edən nazir Ceyhun Bayramov postmünaqişə dövründə Fransa tərəfindən sərgilənən mövqenin sülh prosesinə töhfə vermədiyini diqqətə çatdırıb.

Nazir Ketrin Kolonna Azərbaycan ilə Fransa arasında əlaqələrin, iki ölkənin liderləri arasında siyasi dialoqun tarixindən bəhs edərək, hazırki dövrdə bir sıra məsələlər üzrə yanaşmalarımızın üst-üstə düşməməsinə baxmayaraq, münasibətlərin inkişafı istiqamətində sıx təmasların, siyasi məsləhətləşmələrin davam etdirilməsinin əhəmiyyət daşıdığını bildirib. Bölgədə sülh və etimad quruculuğu məsələlərinin öz həllini tapmasının uzun müddət tələb etməsinə baxmayaraq, danışıqlar prosesinə sadiqliyin vacibliyini vurğulayan nazir Ketrin Kolonna bu xüsusda, regionda sülhün bərqərar olması səylərinə Fransanın da dəstək göstərməyə hazır olduğunu bildirib.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

***“Xalq qəzeti”***

# Ermənistan yenidən danışıqlara qayıdır

**Azərbaycan sülh müqaviləsinə inanmasaydı, sülhün təşəbbüskarı olmazdı. Prezident İlham Əliyev keçmiş münaqişənin üzərindən keçərək 2021-cil ildə sülh müqaviləsinin imzalanmasının vacibliyini səsləndirmişdi. Sülh müqaviləsi üçün təkliflər də Azərbaycan tərəfindən edilmişdi.**

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə keçirdiyi mətbuat konfransında bildirib.

Ceyhun Bayramov deyib: “2022-ci ilin fevralında 5 məlum baza prinsipi hazırlandı, ötən ilin oktyabr ayında sülh müqaviləsinin ilk layihəsi Ermənistana təqdim edildi. ABŞ-ın təşəbbüsü nəticəsində Ermənistan yenidən danışıqlara qayıdır. Biz bu prosesi dəstəkləyirik”.

***“Xalq qəzeti”***

Bizim baxış bucağımız

# Sərhəd bütövlüyümüz – Qarabağ dirənişimizdə kulminasiya anı

## *Azərbaycan torpaqlarında separatizmin sonu görünür*



**Laçın–Xankəndi yolundakı şərti sərhəddə Azərbaycanın nəzarət-buraxılış məntəqəsinin qurulması Qarabağ və Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi sahəsində, tamamilə, yeni situasiya formalaşdırıb desək, yanılmarıq.**

Məsələyə ölkəmizin prizmasından yanaşsaq, bu bizim suveren haqqımızdır. Yəni, Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı təmin edilməli idi və edildi də. Nəhayət, söhbət beynəlxalq miqyasda tanınmış Azərbaycan ərazisindən gedir. Bu ərazi otuz ilə yaxın müddətdə işğalda qalmışdı.

44 günlük müharibəyə qədər işğal faktının vurğulanması ilə paralel olaraq, Ermənistanın avantürist ideyaları danışıqlar masası üzərində idisə, müharibə nəticəsində qazandığımız zəfər tam yeni şərait formalaşdırdı. Ermənistan isə müharibədən sonrakı hərəkət və davranışları ilə, əslində, illərlə sırıdığı, lakin savaş nəticəsində deformasiyaya uğramış planlarını ortaya qoyur. Təbii, haqsız yerə qazandığı üstünlüyü əldə saxlaya bilməyibsə, haqqın güc faktoruna müqavimət göstərməsi mənasızdır.

Əlbəttə, İrəvan, erməni diaspor və lobbi təşkilatları ritorikalarının mənasızlığını anlamaqda çətinlik çəkirlər. Onlar müharibədən ötən iki il yarım ərzində, təxminən, "bəlkə də qaytardılar" məntiqinə söykənərək davranıblar. Ancaq hər davranış müharibədən sonra əldə saxladıqları ərazilərin addım-addım itirilməsinə gətirib. İndi, necə deyərlər, kulminasiya anıdır – Azərbaycan Laçında, Həkəri çayı üzərində sərhəd-buraxılış məntəqəsi qurmaqla, kulminasiya anına labüd dramatizm çalarları gətirdi. İki il ərzində Qarabağda separatçılıq üçün günbəgün daralmaqda olan çəmbər, artıq, yoxdur və bunu, sadəcə, anlamaq lazımdır. Anlamırlar və mövcud durumda hadisələrin növbəti axarını planlaşdırmaqda çətinlik çəkirlər. Nəinki çətinlik çəkirlər, ümumiyyətlə, təsəvvürləri yoxdur. Əlbəttə, bu yoxluğa qarşı da ayıq-sayıq dayanmaq şərtdir.

Görünən budur ki, Ermənistan və dünya erməniləri çarəni xarici aləmi ayağa qaldırmaqda, tipik erməni məntiqinə əsaslanaraq, beynəlxalq ictimaiyyəti şantaja məruz qoymaqda görürlər. Hazırda, sanki, boğulmamaq üçün saman çöpündən yapışanları xatırladırlar. Halbuki, zamanında Azərbaycan Prezidenti İlham Əliyevin xəbərdarlıqlarından nəticə çıxarsaydılar, belə acınacaqlı aqibətlə üzləşməzdilər. Axı, dövlətimizin başçısı dəfələrlə bildirmişdi ki, Ermənistana, habelə, ermənipərəstlərə və Qarabağ separatçılarına heç kəs kömək etməyəcəkdir. Hadisələr də onu göstərməkdədir – real dəstəkləri yoxdur.

***

Bəli, Ermənistan yaxşı anlayır ki, sərhəd buraxılış məntəqəsinin işə düşməsi əvvəlki status-kvonun aradan qalxması deməkdir. Bunu ölkədəki siyasilərlə yanaşı, Qarabağdakı separatçı tör-töküntülər də gözəl anlayırlar. Əslində, dramatizm də məhz bunun üzərindədir. Belə bir durumda onların hansı addımı atacaqları maraq doğurmaqdadır.

İlk addım ortadadır. Yaranmış vəziyyətə görə Rusiyanı, konkret olaraq, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, bölgədə yerləşdirilmiş sülhməramlı rus hərbi kontingentini qınamaqdır. Təbii ki, burada Moskvanın erməni sevgisinin sarı simlərinə toxunmalar da var, sülhməramlıların, ümumiyyətlə, çıxarılmasını tələb edən aqressiv ritorikanın da şahidiyik.

Ermənistan və ermənilik dünyadan da narazıdır. Hər iki qütb Azərbaycana qarşı beynəlxalq miqyasda sərt tədbirlərin görülməsini tələb edir. Ancaq hansı əsasda tədbirlər görülməlidir, bu barədə söz açan yoxdur. Üzərində dayanılan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdır ki, ona qarşı da Azərbaycanın arqumenti var – İrəvan bəyanata əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyibdir. Mövcud səbəbdən Bakını həmin sənəd müstəvisində ittiham olunması qəbul edilmir. Burada ara-sıra BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı çıxardığı qərara istinad da mənasızdır. Çünki qərara hər bir tərəf öz baxış bucağından yanaşır, onda hər hansı mütləqlik yoxdur, sənəd fərqli interpretasiyalar üçün açıqdır. Belədə Ermənistanın cavab tədbiri kimi aqressiv ritorikanın işə salması, daha doğrusu, hərbi gücə əl atması məsələsi meydana çıxır. Bu, loru dildə desək, döyülən adamın yenidən döyülməyə can atmasına, gücsüzlüyünü bilə-bilə inad nümayişinə oxşayır.

Əlbəttə, Ermənistanın ictimai rəyi anti-Azərbaycan və anti-türk yönümlüdür. Ancaq bu rəyin təmsilçilərinin kimlərdən, hansı qüvvələrdən formalaşdığını da yada salaq. Ortada hazırkı baş nazir Nikol Paşinyana müxalif qüvvələr və ruspərəst media var. Onların yaratdıqları çıxılmaz vəziyyət və ancaq müharibə yolu görüntüsü Ermənistan cəmiyyətinin gerçək niyyəti deyil. Söhbət ondan getmir ki, erməni cəmiyyəti müharibə istəmir, sadəcə qorxur. 44 günlük müharibə onu sarsıdıb. Amma sarsılmışların səsi, ənənəvi hay-küyçülərin yaratdıqları ucuz populizm səhnələrinin yanında eşidilməz haldadır. Obrazlı desək, gözlər önündə uzaqdan durub hürən, lakin tutmağa cəsarəti çatmayan it canlanır.

Mövcud durumda aqressiv ritorikanın Ermənistanın Qarabağ siyasətinə nə kimi fayda verə biləcəyini düşünək. Amma bundan əvvəl qeyd edək ki, son günlər Qarabağdakı erməni əhali evlərini, kütləvi şəkildə, satışa çıxarır. Ermənistana məxsus ev alqı-satqı portallarında yer alan elanların sayı durmadan artmaqdadır. Bu yerdə onu da deyək ki, Azərbaycanın Qarabağ erməniləri üçün təhlükəsizlik çağırışları və həyat təminatı ilə bağlı səsləndirdiyi fikirlər də əhəmiyyətini itirib. Çünki istər separatçı rejimin, istərsə də Ermənistan siyasilərinin təbliğatı elə bir səviyyədədir ki, yerli əhali Bakının təşəbbüslərinə etimad göstərəcək durumdan uzaq düşüb. Etnik təmizləmə, soyqırımı kimi cəfəng iddialara inananlar az deyil. Digər tərəfdən, ənənəvi erməni xisləti də öz işini görməkdədir. Axı, illər ərzində özləri barədə yüksək fikirlərdə olublar, özlərini məğlubedilməz sayıblar. Psixoloji baxımdan, indi bu mifin darmadağın olması reallığını həzm etmək çətindir. Vəziyyət, yəni psixoz anlaşılandır, ancaq bu, mahiyyətcə, Azərbaycanın problemi deyil. Nə də erməni cəmiyyətinin xəstəlikdən sağalacağını gözləyəcəyik.

Ancaq erməni siyasi istablişmenti üzləşdiyi situasiyadan Azərbaycana qarşı problem yaratmaq üçün istifadə edə bilər. Diqqət yetirək, separatçı Ruben Vardanyan Qarabağda özünə məxsus giydirmə təşkilat formalaşdıraraq, müqavimət təşkil edəcəyini bildirir. Əslində separatçı rejimin "idarəçiliyində" təmsil olunanlar da, sanki, müharibə şəraitinə keçid alıblar kimi davranır, bəyanatlar verir, pafoslu danışırlar. Nəticə etibarilə, Azərbaycanın suveren hüquqlarına qarşılıq, Qarabağ erməniləri kartı çıxarılır. Gah onların məzlum, gah da döyüşkən və barışmaz simaları canlandırılır.

El dilində ifadə etsək, tutar qatıq, tutmaz ayran. Birincidə hansısa mistik qüvvəyə inam var. Hesab edirlər ki, kimsə xaricdən kömək edib "Qarabağ xalqının" azadlıq mübarizəsinə dəstək göstərəcək. Ən təhlükəlisi isə ikincidir. Burada Qarabağ ermənilərinin fiziki cəhətdən məhvi məsələsi aktualdır.

Bir qədər də ətraflı desək, erməni siyasi sistemi iki prinsip üzərində dayanır. Ya Qarabağ üçün müstəqillik, ya da ermənilərsiz Qarabağ. Onu da nəzərə alaq ki, tipik erməni baxışına görə, Qarabağ vətəndir, yəni, Ermənistanın tərkib hissəsidir. 2019-cu ildə Paşinyan "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verməklə, məhz, həmin "düşüncəni" ortaya qoymuşdu. Hazırda Qarabağ Ermənistan olmaqdan çıxıbsa, deməli ki, orada erməni əhalisinin mövcudluğuna da ehtiyac yoxdur. Bəs, Xankəndidəki, Ağdərədəki evlərini satıb getmək istəyənlər necə olacaq? Gedə biləcəklərmi?

***

Bəli, erməni əhalinin fiziki cəhətdən məhvi "planı" gündəmə gələ bilər. Bu "plan" Ermənistana iki baxımdan vacibdir. Birincisi, Azərbaycana qarşı anti-patiya yaratmaq, ikincisi, elə həmin antipatiyanın fonunda Qarabağ niskilini gələcəyə daşıyıb onu növbəti işğalçılıq planları üçün ideoloji motivə, qisas elementinə çevirmək. Yada salaq ki, ermənilər vaxtilə bu mənfur üsuldan Sumqayıtda da istifadə etmiş, özləri şəhərin erməni əhalisinə qarşı zorakılıq və qətllər törətmiş və bunu azərbaycanlıların üstünə atmışdılar. İndi də xəstə xislətlərinə uyğun düşünə bilərlər ki, Qarabağ erməniləri erməni avantürizminə ən böyük faydanı ölümləri ilə verməlidirlər – necə deyərlər, ən yaxşı erməni, ölü ermənidir.

Əlbəttə, əvvəldən bir plan da var idi ki, o da vaxtı uzadaraq, Qarabağdakı status-kvonun saxlanılmasını nəzərdə tuturdu. Yəni, vaxt qazanmaq, güclənmək və itirilmişləri bərpa etmək. Azərbaycan buna yol verməyəcəyini göstərdi və əslində ölkəmizin nöqteyi-nəzərindən Laçın-Xankəndi yolundakı şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulması boşluq buraxılmaması, görülməli işlərin kuliminasiya nöqtəsinə çatdırılması sayıla bilər. Təbii ki, Bakı üçün kulminasiyadan sonra razvyaska və final da önəmlidir və onların hər ikisində prinsipiallıq mütləqdir, hər hansı güzəşt yolverilməzdir. Hələlik, İrəvanın cəhdləri həmin kuliminasiya anının şüurlarda möhkəmlənməsinin qarşısını almağa hesablanıb. Fərrux əməliyyatı zamanı da, Azərbaycan Ordusunun ötən ilin sentyabrında qazandığı hərbi üstünlüklər vaxtı da, o cümlədən, hərbçilərimiz tərəfindən Şuşanın bir neçə kəndi nəzarətə götürülərkən də eyni addımı atmışdılar. Ancaq bu gün artıq həmin cəhdlər geridə qalıb və həmin cəhdlərin səmərəsizliyi tam şəkildə sübuta yetirilib.

Sonda qeyd etdiklərimizin fonunda onu da vurğulayaq ki, Laçın–Xankəndi yolunda Azərbaycana məxsus sərhəd buraxılış məntəqəsinin qurulması olduqca prinsipial və qətiyyətli addımdır. Bu addım Azərbaycan Prezidenti İlham Əliyevin iradəsinin nəticəsidir. Ermənistanın bu iradəyə qarşılıq nə diplomatik bacarığı, nə resursu, nə də xaricdən dəstəyi var. Dövlətimizin başçısının da bildirdiyi kimi, sonda ölkəmizin diktə etdiyi şərtlərlə qəbullanacaqlar. Sülh masasına oturmaq məcburiyyətində qalacaqlar. Qarabağ müstəvisindəki hər hansı təxribatları da tam faydasızdır. Udduqları müəyyən zamandır ki, onun da yekunda ziyanlarına işləyəcəyi birmənalıdır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Hikmət Hacıyev səfirlərlə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Baltikyanı və Skandinaviya ölkələrinin Azərbaycandakı səfirləri ilə görüşüb.**

Bu barədə Finlandiyanın Cənubi Qafqazdakı səfiri "Twitter" hesabında paylaşım edib.

Vurğulanıb ki, baş tutan görüşdə regionda təhlükəsizlik və Orta Dəhliz məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı və NATO ilə münasibətlərinə də toxunulub.

# Laçındakı buraxılış məntəqəsi ərazilərimizə mina daşınmasının qarşısını alacaq




**Laçında sərhəd-buraxılış məntəqəsi ərazilərimizin minalarla daha da çirkləndirilməsinin qarşısını almaq məqsədilə qurulub.**

Bu sözləri Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev Suqovuşanda baş vermiş mina partlayışı nəticəsində rəhbərlik etdiyi qurumun sürücüsü Xəzər Babaşovun xəsarət alması ilə bağlı keçirilən mətbuat konfransında bildirib.

O qeyd edib ki, X.Babaşovun minaya düşməsi mina probleminin nə qədər ciddi olduğunu bir daha göstərir.

U.Mirzəyev deyib ki, bu vaxta qədər Beynəlxalq Avrasiya Mətbuat Fondunun üç əməkdaşı şəhid olub.

# İrəvanda qələbələrini Azərbaycana həsr etmiş türk idmançılar Bakıda



**İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatında qızıl medal qazanmış türkiyəli atletlər Nuray Güngör, Cansu Bektaş, Yusuf Fehmi Genc və gümüş mükafatçı Qamze Altun Bakıya gəliblər.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda türk idmançıları Gənclər və İdman Nazirliyinin rəsmiləri, Azərbaycan Ağır Atletika Federasiyasının nümayəndələri, azarkeşlər və jurnalistlər qarşılayıblar.

Bakıya dəvətə görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təşəkkür edən Cansu Bektaş deyib: "Azərbaycan xalqını çox sevirəm. İrəvanda qazandığım medalı Azərbaycana həsr etdim".

Avropa çempionatında iki qızıl, bir bürünc medal qazanan Nuray Güngör isə bildirib ki, Ermənistanda bir millət, iki dövlət olduğumuzu göstərib. Bu, bir daha Azərbaycan və Türkiyə qardaşlığının parlaq nümayişi olub.

Qitə birinciliyində fəxri kürsünün ən yüksək pilləsinə qalxan Yusuf Fehmi Genç Avropa çempionatında hər iki ölkəni çox gözəl şəkildə təmsil etdiklərini vurğulayıb.

Türkiyəli ağırlıqqaldıranların səfər zamanı paytaxtda bir sıra görüşlərdə və tədbirlərdə iştirakları nəzərdə tutulub.

Qeyd edək ki, İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatında mükafat qazanan və qələbələrini Azərbaycana həsr edən türk idmançılar Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Azərbaycana dəvət olunublar.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Əvvəlcə Qaregin Njdeyə, indi isə “Nemezis” əməliyyatı “qəhrəman”larına İrəvanda abidə qoyulması...

## *Terrorun Ermənistanın dövlət siyasəti olduğunu sübut edir*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Ermənistan paytaxtında “Nemezis” terror əməliyyatının “qəhrəmanlarına” həsr olunmuş abidə ucaldılması ilə bağlı yaydığı bəyanat dünya ictimaiyyətinə növbəti çağırış kimi qiymətləndirilməlidir. Çünki ermənilər bundan əvvəl də faşizmə xidmət etmiş xəyanətkar Qaregin Njdeyə abidə qoymaqla bəşəri dəyərləri tanımadıqlarını sübut etmişdilər. Rusiya Müdafiə Nazirliyinin həmin satqın erməni hərbçinin xəyanətlərini sübut edən çoxsaylı faktları yaymasına baxmayaraq, qaniçən ermənilər cəllad Qaregini hələ də qəhrəmanlaşdırmaq istəyirlər. Elə “Nemezis” əməliyyatı “qəhrəmanları”na abidə ucaldılması da Njde əhvalatı kimi qaniçənliyə, terrora, təxribata, alçaqlığa, şərəfsizliyə abidə qoyulmasıdır.**

Əvvəlcə bu əməliyyatın tarixçəsi barədə bir neçə kəlmə. Xatırladaq ki, “Nemezis” əməliyyatı – “Daşnaksütyun” partiyasının türklərə və azərbaycanlılara qarşı keçirdiyi terror aksiyasıdır. Aksiyanın məqsədi “erməni soyqırımı”nı və Bakıda 1918-ci ildə “erməni əhalisinin qətlini” təşkil etmiş şəxslərdən qisas alınması idi. Qətlə yetirilən şəxslərin arasında həm Osmanlı imperiyasının, həm də Azərbaycan Demokratik Respublikasının keçmiş rəhbərləri var idi. Əməliyyatın adı, qədim yunan intiqam ilahəsi Nemezidanın adından götürülmüşdür.

Bildirilir ki, əməliyyatın keçirilməsi erməni “ictimai-siyasi xadimi” Şaan Natalinin təşəbbüsü ilə – 1919-cu ilin oktyabrında, “Daşnaksütyun” partiyasının İrəvanda keçirilən doqquzuncu qurultayında qərara alınmışdır. Qaniçənlər, guya, soyqırıma aidiyyatı olan insanların 650 nəfərlik bir siyahısını hazırlayır, onların arasından 41 nəfəri isə “əsas günahkarları” elan edirlər. Əməliyyata rəhbərlik üçün xususi orqan yaradılır, bütün əməliyyat üçün o orqan məsul idi. Həmin orqanın rəhbəri Ermənistanın ABŞ-dakı səfiri Armen Qaro idi. Göründüyü kimi, onların diplomatları da terrorçu və təxribatçı olublar.

Məhz həmin “diplomat”ın rəhbərlik etdiyi vəhşi qaniçənlər 1920-ci il iyunun 19-da Tiflisdə Azərbaycan Demokratik Respublikasının sabiq Baş naziri Fətəli



xan Xoyskini qətlə yetirirlər, keçmiş Ədliyyə naziri Xəlil bəy Xasməmmədov isə yaralanır. Bir ay sonra, yenə də Tiflisdə Azərbaycan parlamenti sədrinin sabiq müavini Həsən bəy Ağayev qətlə yetirilir. Sonrakı il martın 15-də Berlində Osmanlı imperiyasının keçmiş daxili işlər naziri və sədr-əzəm olmuş Tələt paşa öldürülür. Həmin il dekabrın 5-də Romada, atla gəzinti zamanı Osmanlı imperiyasının keçmiş sədr-əzəmi Səid Hilmi paşa qətlə yetirilir. 1922-ci ildə Berlində, ailəvi gəzinti zamanı keçmiş Trabzon valisi Camal Əzim və “Təşkilati məxsusə”nin yaradıcısı Bahəddin Şakir, həmçinin onun cangüdəni də öldürülür. 1921-ci il iyulun 19-da İstanbulda Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir qətlə yetirilir. 1920-ci il mayın 31-də Kürdəmirdə Azərbaycan Demokratik Respublikasının Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetirilir.

Bundan başqa, 1920-ci ildə ermənilərin türklərlə əməkdaşlıqda günahlandırdığı Mkrtıç Arutunyan, Vahe Yesayan, Hamayak Aramyants və başqa ermənilər də məhz “Nemezis” təşkilatı tərəfindən öldürülür.

Xarici İşlər Nazirliyinin Ermənistanda “Nemezis” terror əməliyyatına həsr olunmuş abidə ilə əlaqədar yaydığı bəyanatda deyilir ki, bu il aprelin 25-də İrəvan şəhərində “Nemezis” terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik. Həmin qanlı hadisələrin və dəhşətli terror aktların təşkilatçılarına abidə ucaldılmasına bilavasitə Ermənistanın müvafiq dövlət qurumlarının icazə verməsi və layihənin təsdiq edilməsi bir daha sübut edir ki, terror Ermənistanın dövlət siyasətidir. Abidənin açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarix boyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır.

Xatırladaq ki, Ermənistanda dövlət siyasəti səviyyəsində maliyyələşdirilən və icra olunan terrorçuluq əməllərindən bütün dünya xəbərdardır. Hamı bilir ki, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək, 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan Azərbaycana qarşı metro və avtobusların partladılması da daxil olmaqla, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədilib.

Azərbaycan tərəfi bu fikirdədir ki, terrorçuluğun Ermənistanda dövlət səviyyəsində dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanmalı, bölgədə sülh və əmin-amanlığın təmin edilməsi üçün Ermənistan tərəfindən terrorçuluq siyasətinə son qoyulmalıdır. Bizim məqsədimiz odur ki, erməni terrorizmi, ekstremizmi, aqressiv separatizmi və irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmasına nail olaq. Azərbaycan diplomatlarının fikrincə, rəsmi İrəvanın bu cür addımları, bu ölkənin Bakı və Ankara ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi “səmimiyyətini” və “xoş iradəsini” ciddi sual altına qoyur. Onlar anlamalıdırlar ki, sülh və barışığa aparan yol cinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, həmin bəd əməllərin etiraf olunmasından keçir.

Sonda xatırladaq ki, Azərbaycan artıq müharibə səhifələrini geriyə çevirmək, sülhə və birgəyaşayışa töhfələr vermək üçün öz iradəsini ortaya qoymuşdur. Ermənistan isə üzdə sülh istədiyini desə də, bu məsələyə “sədaqətini” çoxsaylı Azərbaycan və Türkiyə siyasətçilərini, hərbi və dövlət xadimlərini qətlə yetirmiş qanlı cinayətkarlarına abidə ucaltmaqla nümayiş etdirir.

Bu sətirləri dövlət başçımızın bir arqumenti ilə tamamlamaq istəyirəm: “Əlbəttə, sülh müqaviləsi olacaq və buna biz “dəmir yumruq” ilə nail olacağıq. Lakin heç vaxt nə 31 Mart soyqırımını, nə Xocalı soyqırımını, nə də başımıza gətirilən digər müsibətləri unutmayacağıq!”

***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***



# Əllər sinələr üstündə, dillər himn söyləyir

**Ekofəallar açılan hər səhəri əlləri sinələrinin üstündə Azərbaycanın Dövlət Himnini səsləndirməklə qarşılayırlar.**

Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Laçın–Xankəndi yolunda keçirilən etiraz aksiyası 138 gündür davam edir. Bu müddət ərzində ekofəallarımızın başı üzərində çox qovğalar “oynanıldı”, məqsəd və məramlarına başqa don geyindirilməyə çalışıldı. Amma onların qətiyyəti bütün çətinliklərə üstün gəldi, iradələri hər cür təxribatın qarşısını aldı. Tələbləri isə ilk günlərdə olduğu kimi, yenə də dəyişməz qalır. Şuşa rayonunun ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində bu gün də davam edən dinc aksiya azərbaycanlı ekofəalların, bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) nümayəndələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına, ekoloji terrora son qoyulmasına, təbii sərvətlərimizin haylar tərəfindən talan edilməsinə etirazıdır.

Məsələnin maraqlı tərəfi isə odur ki, bu etiraza nə zonaya müvəqqəti nəzarət edən Rusiya sülhməramlıları ağlabatan cavab verirlər, nə də ismarıclarını ünvanladıqları müvafiq beynəlxalq təsisatlardan reaksiya gəlir. Ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər.

* * *

Ekofəallar aksiyaya start verildiyi ilk gündən etibarən dünya ictimaiyyətinin diqqətini hayların Qarabağımızda törətdikləri ekoloji terrora cəlb etməyə çalışır, onu bu cinayətə susqun qalmamağa çağırırlar. Gənc könüllülər Azərbaycan, rus və ingilis dillərində şüarlar yazılmış plakatlarda öz tələblərini aydın şəkildə ifadə edirlər: “Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, “Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, “Ekoloji cinayətə son!”, “Stop ekoterror!”, “Берегите природу!”, “Экоциду нет! Мониторингу да!”. Əldə etdiyimiz məlumata əsasən, dünən Laçın–Xankəndi yolunda etiraz aksiyasının keçirildiyi əraziyə ölkəmizdə səfərdə olan qardaş Türkiyənin bir qrup media orqanının əməkdaşları baş çəkiblər. Onlara dinc aksiyanın keçirilməsinin əsas səbəbləri barədə ətraflı məlumat verilib, beynəlxalq təşkilatlara ünvanlanan müraciətlərin mətnləri təqdim edilib. Türkiyəli media nümayəndələri aksiya iştirakçılarının, eləcə də ərazinin audio-vizual çəkilişini həyata keçiriblər.

Əslində, bu etiraz aksiyasını ermənilərin 1988-ci ildə Topxana meşəsində həyata keçirdikləri “yaşıl soyqırımı”na soydaşlarımızın etirazının davamı kimi də yanaşmaq mümkündür. O vaxtdan əsrlər, minilliklər bir-birini əvəzləsə də, hayların yırtıcı xislətinə müsbət heç bir çalar əlavə olunmadı. Öz tamahkarlıqları, yersiz iddiaları ucbatından sonda məğlub duruma düşən nasist–daşnak törəmələri hələ də məğlubiyyətlərini etiraf və qəbul etməyə tələsmirlər. Azərbaycan isə iki il beş ay əvvəl bölgədə reallığı dəyişdi və artıq bizim ermənin XXI əsrə yaraşmayan naqis xislətini tərbiyə, yaxud özlərini islah etməyə nə vaxtımız, nə də səbrimiz var.

**ARAYIŞ:** *2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin (SK) komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya SK-nın müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Fəqət SK-nın hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Bu səbəbdən, 2022-ci il dekabrın 12-dən etiraz aksiyası başlayıb və bu günədək davam edir.*

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

*Ekspert rəyi*

**Yeganə HACIYEVA, politoloq**



Ermənilərin Cənubi Qafqazda yerli xalq, o cümlədən, Qarabağda heç vaxt aborigen olmadığını özləri də yaxşı bilirlər. Ekoloji aksiyalar dünyanın siyasi xəritəsini dəyişməyi hədəfləyən ötən əsrin 80-ci illərinin sonunda başlayan proseslərin digər bir formasıdır. Düzünü desək, bu aksiya 35 il bundan əvvəl Topxana meşəsində ağacların qırılmasına Azərbaycan xalqının kütləvi etirazı, həm də sivil, mədəni üsullarla hərbi məqsədlərə çatmağın forması idi. Bəli, bu, siyasi deyil, indiki mərhələdə məhz hərbi məqsədlərə nail olmağın sivil müqavimət üsuludur. Bu gün dünyanın çox geniş coğrafiyasında ekoloji etirazlar dalğası ilə siyasi proseslərə təsir göstərmək nümunələri mövcuddur. Beynəlxalq təcrübədə istifadə olunan bu diplomatik təsir metodunun təməlini, dediyimiz kimi, ötən yüzilliyin səksəninci illərində Azərbaycan xalqı qoyub.

Ətraf mühit, ekoloji problemlərin aktuallaşdığı indiki çağda, nədənsə dünyanı yanımızda görmürük. BMT-nin qəbul etdiyi bir sıra konvensiyalara görə, təbii resurslardan qeyri-qanuni istifadə iqtisadi cinayət sayılır. Bu əməl hazırda beynəlxalq məhkəmələrdə ən çox cəzalandırılan cinayətlərin sırasındadır. Yəni, bu tip əməllərə iqlim dəyişiklikliyinə aparıb çıxara biləcək ekoloji terror tərkibli beynəlxalq cinayət kimi baxılır. Amma təəssüf ki, bizim ekofəalların ermənilərin faktiki eko-terroruna son qoyulması ilə bağlı tələblərinə nə dünyanın aidiyyatı institutlarının, ciddi qurumlarının, nə də beynəlxalq müşahidəçilərin reaksiyasını görmürük.

# Qatilə heykəl qoyan dövlət

**Əslində, cinayətə haqq qazandırmaq, qatilə abidə ucaltmaq terrorizmi alqışlamaqdır. Bununla haylar qonşuluq münasibətlərinə xəyanət, başqa ölkələrin tarixinə hörmətsizlik etməkdən belə çəkinmirlər.**

“İrəvanda 1920-ci illərin əvvəllərində Osmanlı siyasi və hərbi rəhbərlərinə, o zamankı Azərbaycan rəsmilərinə və hətta erməni əsilli bəzi Osmanlı vətəndaşlarına qarşı sui-qəsdləri törədənlərə həsr olunmuş “Nemezis abidəsi”nin açılmasını qətiyyətlə pisləyirik”. Aprelin 25-də Ermənistanın paytaxtında “Nemezis” terror əməliyyatına həsr olunan abidənin açılışına öz etirazını bildirən Türkiyə Xarici İşlər Nazirliyinin İrəvana ünvanladığı bəyanatında o da qeyd olunur ki, Ankara ilə İrəvan arasında normallaşma prosesinin ruhu ilə bir araya sığmayan bu cür təxribatçı addımlar heç bir halda regionda davamlı sülh və sabitliyin bərqərar olması səylərinə töhfə verməyəcək, əksinə, normallaşma prosesinə mənfi təsir göstərəcək. Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı isə hayların növbəti vandallığı ilə bağlı “Twitter”də bir cümlə yazıb: “Tarixi həqiqətləri axtaranlar arxivlərə baxmalıdırlar”.

* * *

Osmanlının sabiq Baş naziri, müdrik dövlət xadimlərindən biri kimi tanınan Tələt paşanın qatilinə abidə ucaltmaq, əslində, Hayastan hökumətinin nasistlərlə eyni mövqedə durması, insanlıqla bir araya sığmayan cinayətə haqq qazandırması və terrorizmi alqışlamasıdır. Doğrudanmı, daşnak zehniyyətlilər anlamırlar ki, belə iyrənc addımlarla düşdükləri siyasi labirintdən çıxış yolunu tapa bilməyəcəklər? Nə deyək. Görünən odur ki, sağlam düşünmək qabiliyyətini itirmiş ermənidən nə desən gözləmək olar.

Əgər müqayisə və paralellər aparmaq lazım gələrsə, İrəvanda qatilə heykəlin qoyulmasını erməni vandallarının Xocalıda törətdikləri soyqırımı ilə eyniləşdirmək mümkündür. Bəli, onlar öz övladlarında türklərə qarşı kin-küdurət, nifrət aşılamaq üçün bu yolu



seçiblər. Etiraf edək ki, onlar bu “tarixi missiyanı”, əslində, qismən də olsa həyata keçirməyi bacarıblar.

***İ.HƏSƏNQALA, “Xalq qəzeti”***

# Cəfəng iddiaları qətiyyətlə rədd edirik

**Ermənistanın baş naziri Nikol Paşinyan dünən hökumətin iclasında çıxışı zamanı ölkəmizin Azərbaycan–Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi yaratması ilə bağlı reallıqdan uzaq, cəfəng iddialar səsləndirib.**

Paşinyanın iddiaları ilə bağlı Azərbaycan XİN-in şərhində qeyd edilir ki, ölkəmizin suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsinə Ermənistan tərəfinin hər hansı müdaxiləsi Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı iddiası deməkdir və bu, onun Praqa və Soçidə öz üzərinə götürdüyü öhdəliklərə, eləcə də beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir.

Azərbaycan XİN-in şərhində İrəvanın bu kimi bəyanatlarının bölgədə sülh və əmin-amanlığa töhfə verməməklə yanaşı, qəsdən gərginliyin artırılması məqsədi daşıdığı vurğulanır. “44 günlük Vətən müharibəsindən sonra üçtərəfli bəyanatın müddəalarına zidd olaraq, Ermənistan tərəfinin vəziyyətin gərginləşməsinə xidmət edən addımları kimi, Azərbaycana qarşı hərbi təxribatlara son qoyulmamasını, Laçın yolundan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə edilməsini, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən tam olaraq çıxarılmamasını Ermənistan baş nazirinə xatırlatmaq kifayətdir. Bu xüsusda, qeyd edilən təxribatların qarşısını alacaq bu məntəqənin təsis edilməsinin sülh prosesinə mənfi təsir etdiyi barədə fikirlər tamamilə qəbuledilməzdir”, – deyilən şərhdə sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsinin tamamilə yanlış olduğu nəzərə çatdırılır. XİN-in şərhində o da qeyd olunur ki, Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın – Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələri və yüklərin təhlükəsizliyinə zəmanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək. Nikol Paşinyanın erməni sakinlərlə dialoq, “təhlükəsizlik zəmanəti” “mübahisələrin həlli mexanizmi”, “beynəlxalq faktaraşdırıcı missiya göndərilməsi” kimi məsələlər üzrə dəfələrlə təkrarlanmış arzu və iddiaları ilə əlaqədar şərhdə deyilir ki, Azərbaycan tərəfi erməni sakinlərlə dialoqu ölkə qanunvericiliyi çərçivəsində həyata keçirəcək və üçüncü tərəfin bu məsələyə müdaxiləsi qəbuledilməzdir. Baş nazir Nikol Paşinyanın hökumətin iclasında çıxışına Azərbaycan XİN-in şərhi İrəvandan haqlı tələblə bitir: “Ermənistan tərəfini əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara



məsuliyyətlə və konstruktiv yanaşmağı, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik".

***“Xalq qəzeti”***

# Müstəqil Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir

**Məlum olduğu kimi, bu il Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq.**



Azərbaycan tarixində intibah dövrü və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlayıb, müstəqilliyimiz məhz əbədiyaşar liderimizin sayəsində əbədi və dönməz xarakter alıb. Dövrünün ən nüfuzlu siyasətçisi olan Heydər Əliyev Azərbaycanın dünyada tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanması istiqamətində məqsədyönlü iş aparıb. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həll olunması məqsədilə bütün qüvvələri səfərbər edən ümummilli lider tarixi ədalətin bərpası üçün fədakarlıqla çalışıb, yüksək əzmkarlıq göstərib. Ulu öndərin memarı olduğu güclü Azərbaycan dövləti Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanmaqla ərazi bütövlüyünü bərpa etməyə müvəffəq olduğunu bütün dünyaya sübut etdi.

Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir. Müstəqilliyimizi və ulu öndərin miras qoyduğu zəngin irsi göz bəbəyi kimi qorumaq hər birimizin ən ümdə vəzifəsidir. Dünya Azərbaycanlıları ümummilli liderin əziz xatirəsini daim uca tutur və minnətdarlıqla yad edir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməyim, eləcə də onunla şəxsi tanışlığım mənim üçün böyük şərəf və qürurdur. 10 may – ümummilli liderin doğum günü ərəfəsində fürsətdən istifadə edərək daim xatirələrimdə yaşayan ən mühüm məqamları bölüşmək istərdim. Hər bir xalqın, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin rolu danılmazdır. Azərbaycan xalqı xoşbəxtdir ki, onun taleyində əsaslı dönüş yaradan, müstəqilliyi itirmək təhlükəsindən xilas edən, dövlətçiliyi əbədi və dönməz edən Heydər Əliyev kimi dahi rəhbəri olub. "Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm" deyən dahi şəxsiyyət qüsursuz, aydın və dolğun çıxışları ilə həm də ustad bir müəllim idi. Hələ Moskvada xüsusi orta milis məktəbində təhsil aldığım illərdə Heydər Əliyevin çıxışlarını izləyir, hətta imtahan verərkən onun fikirlərindən sitatlar gətirirdim. Yaxşı yadımdadır ki, elə həmin dövrdə də bütün SSRİ-də Heydər Əliyev şəxsiyyətinə böyük maraq vardı. Hər kəs onun iti zəkasına, idarəçilik məharətinə həsəd aparır, barəsində çox müsbət fikirlər səsləndirirdi. O illərdə bütün azərbaycanlı gənclər kimi, mənim də Heydər Əliyevə xüsusi rəğbətim vardı. Sonrakı illərdə mənə ümummilli liderlə şəxsən tanış olmaq və onun müdrik rəhbərliyi altında çalışmaq imkanı nəsib oldu.

Sovet rəhbərliyi tərəfindən 1990-cı ilin yanvarında Bakıda xalqımıza qarşı faciə törədildiyi ən ağır vaxtda Heydər Əliyev həyatını böyük təhlükə altına qoyub Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Ulu öndər SSRİ və respublika rəhbərliyinin hüquqazidd əməllərini ifşa etdi. Tarixin məsuliyyətli və çətin dövründə xalqı ilə olmağı, onun haqq səsini dünyaya çatdırmağı vacib bilən ümummilli lider həmin ilin iyulunda Bakıya qayıtdı. Azərbaycan tarixinin və dövlətçiliyimizin ağır günlərində, həyatı boyu qəlbi Vətən və xalqı ilə döyünən dahi şəxsiyyət bir daha əsl vətənpərvər kimi qətiyyət göstərdi. Həmin günlərin və görüşlərin iştirakçısı kimi ulu öndərimizlə ilk tanışlığımız yarandı. Məlum olduğu kimi, həmin dövrdə ölkədə vəziyyət olduqca ziddiyyətli və gərgin idi. Müəyyən siyasi qüvvələr vəziyyətdən sui-istifadə edirdi və proseslər, demək olar ki, idarə olunmaz hala çatmışdı. Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı barışmaz mövqedə dayanan və kritik dönəmdə xalqın yanında olmağa qərar verən ulu öndər özünün həyat fəlsəfəsini belə izah edirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

O zaman Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələrinin kəsildiyi, iqtisadi və siyasi böhranın dərinləşdiyi Naxçıvanda təxribatlar baş alıb gedirdi. Sərhədyanı kəndlər ermənilərin mütəmadi hücumlarına məruz qalır və qarət olunurdu. Belə bir çətin durumda xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Bakıdan blokada şəraitində olan Naxçıvana getdi və yekdilliklə muxtar respublikanın Ali Məclisinin sədri seçildi. Ulu öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün mühüm qərarlar qəbul etdi. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında region dövlətləri ilə əlaqələr yaratması və xalqı öz ətrafında birləşdirərək erməni təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi mürəkkəb hərbi-siyasi şəraitdə Naxçıvanı işğaldan qorudu. Mən həmin günləri çox yaxşı xatırlayıram. O illərdə dəfələrlə Bakıdan Naxçıvana ulu öndərin yanına gedir, ölkədə gedən siyasi proseslər barədə fikir mübadiləsi aparır və dəyərli məsləhətlər alırdım. Mən çox xoşbəxt insanam ki, ümummilli liderin rəhbərliyi altında uzun illər məsul vəzifədə çalışmışam və bu gün də onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında çalışıram.

XX əsrin sonlarında yenidən müstəqillik qazanan dövlətimiz qısa müddətdən sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. 1993-cü ilin iyununda ölkədə hakimiyyət böhranı kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə çatdırılmış qarşıdurma dövlət müstəqilliyimizi itirmək təhlükəsi yaratdı. Həmin dövrdə hüquq-mühafizə orqanlarında çalışdığımdan hadisələrin yaxından iştirakçısı kimi deyə bilərəm ki, bütün bunlar liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək bacarığından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin ölkəyə rəhbərlik etməsinə görə baş verirdi. Prosesləri düzgün qiymətləndirə və lazımi məcraya yönəldə bilməyən hakimiyyət əhali arasında nüfuzunu gündən-günə itirirdi.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının işğalı, gərginləşən siyasi vəziyyət, əhalinin acınacaqlı sosial durumu şəraitində ölkəmizi bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir olan liderə və şəxsiyyətə ciddi ehtiyac yaranmışdı. Azərbaycan xalqı əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Beləliklə, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyev xalqın təkidli çağırışlarına səs verərək Bakıya qayıtdı. Həmin tarixi anların iştirakçısı kimi deyə bilərəm ki, bu qayıdış, sözün əsl mənasında, ölkəmizin taleyində dönüş nöqtəsi oldu. İyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Tarixə nəzər salsaq görərik ki, xalqların tarixində elə günlər vardır ki, həmin günlərdə onun gələcəyini müəyyən edən təməllərin əsası qoyulub. Bu tarix isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmlənməsində və inkişafında müstəsna rol oynayan ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", – deyən ümummilli lider ölkədə vətəndaş həmrəyliyinin və sabitliyin bərqərar olunmasını təmin edə bildi. Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu, respublikada ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Burada bir məqamı xüsusilə vurğulamaq istərdim. Unutmamalıyıq ki, bütün bunlar asanlıqla başa gəlməmişdir. Ölkədəki hərc-mərcliyin və anarxiyanın qarşısını almaq böyük cəsarət və gərgin iş tələb edirdi. Müstəqilliyin bərpasından sonra ölkəyə rəhbərlik etmiş şəxslər yarıtmaz əməlləri ilə bütün sahələrdə ciddi problemlər yaratmış, ölkəni dağılmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Əhali arasında sosial narazılıqlar son həddə çatmışdı. Uzun illər ərzində cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə çalışdığımdan vəziyyətə yaxından bələd olduğum üçün deyə bilərəm ki, ölkədə kriminogen vəziyyət nəzarətdən çıxmışdı, cinayət əməlləri baş alıb gedirdi. Dövlətinə və xalqına bağlı olan milli kadrların bir çoxu mənim kimi siyasi əqidəsinə görə təqiblərə məruz qalmış və həmin illərdə hüquq-mühafizə orqanlarından xaric olunmuşdular. Ölkədə siyasi sabitliyin bərpası, vətəndaş həmrəyliyinin formalaşdırılması, ordu quruculuğu, cinayətkarlıqla mübarizə və sair bu kimi həyati vacib sahələrə peşəkar və sadiq kadrların cəlb olunması və islahatların aparılması böyük çətinliklər yaradırdı.

Lakin bütün bunlara baxmayaraq, ulu öndərin fədakar zəhməti hesabına ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu və Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. Xalqın əbədi sevgisini qazanan ulu öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Ümummilli liderin şəxsiyyəti, onun siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində və beynəlxalq aləmdə xalqımızın strateji mənafelərinin təmin olunmasında həlledici rol oynadı. Siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi üçün neft sektoruna xarici sərmayələrin cəlb edilməsi məqsədilə "Əsrin müqaviləsi" imzalandı. Nəticədə ölkə iqtisadiyyatına külli miqdarda investisiya yatırılması ilə yanaşı, ən müasir innovasiya və informasiya texnologiyalarının gətirilməsi, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, habelə nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənməsi təmin olundu.

Ulu öndər diplomatik yolla 1994-cü ilin may ayında cəbhədə atəşkəsə nail oldu və Milli Ordunun formalaşması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan Silahlı Qüvvələrin yaradılması və torpaqlarımızın müdafiə edilməsi istiqamətində mühüm addımlar atdı. Bütün gücünü və diqqətini ordu quruculuğuna yönəldən ulu öndər əminliklə bildirirdi ki, işğal altında qalan torpaqlarımız gec-tez düşməndən azad olunacaq. Bu, Heydər Əliyevin ən böyük arzusu idi.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ümummilli lider Heydər Əliyevin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində inamlı islahatlar apardı. Qırx dörd günlük Vətən müharibəsində mükəmməl əks-hücum əməliyyatları ilə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Silahlı Qüvvələri öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın azad olunması ilə bağlı xalqa müraciətində ata vəsiyyətini yerinə yetirdiyinə görə xoşbəxt olduğunu dilə gətirdi.

Müasir Azərbaycan dövlətinin əbədiyaşar memarı Heydər Əliyev ideyalarının sadiq davamçısı Prezident İlham Əliyev tərəfindən ordu quruculuğu sahəsində verilən tapşırıqlar bu gün uğurla həyata keçirilir və ordumuz Ali Baş Komandanımızın əmr və tapşırıqlarını yerinə yetirmək üçün hər an hazır vəziyyətdədir.

**Məhərrəm ƏLİYEV,**
**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**

# Vətənini milli intibaha qovuşduran lider

**Qax rayonunda Heydər Əliyev ili çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olaraq 27 aprel 2023-cü il tarixdə rayonun Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda konfrans keçirilmişdir.**

Toplantıda millət vəkilləri, rayon və hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər. Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayan tədbirdə ulu öndər Heydər Əliyevin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan Qax rayon icra başçısı Musa Şəkiliyev Azərbaycanın çağdaş tarixinin milli intibah dövrünün müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirdi. O, qeyd etdi ki, məhz ulu öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxarmış, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir. Dahi rəhbər dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən təkmil irs və siyasi məktəb miras qoymuşdur.

Toplantıda çıxış edən Milli Məclisin deputatları Etibar Əliyev, Azər Kərimli, "Xalq qəzeti"nin bölgə müxbiri İlqar Həsənov da Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycanın öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoyduğunu vurğuladılar.

Xüsusi olaraq qeyd olundu ki, ulu öndər Azərbaycanı davamlı və sabit inkişaf yoluna çıxarmaqla yanaşı, bu siyasəti özündən sonra da layiqincə davam etdirə biləcək lider yetişdirmişdir. Cənab Prezident İlham Əliyev keyfiyyətcə yeni mərhələdə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirmiş, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Bu gün Azərbaycan beynəlxalq və regional əməkdaşlığa böyük töhfələr verən, mövcud olduğu regionda hadisələrin inkişaf istiqamətini müəyyən edən nüfuzlu bir dövlət kimi dünya birliyi tərəfindən qəbul olunur. Ölkəmiz gündən-günə güclənərək və inkişaf edərək yeni çağırışlara cavab verməklə mətin addımlarla irəliləyir.

***"Xalq qəzeti"***



# Vətən sevdalı dahi



**Sevincin də – kədərin də, varlığın da – yoxluğun da öz dili, öz rəngi var. Onun danışdığı dilin də, yaşadığı ömrün də, varlığının – yoxluğunun da bir rəngi var idi, - Vətən rəngi! Elə "Fəxr edirəm ki, mən Azərbaycanlıyam!" ifadəsindəki kimi, – tam və bütöv Vətən!**

**Heydər Əliyevin xalqımızın, Azərbaycanımızın taleyindəki cahanşümul fəaliyyətini zaman tarixin unudulmaz səhifələrinə çevirib. Əsrlər keçsə də tarixin belə unudulmaz günləri qədirbilən xalqımız tərəfindən öz xilaskarı anıldıqca minnətdarlıqla xatırlanacaq...**

***Ən böyük şəxsiyyət özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insandır.***

**Heydər ƏLİYEV**

Ömrün elə unudulmaz hadisələri olur ki, insan onu yalnız özününkü hesab edir. O məqamların sevincini, fərəhini, qürurunu başqaları ilə bölüşməyə, sanki, "xəsislik" edir, elə bil xərcləmək istəmir, çox vaxt onları məhz öz qəlbində qoruyub yaşadır.

Ulu öndərimizlə o qədər də çox olmayan, ancaq mənim üçün hər biri bir insan ömrünə bəs edəcək qədər dəyərli, şəxsən ünsiyyətdə olduğum məqamlar yaddaş kitabımın əbədi səhifələridir... Bax, elə bu qayə ilə də Heydər Əliyevlə bağlı neçə-neçə xatirəni ən müqəddəs əmanət kimi qəlbimdə, yaddaşımda yaşadıram. Şübhəsiz ki, nə vaxtsa həmin xatirələrdən daha geniş söz açacağam, demişdim. Məhz bu gün onlardan danışacağam.

...1998-ci il. O vaxt Lerik rayon İcra Hakimiyyətinin başçısı idim. Həmin ilin yay ayları, iyulun ikinci həftəsi, daha dəqiq, ayın doqquzu idi. İlin-ayın bu vədələrində havalar, adətən, isti keçir. Bəzən yer-göy od tutub yanır. Ancaq o gün hava sakit idi, günün istisi adamı yandırmırdı. Günəş aydın səmadan bir qədər tutqun, qaşqabaqla boylanırdı. Günortadan xeyli keçmişdi. Dövlət başçısının fərmanına əsasən torpaq islahatı ilə bağlı yerli əhali ilə görüşmək, icra hakimiyyətinin başçısı kimi lazımi izahat işləri aparmaq üçün Muryo kəndinə getmişdim.

Yerli sakinlər kəndin ortasını kəsib keçən maşın yolunun alt tərəfində, kiçik meydançada toplaşmışdılar. Yaxınlaşıb camaat ilə salamlaşdım. Əvvəlcədən rayon rəhbəri kimi mənim üçün qoyulmuş stolun başına keçib toplaşanlardan da ayaq üstə durmayıb əyləşmələrini xahiş etdim. Toplaşanlara bir də göz gəzdirdim. Onların arasında ilk əvvəl nəzərlərim hələ keçmiş sovetlər dönəmində, kolxoz-sovxoz zamanında yerli təsərrüfatda üzümçülük briqadiri işləyən vaxtlardan yaxşı tanıdığım Sətulla kişiyə sataşdı. Bu yaşlı kişiyə xüsusi ehtiram göstərməyi lazım bildim: "Sətulla kişi, irəli gəl, bir görüşək" – dedim.

Sətulla kişi adamların arasından çıxıb mənə tərəf bir neçə addım irəli yeridi. Mən də yerimdən qalxdım. Sağ əlimi görüşmək üçün kişiyə tərəf uzatdım, sol əlimi də qaldıraraq səmimiyyət əlaməti kimi ağsaqqalın çiyninə qoymaq istədim. Nə uzatdığım sağ əlim Sətulla kişinin mənə uzanan əlinə çatdı, nə də yuxarı qaldırdığım sol qolum kişinin çiyninə. Elə bildim ki, kişi qabağa gəlmək əvəzinə, geriyə yeriyir. Yox, deyəsən, elə mən özüm də səntirləyirdim. Yerin altından, torpaqdan bir uğultu, səs gəldi. Olduğumuz ərazidə bir neçə yerdə birdən-birə toz burulğanı qalxdı. Hər şey ani, saniyələr, dəqiqələr içində baş verdi.

Gözlərimin önündə torpaq, kənd-kəsək, dalğalandı. Nəzərlərim ilk əvvəl kəndin evlərinə sataşdı, evlər nənni kimi yellənir, hələ ki, daş-divar uçub dağılmırdı. Axır ki, uğultu kəsildi, toz burulğanı da ötüb keçdi. Bayaqdan bəri "Ya Allah, özün kömək ol", – deyən, hay-həşir salıb əllərini göyə qaldıran camaat da susub durdu. "Zəlzələ oldu" – deyərək beş-altı addım aralıda, yolun kənarında hazır dayanmış maşınıma tərəf yeridim. Toplaşanlar karıxıb qalmışdı. Rayonun digər ərazilərində baş verənlərlə bağlı narahat-nigaran olub maşına əyləşib tələsik yola düşdüm. Rayon mərkəzinə qayıdarkən yol boyu ətrafa, yolüstü kəndlərdəki evlərə, tikililərə baxır, dağıntı olub-olmadığını gözəyarı dəqiqləşdirir, Lerikə, mərkəzə tələsirdim...

Açığını deyim ki, o zaman, 90-cı illərin əvvəllərində respublikamızın hər yerində olduğu kimi, çalışdığım Lerik rayonunda da gün-güzəran çətinləşmişdi. İnsanların çoxu kasıbçılıq, ehtyac içində yaşayırdı. Ümummilli liderimizin xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdışından sonra adamların bənizindəki solğunluq da yenicə sovuşur, soyumuş təndirlər indi-indi qızırdı ki, bir yandan da bu "zəlzələ", təbiətin fəlakəti...

1998-ci ilin iyul ayının 9-da Talış dağlarında 6,5 bal gücündə baş verən bu zəlzələ ölkəmizin cənub bölgəsinə xeyli ziyan vurmuşdu. Lerikin bəzi kəndlərində yaşayış evləri tamam dağılmışdı. Qəzalı vəziyyətə düşən evlər də çox idi. Bu və ya digər dərəcədə zərər çəkməyən, xəsarət almayan yaşayış məntəqəsi və ya tikinti isə, demək olar ki, yox idi. Xoşbəxtlikdən zəlzələ günortadan keçmiş, adamlar həyət-bacada, iş-gücdə olan vaxtda baş vermişdi. Bəlkə də elə bu səbəbdən insanlardan ağır xəsarət alan, sağlamlıqları ilə bağlı təhlükəli hal, çox ciddi zərər olmamışdı. Bir də Lerik dağlarının cavanlığı dada çatmışdı. Əslində zəlzələnin episentri Lerik rayonu idi. Azərbaycan Milli Elmlər Akademiyası episentrdə təkanların 12 ballıq Rixter cədvəli üzrə 7 bal gücündə olduğunu qeydə almışdı. Bu dağlar hələ cavan və yerlərində möhkəmdirlər. İnkişaf dövrünü yaşayırlar. Başqa coğrafi ərazidə bu gücdə zəlzələdə salamatçılığa gümanın azlığı bir yana, heç ümid etmək də boş xəyal idı. Lerik dağları isə dözdü...

Əbədiyaşar Prezidentimiz Heydər Əliyevin tapşırığna əsasən, o vaxt paytaxtdan rayona Baş nazirin müavini, Fövqəladə Hallar üzrə hökumət komissiyasının sədri Abid Şərifov, Komissiya sədrinin müavini, Meliorasiya və Su təsərrüfatı komitəsinin sədri Əhməd Əhmədzadə və digər rəhbər vəzifəli şəxslər gəldilər və zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün rayon təşkilatları ilə birgə işə başladılar.

Zəlzələdən iki gün keçmişdi. Ötən iki gərgin gündə hələ çatdırıb baş çəkə bilmədiyim digər kəndlərdə əhali ilə görüşmək, vəziyyətlə yerindəcə tanış olub işlərin gedişi ilə maraqlanmaq üçün ikinci mərtəbədəki iş otağımdan çıxıb birinci mərtəbəyə enmişdim ki, İcra Hakimiyyətinin ümumi şöbəsinin müdiri Təhməz Əliyev hövlnak arxadan özünü mənə çatdırdı:

– İndicə Prezident Aparatından zəng vurublar, cənab Prezident sizinlə danışacaq! – dedi. Bu xəbərdən özünü elə itirmişdi ki, heç dayanıb məni gözləmədən gəldiyi kimi də geri döndü.

Düzünü deyim ki, elə mən özüm də Təhməz müəllim kimi həyəcanla yuxarı mərtəbəyə qalxdım. Kabinetimə keçib telefonun dəstəyini qaldırdım. Danışıq məntəqəsindəki telefonçu qız məni dərhal Prezident Aparatının nümayəndəsi ilə xətdə birləşdirdi.

Qəbul otağından:

– İndi cənab Prezident sizinlə danışacaq, – dedilər.

Həyəcanlı idim, bəlkə, səsim də titrəyirdi. Dəstəyi qaldırıb:

– Bəli, cənab Prezident, – deyib salam vermək istəyirdim ki, ümummilli liderimiz məni qabaqladı. Telefonun o başından ulu öndərin doğma, şaqraq səsi gəldi. Mənimlə salamlaşıb sonra da təmkinlə mövcud vəziyyəti soruşub öyrənməyə başladı. İlk əvvəl adamları xəbər aldı. İnsan tələfatı yoxdur ki? Çoxmu zərər dəyib?

Prezidentimizin ahəstə, doğma səsindən özümü ələ alıb, necə deyərlər, toparlanmışdım. Hər sualdan sonra susub azca fasilə verir, bununla da mənə fikrimi dəqiqləşdirib arxayın, sərbəst danışmağa şərait, imkan yaradırdı.

Heydər Əliyevin öz kəlamıdır: "Gərək nəbzin vətənin nəbzi ilə vursun!" Həmişə qəlbi doğma Azərbaycanın qəlbi ilə bir vuran ulu öndər onun salamlarını bütün leriklilərə çatdırmağı, dövlətin onlara dayaq duracağını, lazımi yardım edəcəyini bildirməyimi tapşırdı.

Telefon danışığı bitdi. Quş kimi yerimdən qalxıb zəlzələdən keçən bu iki gündə hələ də özünə gələ bilməyən adamlara bu xəbəri – ölkə başçısının şəxsən özü zəng edib vəziyyətlə bir daha maraqlandığını, həmişəki kimi çətin anlarda yenə də hər bir ölkə vətəndaşı ilə birgə olduğunu, dayaq durduğunu, onlara salam göndərdiyini çatdırmağa tələsdim.

Xəbər bir anda rayona yayıldı, ən ucqar kəndlərəcən gedib çatdı. Adamların üzündəki xof, narahatçılıq, nigarançılıq yaz dumanı kimi əriyib getdi.

Ulu öndərin bu telefon zəngi Lerikdə zəlzələnin ağrısına-acısına məlhəm oldu. Telefon zənginin sevinci kədəri beləcə üstələdi. Fəlakətdə zərər çəkmiş, zəlzələnin qorxusu, təhlükəsi hələ qəlblərindən getməmiş leriklilərin ürəyində sevinc titrəyişi, ümid oyatdı...

Respublika hökumətinin müvafiq komissiyası zərər çəkmiş ailələrə dəymiş ziyana görə kompensasiya ödədi, qeyri-hökumət qurumlarından, ayrı-ayrı təşkilatlardan və digər rayonlardan da yardım göstərildi. Abadlıq, bərpa işləri yeni vüsət aldı.

Ulu öndər üçün Azərbaycanın hər bir guşəsi doğma idi. Təkcə respublikada birinci şəxs olduğu illərdə deyil, əvvəlki vaxtlarda da ulu öndərin bölgələrlə, o cümlədən, Lerik rayonu ilə də işgüzar əlaqələri olub. Lerikli Xanış kişini qəbul edərkən, hələ 60-cı illərdə Lerikdə olmasını və münasib şərait olmadığından elə orda, iş otağında gecələdiyini xatırlayırdı.

Ulu öndərin bu xatirəsi, elə bilirəm ki, 60-cı illərin Azərbaycanı ilə ulu öndərin rəhbərliyi altında olan ölkəmizdə regionların nə qədər sürətlə inkişaf etdiyinin bariz göstəricisidir. İndi Lerik kimi ucqar bir rayonda yüzlərlə turistlik tutumu olan istirahət mərkəzləri var. Vaxtı ilə ulu öndəri darısqal bir otaqda qarşılayan rayonun indi gen-geniş neçə-neçə istirahət mərkəzi mövcuddur.

"Bilirsiniz, Azərbaycanın dövlət başçısı, prezident kimi, mənə yaxşı işdən savayı, heç bir mükafat vermək, xoş söz demək, lazım deyildir. Bunların heç biri mənə lazım deyildir. Yaxşı işləyin, yaxşı iş görün"

– Yaxşı işi dəyərləndirən, qiymətləndirib tabeliyindəkiləri daha da ruhlandıran, həvəsləndirən ulu öndərin özü isə çox təvazökar şəxsiyyət, qayğıkeş rəhbər idi. Onun ən böyük mükafatı xalqın inamı, etimadı idi.

2002-ci ilin iyun ayının 21-də Prezident Aparatına dəvət edilmişdim. O zaman Lerik Rayon İcra Hakimiyyətinin başçısı idim. Əlaqədar şöbədə rayonda işlərin gedişi barədə müvafiq məlumat verəndən sonra mənə hazırlıqlı olmağı, yaxın vaxtlarda Aran rayonlarından birinə icra hakimiyyətinin başçısı (əlbəttə, rayonun adını da konkret dedilər) təyin olunacağımın nəzərdə tutulduğunu xəbər verdilər. Elə həmin gün, günün ikinci yarısında geriyə, Lerikə yola düşdüm. Yarıyolda Prezident Aparatından zəng elədilər ki, növbəti gün saat 11:00-da aparatda olmalıyam və cənab Prezident məni qəbul edəcək.

Şübhəsiz, həyəcanlı idim, ancaq bu sevinc həyəcanı idi. Heydər Əliyev görüşəcək və əvvəlcədən məlumatlandırıldığım kimi yenidən başqa bir rayona icra hakimiyyəti başçısı təyin olunacaqdım.

Ertəsi gün deyilən vaxtda Prezident Aparatında ulu öndər məni qəbul etdi. Aparatdan iki məsul şəxs də bu görüşdə iştirak edirdi.

"Xanış kişi necədir?" – Prezident səmimiyyətlə soruşdu.

Cavab verdim ki, yaxşıdır.

Heydər Əliyev: "O, mənim dostumdur", – dedi.

Mən isə "Əməksevər, zəhmətkeş adamdır, ona – Xanış kişiyə diqqətiniz elə bizim uzunömürlülər diyarı Lerikə, rayonun bütün sakinlərinə göstərdiyiniz diqqət və etimaddır, çox şad oldum, cənab Prezident" – dedim.

Yeri gəlmişkən, ulu öndərlə dostluğu o zaman bütün ölkənin gündəmində olan Xanış kişi sadəlövh göründüyü qədər də cəsarətli, dərin və möhkəm adam idi. Çox zəhmətkeş idi, yaxşı təsərrüfatı var idi. Həm də əliaçıq idi. Şahidi olmuşam ki, ehtiyacı olub ağız açana "yoxdur" deməzdi. Hər il Qurban bayramında yüz qoyun kəsib Bakıya aparırdı. Ulu öndər ona diqqət göstərir, qəbul edir, görüşürdü. Heydər Əliyevlə görüşü Xanış kişini qanadlandırdığı kimi leriklilərin də sevincinə səbəb olurdu.

Ulu öndərin ideyalarının layiqli davamçısı, prezident İlham Əliyev də o ənənəni daim davam etdirir. Bütün ağsaqqallara, ağbirçəklərə ehtiram göstərir. 2005-ci ildə Xanış kişinin vəfatı da diqqətindən yayınmadı. Cənab prezident hətta hüzr məclisinin yüksək səviyyədə keçirilməsinə də xüsusi əhəmiyyət verdi.

***

...Həmin o qəbulda Heydər Əliyev masanın ətrafında mənimlə üz-üzə, qarşı tərəfdə oturmuş məsul vəzifə sahiblərinə işarə edərək:

– Onlar səni Biləsuvar rayonuna başçı təyin etməyimi təklif ediblər.

Sözünə azca ara verib məni diqqətlə süzdü:

– O rayonda işləmək asandır. Mən səni Goranboy rayonuna göndərirəm. Orada vəziyyət yaxşı deyil. İnsanların dövlətə inamı itib, sən yerli əhaliyə o inamı qaytarmalısan, – dedi.

Əlbəttə, Prezidentin bu qərarı mənim üçün, eləcə də haqqımda müsbət fikir söyləyib tövsiyə edənlər üçün də gözlənilməz idi.

Ulu öndər sonra əlavə etdi: "Orada qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbə salınıb, Aşağı Ağcakənd qəsəbəsi. Mən o qəsəbənin açılışına gələcəyəm, işə başla və qəsəbənin açılışına hazırlaş!"

Goranboyun Gülüstan ərazisinin Aşağı Ağcakənddəki (keçmiş Şaumyan kənd rayonunun mərkəzi) bu müasir yaşayış məntəqəsi o vaxt qaçqınlar və məcburi köçkünlər üçün müvafiq layihə əsasında tikilən ilk qəsəbə idi. Birinci mərhələdə qəsəbəyə Xocalıdan və Göyçə mahalından didərgin düşən 246 ailə, ardınca daha 250 ailə köçürüldü. Qəsəbədə orta məktəb, xəstəxana istifadəyə verildi.

Yeri gəlmişkən, deməliyəm ki, vətənpərvər və cəsur goranboylular doxsanıncı illərin o təlatümlü zamanlarında erməni işğalçılarına qarşı mərdliklə döyüşmüş, bir qarış belə torpaqdan keçməmişlər.

Ulu öndər goranboylularla görüşdə onların bu fədakarlıqlarını qeyd edərək "O illərdə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında döyüşlərdə iştirak etdiyinizə və torpaqlarımızı qoruduğunuza görə, Goranboy rayonu ərazisindən bir parca da torpağın düşmənin əlinə keçməsinə imkan vermədiyinizə görə, mən sizə dərin təşəkkürümü bildirirəm" – dedi.

Dövlət başçısı növbəti dəfə 2002-ci ilin sentyabr ayının 13-də Goranboya gəldi. O gün həyatımın ən məsuliyyətli və əlamətdar günü kimi yaddaşımda əbədiləşib. Goranboylular isə, şübhə etmirəm ki, o günü xatırladıqca sevinc hissini təkrar yaşayırlar.

Heydər Əliyevi, demək olar ki, bütün rayon əhalisi qarşılayırdı. Şəhərin (rayon mərkəzinin) girişindən icra hakimiyyətinə qədər olan 5 km yol boyu məsafədə insanlar küçələrdə, yol kənarlarında toplaşaraq qucaqlarında gül-çiçək, əllərində müstəqil Azərbaycan dövlətinin qurucusuna inam və etibarlarının ifadəsi olan şüarlar, çox böyük qələbəliklə, coşqu və musiqi ilə rəhbəri salamlayırdılar. Maraqlı məqamlardan biri də rayonun Xoylu kənd camaatının ulu öndəri qarşılamağı olmuşdu. Min nəfərə qədər Xoylu sakini kənddən Bakı–Gəncə yoluna çıxaraq (kənd 5 km yoldan kənardadır), əllərində Heydər Əliyevin portretləri və üçrəngli bayraqlarımız, gül-çiçəklə maşın karvanının qarşısına çıxmışdılar.

Hər bir ölkə vətəndaşına tükənməz sevgi və ehtiram göstərməyi ilə nümunə olan Heydər Əliyev maşın karvanını dayandırdı, Xoylu kəndi ərazisində avtomobilindən düşərək, camaatla səmimi görüşdü, onlara işlərində uğurlar arzuladı. Kənd sakinləri dövlətimizin başçısına minnətdarlıq etdilər, ölkəmizdə yaratdığı ictimai-siyasi sabitliyi və apardığı siyasəti daim dəstəklədiklərini, onunla fəxr etdiklərini söylədilər.

Rayon rəhbərliyindən kimsənin qatılmadığı o görüş Prezidentdə xoş təəssürat yaratmışdı, əhval-ruhiyyəsi nikbin, yüksək idi: O, həmin gün bir neçə dəfə xoylularla görüşündən məmnunluqla söz açdı. "Mən adamların üzündə sevinc, təbəssüm gördüm, hətta geyimləri də fərqli idi, səliqəli və gözəl geyinmişdilər" deyirdi.

Rayon İcra Hakimiyyətinin qarşısında toplaşan minlərlə adam ulu öndəri izdihamla, böyük sevgi və coşqu ilə qarşıladılar. Prezident ağsaqqallarla, ziyalılarla görüşdü. İcra Hakimiyyətinin binasında geniş foyedə "Heydər Əliyev Goranboyda 1978-1982" fotoguşəsinə tamaşa etdi. Ulu öndər o guşə ilə çox maraqlanırdı. Fotoşəkillər diqqətini o qədər cəlb elədi ki, gözündən gülürdü. Mənə tərəf dönüb:

– Bunları hardan tapmısınız – deyə xəbər aldı.

Mən:

– Cənab prezident, bu rayona səfərlərinizlə bağlı şəkilləriniz hər bir goranboylunun evində var. Sakinlər sevə-sevə saxlayırlar və biz də elə onlardan toplayıb bəzilərini buraya yerləşdirmişik, deyə məlumat verdim.

Dövlət başçısı o illəri bir daha xatırladı. Xalq məhəbbətini əks etdirən bu şəkillərin saxlanmasından məmnun olduğunu vurğuladı. Heydər Əliyev insanlarla rəftarında olduğu kimi məişətində, geyim-kecimində, yerişində, səliqə-səhmanında da qeyri-adi bir nümunə, örnək idi.

Orasını da deyim ki, həmin o gün ulu öndərin hər addımını, o səfərinin hər anını diqqətlə müşahidə edir, yaddaşıma köçürürdüm. O mənim otağımda oturmuşdu.

Birdən köməkçisi çölə çıxdı:

– Cənab Prezident sizi gözləyir, içəri keçin, – dedi.

Mən ulu öndərin yanına girəndə Prezidenti müşayiət edən (o zamanlar Dölət Neft Şirkətinin vitse - prezidenti, deputat olan) İlham Əliyev oradan çıxdı. Kabinetdə cənab Prezidentlə ikimiz qaldıq.

– Əyləş, - deyə stulu göstərdi. Mən Heydər Əliyevlə üzbəüz deyil, bir stul kənarda oturmaq istədim. O isə "yanlışımı" düzəldib: - Burada otur, - deyə üzbəüz stulu göstərdi. Suallar verdi, fikir soruşdu. Arada elə mülahizələr söylədi ki, həmişəki kimi – heyrətlənməmək mümkün deyildi.

Mənimlə söhbətimizə son verib ayağa qalxdı və biz birbaşa iclas salonuna yollandıq.

Ölkə rəhbərinin iştirakı ilə geniş müşavirə keçirildi. Müşavirədə ulu öndər böyük nitq söylədi, Goranboya çoxdan gəlmək istədiyini, lakin rayonların vəziyyətinin buna imkan vermədiyini qeyd edib: - "İki ay bundan qabaq Sizə yeni İcra Hakimiyyəti başçısı təyin etdik və bu iki ay müddətində, hiss edirəm ki, burada çox dəyişikliklər baş verib və işlər çox yaxşı tərəfə yönəlibdir" – dedi.

Daha sonra rayon mərkəzindən Ağcakəndə, qəsəbənin açılışına gəldik. Ağcakənddə də sakinlər – Göyçə mahalından yeni tikilən evlərə köçürülmüş insanlar Qəsəbə meydanında ölkə başçısını coşqu ilə qarşıladılar. Meydana toplaşanlarla salamlaşandan sonra ulu öndər yeni məskunlaşan ailələrdən birinin evinə baş çəkdi. Sonra oradan yeni tikilmiş və artıq fəaliyyətə başlamış məktəbə gəldi.

Nə gizlədim, Gəncədən xalça mağazalarının birindən müvəqqəti istifadə üçün alıb gətirdiyimiz və Prezidentin gəlişinə ayaqları altına saldığımız xalçanın üstü ilə addımlayan Heydər Əliyev (Qaçqınkomun sədri Əli Həsənov və mən onun ardınca gəlirdik) çiyni üstdən azacıq dönüb səmimiyyət və yumor qarışıq ifadə ilə:

– Bunlar burda qalacaq?- deyə soruşdu.

Mən Əli müəllimi qabaqlayıb:

– Əmin olun, Cənab Prezident, burda nə görürsünüzsə burada da qalacaq, - dedim...

İndi o vaxtdan illər keçib. Xatirələrimiz isə bitib-tükənmək bilmir.

Ulu öndərin millətə atalıq qayğısı, ölkə başçısının Azərbaycan xalqına misilsiz xidmətləri ilə bağlı nə qədər danışılası, deyiləsi söhbətlər var. Əslində isə, biz elə hər birimiz, bütün Azərbaycan vətəndaşları o görülən işlərin içərisindəyik. O işlər gündəlik güzəranımız, məişətimiz, həyat tərzimizdir. Sabaha inamımız isə daha böyükdür. Çünki qüdrətli, müasir Azərbaycanın təməl prinsiplərində, həyatında, fəaliyyətində bəşəri dəyərləri ehtiva edən Heydər Əliyevin irsi yaşayır. O möhkəm təməl ölkə başçısı İlham Əliyevin parlaq zəkası ilə gələcəyə daşınır.

***Novruz NƏCƏFOĞLU,***
***yazıçı-publisist***
***Siyəzən RİH başçısı***



# Nəsillərə örnək olan həyat yolu

**Tanrının Azərbaycan xalqına, dünya tibb elminə bəxş etdiyi dünya şöhrətli alimlər sırasında akademik Zərifə xanım Əliyevanın xüsusi yeri var. Azərbaycan oftalmologiya məktəbini dünyaya tanıdan böyük alim, şəfalı əlləri ilə gözlərə nur bəxş edən mahir həkim, dərin biliklərini tələbələri və həmkarları ilə bölüşən bacarıqlı pedaqoq, maarifçi və vətənpərvər, eyni zamanda, fədakar ömür-gün yoldaşı, qayğıkeş ana, zəngin daxili aləmə malik şəxsiyyət, səmimi və xeyirxah insan Zərifə Əliyeva bütün həyatını, enerjisini və istedadını Azərbaycan xalqına təmənnasız xidmətə həsr etmişdir. Onun həyatının hər səhifəsi mənəvi kamillik zirvəsinə aparan yolun ayrı-ayrı mərhələləridir.**

### Peşəkar və yorulmaz fəaliyyəti ilə insanlara daim nur bəxş edən oftalmoloq-alim

Zərifə xanımın dünyaya göz açdığı və böyüyüb boya-başa çatdığı ailə respublikada və onun hüdudlarından kənarda yaxşı tanınırdı. Atası Əziz Əliyev görkəmli dövlət xadimi, istedadlı alim olmaqla yanaşı, həm də bacarıqlı səhiyyə təşkilatçısı idi. Əlbəttə, zəngin biliklərə və yüksək mənəviyyata malik olan bu nüfuzlu şəxsiyyətin nümunəsi övladları üçün bir həyat məktəbi idi. Qardaşları Tamerlan və Cəmil kimi, Zərifə xanımın da həkimlik peşəsini seçməsində bu məqam mühüm rol oynamışdı.

1942-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olaraq 5 il sonra institutu fərqlənmə diplomu ilə bitirir. Oftalmoloq ixtisasına yiyələnmək arzusunda olduğuna görə sonra Moskvada Ümumittifaq Həkimləri Təkmilləşdirmə İnstitutunda ixtisasartırma kursu keçir.

Zərifə xanım fəaliyyətinin bütün mərhələlərində öz yüksək bilik və bacarıqlarını xalqının sağlamlığına həsr edib, bu yolda fədakar xidmətlər göstərib. 1950-ci illərdə Azərbaycanda da geniş yayılmış traxoma xəstəliyinin müalicə yollarının tapılması Zərifə xanım Əliyevanı düşündürür və o, bütün diqqətini və səylərini xəstəliklə mübarizəyə həsr edir. Zərifə xanım Əliyeva Azərbaycanın traxoma ocağı aşkar edilən bütün rayonları qarış-qarış gəzərək, traxoma və digər göz xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi haqqında əməli Tədbirlər Planını yüksək səmərə ilə həyata keçirir.

Ölkəmizdə traxoma əleyhinə işlədilən mövcud dərman preparatları ilə yanaşı, güclü antibiotik sayılan sintomisindən istifadənin ilk təşəbbüsçüsü də məhz Zərifə xanım Əliyeva olur. Traxomanın ləğvi yolunda yorulmaq bilmədən aparılan intensiv elmi araşdırmalar, əldə edilən dəyərli nəticələr Zərifə xanım Əliyevanın namizədlik dissertasiyasının ana xəttini təşkil edir, o, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi alır.

### Zərifə Əliyevanın zəngin elmi fəaliyyəti, tədqiqatları, Azərbaycan səhiyyəsinin inkişafına sanballı töhfələri

Akademik Zərifə Əliyevanın tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil edir. 1960-cı ildən 1967-ci ilədək Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində, 1967-ci ildən əmək fəaliyyətinin sonunadək Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışan Zərifə xanım Əliyeva apardığı elmi tədqiqatların nəticələrini ümumiləşdirərək, 1977-ci ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Elə həmin il Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, bir qədər sonra isə oftalmologiya kafedrasının müdiri seçilmişdir. 1981-ci ildə o, oftalmologiya sahəsində ən yüksək mükafata – SSRİ Elmlər Akademiyasının professor Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd edilməlidir ki, Zərifə xanım Əliyeva həmin ali mükafatı alan ilk qadın alim olmuşdur. 1983-cü ildə isə Zərifə xanım Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilir.

Bütün bunlar onun tibb elminə və praktikasına verdiyi töhfələrin nə qədər yüksək qiymətləndirildiyini bir daha ifadə edirdi. O, bir sıra orden və medallara layiq görülmüş, Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə Əliyeva dünya təcrübəsində birincilər sırasında peşə fəaliyyəti, xüsusən kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın aktual problemlərinə dair tədqiqatlar aparmışdır. Bu gün mütəxəssislərin, bu sahədə fəaliyyət göstərən dəyərli alimlərin də qeyd etdiyi kimi, Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin əsas sahələrindən biri olan klinik diaqnostika istiqamətində apardığı tədqiqatlar və onların nəticələri əsasında həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda əks olunmuşdur. Bu əsərlər və araşdırmalar elmi ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. O, Azərbaycanda lakrimologiyanın əsasını qoyan alim kimi qəbul edilir. Bütün bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya yazmışdır. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə akademik Zərifə Əliyeva yazmışdır.

Beləliklə, əminliklə qeyd edə bilərik ki, Zərifə xanım Əliyevanın zəngin elmi fəaliyyəti, nüfuzlu tədqiqatları Azərbaycan səhiyyəsinin inkişafına sanballı töhfələr vermişdir. Onun elmi nəticələri geniş miqyasda tətbiq edilməklə yanaşı, respublikada səhiyyənin digər sahələrinin də inkişafına stimul vermişdir. Akademik Zərifə Əliyevanın zəngin elmi irsi Azərbaycan tibb elminin sərvətidir. Onun elmi təfəkkürünün məhsulu olan 150-yə yaxın elmi tədqiqat işi, 12 monoqrafiya, dərslik və dərs vəsaiti, 1 ixtira və 12 səmərələşdirmə təklifi bu gün də aktuallığını qoruyub saxlayır.

Zərifə Əliyevanın çoxşaxəli fəaliyyətinin ən mühüm istiqamətlərindən birini pedaqogika sahəsi təşkil edib. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, Oftalmologiya kafedrasının müdiri kimi, o, yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib, həkimlərin biliyinin artırılması üçün qüvvəsini və vaxtını əsirgəməmişdir. Onun birbaşa rəhbərliyi altında gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Zərifə xanım Əliyevanın yetirmələri olan alimlər oftalmologiya sahəsində onun başladığı genişmiqyaslı elmi araşdırmaları bu gün də uğurla davam etdirirlər.

Zərifə xanım Əliyeva Azərbaycan qadınının ən gözəl xüsusiyyətlərini öz şəxsiyyətində təcəssüm etdirən əsl ziyalı idi. Görkəmli oftalmoloq-alimin dərin biliyi və mədəniyyəti, insanpərvərliyi, səmimiliyi və təvazökarlığı, Vətənə məhəbbəti və xeyirxahlığı onun şəxsiyyətini tərənnüm edən gözəl insani keyfiyyətlər idi.

Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti 1983-cü ildə nəşr edilmiş "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri" əsərində özünü daha parlaq büruzə verir. Qeyd etmək lazımdır ki, onun bu əsəri mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, həm də məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə cəmiyyətdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində önəmli rol oynayır.



Zərifə Əliyeva tibb işçisinin ətrafdakıların tərbiyəsində mühüm rol oynadığını, cəmiyyətin əxlaq etalonu olduğunu qeyd edirdi. Həkimin borcu insanın sağlamlığı, həyatı və xoşbəxtliyi naminə çalışmaqdır. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, başlıcası isə öz vicdanı qarşısında mənəvi məsuliyyəti deməkdir".

### Ağıllı, yüksək insani keyfiyyətlərə malik insan, nəciblik və mənəvi paklıq timsalı

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında dəyərli fikirlər söyləmişlər. SSRİ Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu Oftalmologiya kafedrasının professoru, akademik Filatov adına mükafatın laureatı V. V. Şmelyova Zərifə xanımın elmi fəaliyyətinə belə qiymət vermişdir: "Zərifə xanım, hər şeydən əvvəl, həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: o, həkim-oftalmoloq sənətinin vurğunu idi, elmi tədqiqatlara çox vaxt sərf edirdi, oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə Əziz qızı həyatda olduğu kimi, elmdə də özünə asan yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdır".

Dünya şöhrətli oftalmoloq, akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi". Akademik N.Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq, "biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" demişdir.

Akademik Zərifə Əliyeva ölkənin ictimai həyatında da yaxından iştirak etmişdir. O, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi dünya xalqlarını sülhə, əmin-amanlığa səsləyirdi. Oftalmoloqların qurultaylarının, konfranslarının, simpoziumlarının fəal iştirakçısı və bir sıra hallarda təşkilatçılarından biri olmuşdur. 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin inkişafı naminə nüfuzlu elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratmışdır.

Zərifə xanım Əliyeva respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, həmçinin Moskvada çıxan "Oftalmologiya xəbərləri" ("Вестник офтальмологии") jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Bütün bunlar Zərifə xanımın zəngin potensialının ictimai fəaliyyət sahəsində parlaq təzahürləri idi.

### Zərifə Əliyeva ulu öndərin ən sədaqətli dostu və etibarlı sirdaşı idi

Tale Zərifə xanıma başqa bir yüksək missiyanı da həvalə etmişdi. O, müasir müstəqil Azərbaycanın qurucusu, dahi şəxsiyyət, nəhəng siyasətçi Heydər Əliyevin həyat yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı idi.

Uzun illər Azərbaycanın təhlükəsizlik orqanlarında işlədikdən, 1964-cü ildən respublika Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə bu qurumun sədri vəzifələrində çalışdıqdan sonra ulu öndərin respublikaya ilk dəfə rəhbərlik etməyə başladığı 1960-cı illərin sonlarını xalqımız yaxşı xatırlayır. O dövrdə respublikanı ictimai, siyasi, sosial-iqtisadi və mənəvi böhran bürümüşdü. Üstəlik, respublikada rüşvətxorluq və korrupsiya geniş miqyas almışdı. Tənəzzülün qarşısını almaq, quruculuq proseslərinə geniş vüsət vermək üçün həyata keçirilən işlərdən əlavə, Heydər Əliyev keçmiş SSRİ məkanında ilk dəfə olaraq neqativ hallara qarşı məqsədyönlü və barışmaz mübarizəyə başlamışdı. Vəzifə səlahiyyətlərindən sui-istifadə edənlərə, xalq malını mənimsəyənlərə güzəşt edilmirdi. Təbiidir ki, narazı qalanlar da az deyildi. Onlar respublikada həyata keçirilən dərin islahatlara müxtəlif yollarla mane olmağa çalışırdılar.

Bütün bunlara baxmayaraq, görülən ardıcıl tədbirlər nəticəsində dövlət və cəmiyyət həyatında əsaslı dəyişikliklər baş verdi. Sovet İttifaqının ən geridə qalan respublikalarından biri olan Azərbaycan tənəzzüldən çıxaraq yüksəliş yoluna qədəm qoydu.

1982-ci ildən etibarən ulu öndər Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olaraq, çoxsaylı digər məsələlər ilə yanaşı, sovet dövlətinin son dərəcə önəmli sahələri üçün məsuliyyət daşıyırdı. Moskvada hakimiyyətin ən yüksək zirvəsində olan bu böyük dövlət xadimi öhdəsinə düşən vəzifələri uğurla yerinə yetirmək üçün həddindən artıq gərgin bir şəraitdə çalışmalı olurdu.

Xoşbəxtlikdən, bu cür ağır iş prosesində Heydər Əliyevin bir dayağı da ailəsindən aldığı mənəvi dəstək idi. Sonralar, 1995-ci ildə ulu öndər Zərifə Əliyevanın abidəsinin açılışı zamanı ömür-gün yoldaşının onun həyatında oynadığı rol haqqında belə demişdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Zaman bizi Zərifə Əliyeva kimi böyük şəxsiyyətlərdən uzaqlaşdırdıqca biz onların dəyərini daha dərindən dərk edirik. Zərifə xanım zəngin elmi-pedaqoji fəaliyyəti ilə adını elm və pedaqogika tariximizə qızıl hərflərlə yazmış böyük alim və müəllim, xeyirxah əməlləri ilə könülləri sevindirmiş nurlu insan, eyni zamanda, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin ömür-gün yoldaşı olmuş şərəfli Azərbaycan qadını və daim Azərbaycan sevgisi ilə yaşayan iki övlad böyütmüş, Vətənimizə Qarabağın və Şərqi Zəngəzurun xilaskarı İlham Əliyev kimi uzaqgörən rəhbər bəxş etmiş bir ana olaraq xalqımızın qəlbində özünə əbədi abidə ucaltmışdır.

Düşünürəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zərifə xanım haqqında söylədiyi sözlər bu böyük insanla bağlı keçirdiyimiz duyğuları dəqiq ifadə edir: "Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da, hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

Bu gün ulu öndər Heydər Əliyevin başladığı böyük quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən zamanın çağırışlarına uyğun olaraq yaradıcı surətdə davam etdirilməsi nəticəsində Azərbaycan geniş bir bölgədə söz sahibi olmuş və dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilmişdir. Zərifə xanımın qəlbinin bütün hərarətini verdiyi ailə ocağı bu gün də gur yanır, onun şöləsi bütün Azərbaycana yayılıb. Möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qoruduqları bu ocağın nuru vətənimizin və xalqımızın xoşbəxt gələcəyinə gedən yolu aydınladır.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

# Sadəlik, xeyirxahlıq və kübarlıq mücəssəməsi



**Tarixin ən qədim qatlarından üzü bəri cəmiyyətdə qadının ən yüksək dəyəri ana olmaq məqamı mərtəbəsində müəyyən edilmişdir. Heç də təsadüfi deyildir ki, bu məsələ İslam peyğəmbərinin (s.) adı keçən bir hədisdə "cənnət anaların ayağı altındadır" ifadəsi şəklində öz təsdiqini tapmışdır.**

Təbii ki, qadın üçün ana məqamı ən yüksək dəyərdir. Lakin yeganə və son dəyər deyildir. Bəşəriyyətin inkişafında kişilərlə bərabər, qadınlar da zaman-zaman qadın- vətəndaş, qadın-ictimai-siyasi xadım, qadın-alim, qadın-yaradıcı şəxsiyyət kimi böyük töhfələr vermişlər. Bu mənada azərbaycanlı qadınlar nəinki istisna deyildir, hətta bir çox hallarda nümunədir. Heç də təsadüfi deyildir ki, Şərq və İslam aləmində ilk respublika yaradan xalqımız qadınlara seçib-seçilmək hüququ verən dünya öncülü kimi tarixə öz şərəfli adını yazdırmışdır.

Azərbaycan qadının bütün dövrlər üçün ən müsbət keyfiyyətini özündə birləşdirən görkəmli alim və ictimai xadim akademik Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti müasirlərinə və gələcək nəsillərə gözəl bir nümunədir. Heç şübhəsiz ki, həyatda uğur qazanmaq üçün insanın şəxsi keyfiyyətləri ilə yanaşı, onun əsil-nəcabətinin, doğulub böyüdüyü , tərbiyə aldığı, yaşadığı, fəaliyyət göstərdiyi mühitin əhəmiyyəti və təsiri vacib şərtlərdir.

Bu il 100 illik yubileyi xalqımız tərəfindən böyük sevgi, hörmət və ehtiramla qeyd olunan akademik Zərifə xanım Əliyeva böyük alim olmaqla yanaşı, sadəlik, xeyirxahlıq və kübarlıq mücəssəməsi kimi yaddaşlarda yaşamaqdadır. Ömrü və həyatı üç dahi şəxsiyyətin– professor Əziz Əliyevin, ümummilli lider Heydər Əliyevin və müzəffər Ali Baş Komandan İlham Əliyevin həyatı ilə birbaşa bağlı olan Zərifə xanım keşməkeşli və zəngin bir mühitdə doğulub böyüməklə yanaşı, bu üç dahinin birinə övlad, birinə həyat yoldaşı və digərinə ana kimi həyan olmuş, onlara mərhəm və pozitiv təsir göstərmiş, xoş əhval və rahat fəaliyyət mühiti yaratmışdır.

Zərifə xanımın babaları İrəvanda məşhur əsilzadələrdən olublar. Əziz Əliyevin atası Məmmədkərim Qurbanəli oğlunun və ana babası İbrahim bəy Süleymanbəyovun İrəvan yaxınlığındakı Hamamlı kəndində mülkləri, İrəvanda böyük imarətləri və dükanları var idi. Heyif ki, o gözəl yurdlar 1918-ci ildə erməni-daşnak başkəsənləri tərəfindən qəsb olundu, dağıdıldı, sakinləri dədə-baba yurdlarından didərgin düşdülər və bir daha doğma ocaqlarına qayıda bilmədilər.

Ermənilərin 1918-20-ci illərdə xalqımıza qarşı törətdikləri soyqırımı cinayətləri Zərifə xanımın mənsub olduğu nəsildən yan keçməmişdir. Erməni daşnak başkəsənlərinin etnik təmizləmə əməliyyatları nəticəsində bu ailə uzun əsrlər boyu yaşadıqları doğma İrəvan şəhərindən qaçqın düşərək Naxçıvana, oradan Cənubi Azərbaycanın Ərəblər kəndinə getmiş, sonra isə Şərurun Şahtaxtı kəndində məskunlaşmışdır. Zərifə xanım Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açmışdır. Elə həmun ildə də ailəsi Bakıya köçən Zərifə xanım Əliyeva böyük ziyalı və intellektual-mənəvi mühitdə böyümüşdür.

Zərifə xanımın atası, Azərbaycanın dövlətçilik və səhiyyə tarixində mühüm xidmətləri olan görkəmli dövlət xadimi Əziz Əliyev Bakı ziyalıları arasında böyük nüfuza malik idi.

1998-ci ildə Əziz Əliyevin anadan olmasının 100 illik yubiley tədbirində çıxış edən ümummilli lider Heydər Əliyev onun şəxsiyyəti ilə fəaliyyəti arasındakı vəhdəti xarakterizə edərək demişdir: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox görkəmli xadimləri ilə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı."

Zərifə xanımn həkimlik sənətini seçməsində də yəqin ki, ailə ənənələrinin böyük təsiri olmuşdur. Atası Əziz Əliyev, böyük qardaşı Tamerlan Əliyev, bacısı Ləzifə xanım, bibisi Göyçək xanım, əmisi Ziyad Əliyev, bibisi Şamama xanım Ələsgərova, bibisi oğlanları Qurban Əliyev (Ali və Orta ixtisas təhsili naziri işləyib), Yusif Əliyev görkəmli həkim, səhiyyə təşkilatçısı və tibb alimləri olmuşlar.

Zərifə Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirirərək Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. Ali ixtisaslı həkim-oftalmoloq kimi Vətənə qayıdan gənc doktor Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur, həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını davam etdirir.

Zərifə xanımın həyatını, elmi və ictimai fəaliyyətini araşdıran tədqiqatçılar çox haqlı olaraq bu dəyərli şəxsiyyəti bir neçə keyfiyyət üzrə xarakterizə edirlər: övlad, həyat yoldaşı, ana, həkim, pedaqoq, alim, maarifçi, ictimai xadim. Bu siyahını uzatmaq da olar. Amma fikrimcə, o, hər şeydən əvvəl, istedadlı genlərə, möhkəm milli və ailə ənənələrinə malik, ziyalı və kübar mühitdə böyümüş, yüksək mədəniyyətə və zəngin mənəviyyata, dərin biliklərə yiyələnmiş, hər cür fədakarlığa hazır olan mükəmməl bir İnsan idi.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri olduqca dəqiq və təsirlidir: "Mənim anamın həyat fəlsəfəsinin köklərini, hər şeydən əvvəl, onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq – insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı.

Mənim anamın ailəsi o vaxtkı cəmiyyətin ən ziyalı hissəsinə mənsub olub. Uşaqların yanında çox vaxt cəmiyyətin mənəvi həyatının bir çox sahəsini əhatə edən söhbətlər olurdu. Bu ailədə uşaqların tərbiyəsinə böyük əhəmiyyət verilirdi və musiqi dərslərindən başqa, onlara öz biliklərini inkişaf etdirmələri də aşılanırdı.

Atasının – Əziz Əliyevin həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi. Zərifə xanım həkim etikasına həsr olunmuş kitabının fəsillərindən birini belə adlandırıb: "Fədakarlara Günəş kimi ehtiyacımız var".

Bütün dahi şəxsiyyətlər kimi, akademik Zərifə xanım Əliyeva da son dərəcə təvəzökar, sadə, ünsiyyətcil, xeyirxah insan olmuşdur. O zaman təkcə Azərbaycanda deyil, bütün SSRİ məkanında tanınmış elm və dövlət xadimi olan professor Əziz Əliyevin ailəsində doğulub böyüməsinə baxmayaraq, Zərifə xanım tələbə yoldaşlarından, rəfiqələrindən fərqli geyimə, davranışa, həyat tərzinə malik deyildi, əksinə, daha çox mehribanlığı və çalışqanlığı ilə seçilərdi. Tələbəlik illərindən Zərifə xanımla dostluq edən, onun peşə həmkarı Azərbaycan oftalmologiya məktəbinin başqa bir görkəmli nümayəndəsi professor Zəhra Quliyeva öz xatirələrində yazır:

"O, xeyirxah, təkrarolunmaz şəxsiyyət idi. Tez-tez həkimlik sənəti barədə diskussiyalar edər, sevincli, kədərli düşüncələrimizi bölüşərdik. Xəstələr gözlərə nur bəxş edən Zərifə xanımın vurğunu idi, onu çox istəyirdilər, çünki qayğıkeş həkim onların əsl ürək dostuna, sirdaşına çevrilmişdir."

Zərifə xanım Əliyevanın bütün tibbi və elmi fəaliyyəti ictimai və dövlət əhəmiyyəti kəsb edən xəstəliklərlə mübarizəyə həsr olunmuşdur.

Zərifə xanımın həkimlik fəaliyyətinin ilk illərində SSRİ-də bir çox infeksion xəstəliklər geniş yayılmışdı. Bunlardan biri də gözün selikli və buynuz qişalarını zədələyən bakteriya mənşəli traxoma xəstəliyi idi ki, görmə orqanının zədələnməsi nəticəsində yaranan çapıq toxuma tam korluğa gətirib çıxarırdı.

İkinci dünya müharibəsindən sonrakı vaxtlarda Azərbaycanda da olduqca geniş yayılmış, dünyada 400 milyon insanın gözünü zədələyən, 80 milyondan çox insanı isə dünya işığından məhrum edən dəhşətli traxoma xəstəliyi ilə mübarizə həkimdən dərin biliklə yanaşı, təşkilatçılıq, humanizm və fədakarlıq tələb edirdi. Çox sonralar kitablarının birində "Fədakarlara Günəş kimi ehtiyacımız var" , – yazarkən yəqin ki, akademik Zərifə xanım Əliyeva həkimlik praktikasının ilk illərində traxoma ilə mübarizədə keçirdiyi çətin anları xatırlamışdır. Günəş dünya işığı deməkdir. Goz həkiminin fədakarlığı insanlara Günəş bəxş etmək uğrunda mübarizədir. Əgər o illərdə Zərifə həkimin və onun yoldaşlarının fədakarlıqları olmasaydı ötən əsrin əllinci illərində Azərbaycanda on minlərlə insan dünya işığına həsrət qala bilərdi.

Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirici söhbətlər aparırdı.

Zərifə xanım Əliyevanın xəstəliklərin profilaktikası sahəsində tibbi biliklərin geniş yayılması, maarifləndirmə işində jurnalistlər, təbliğatçılarla yanaşı peşəkar ixtisaslı həkimlərin iştirakının vacibliyi barədə fikirləri o vaxtkı SSRİ-də səhiyyə maarifi sahəsində ciddi yeniliklərdən biri idi.

Akademik Zərifə Əliyevanın elmi tədqiqatları əsasən ictimai-sosial əhəmiyyət daşıyan göz xəstəlikləri, onların qarşısının alınması və müalicəsi istiqamətində olmişdur. Zərifə xanımın həkimlik və alimlik fəaliyyətinin böyük bir hissəsi, o cümlədən, doktorluq dissertasiyası sənaye sahələri sürətlə inkişaf edən Azərbaycanda gözün yeni bir spesifik xəstəliyinin-peşə xəstəliyinin müalicə və profilaktikasına həsr edilmişdir. Ötən əsrin 60-70-ci illərində Bakı və Sumqayıt şəhərləri regionun ən böyük sənaye mərkəzlərinə çevrilmişdi, burada onlarca neft – maşınqayırma, kimya zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal edilən, istifadə olunan müxtəlif kimyəvi maddələrin gözə təsirinin öyrənilməsi, qarşısının alınması və müalicəsi sahəsində o vaxtkı SSRİ miqyasında ilk öncüllərdən biri, bəlkə də birincisi akademik Zərifə xanım Əliyeva olmuşdur.

Fikrimcə, alimin tədqiqatlarının bu sahələrə yönəlməsində onun ömür-gün yoldaşı, böyük dövlət xadimi, Heydər Əliyevin müəyyən istiqamətverici təsiri də olmuşdur. Bu barədə akademikin qızı Sevil xanım Əliyeva anası haqqında xatirələrində yazır:

"Anam uşaqlara, ailəyə çox bağlı idi. Bu onun üçün həmişə birinci yerdə dururdu. Atam bilirdi ki, anamın böyük elmi potensialı, qabiliyyəti var. Buna görə də, onun irəli getməsinə çalışırdı. Yadımdadır, gecə biz hamımız yatandan sonra anam öz elmi işini, məqalələrini, monoqrafiyalarını yazmaq üçün oturardı. Biz Moskvaya gedəndə o, həmişə həmkarları ilə – oftalmoloqlarla görüşərdi. O, təbrik nitqlərinə meyilli deyildi, məşhurlaşmaq, başqalarından seçilmək arzusu yox idi. Nail olduğu hər şey gərgin elmi axtarışların və böyük zəhmətin nəticəsi idi. Onun imkanlarını bilən atam icazə verə bilməzdi ki, bu potensial gerçəkləşməmiş, istifadəsiz qalsın. Siz fikir ayrılıqları, mübahisələr haqqında bilmək istəyirsiniz. Onların mübahisələri məhz bundan ötrü idi: atam deyirdi ki, dayanmaq olmaz, tədqiqatları davam etdirmək lazımdır. O, anamı həmişə buna ruhlandırırdı".

Zərifə xanım 1968-ci ildən başlayaraq elmi fəaliyyətinin əsas hissəsini professional oftalmologiyanın problemlərinin öyrənilməsinə həsr etmişdir. Dünyada peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası məhz azərbaycanlı alim Zərifə Əliyeva tərəfindən Bakıda yaradılmışdır. O, praktiki olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və s. kimi onlarca elmi məqalə və monoqrafiyalar çap etdirmişdir.

Uzunmüddətli araşdırmaların və tədqiqatların nəticələri görkəmli alimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmniş və bu tədqiqatlara görə Zərifə xanım Əliyeva 1977-ci ildə tibb elmləri doktoru elmi adına layiq görülmüşdür.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına Mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşmüşdür.

Zərifə xanımın həkimlik və alimlik fəaliyyətində yüksək mədəniyyət, ziyalılıq, kübarlıq, alim və vətəndaş məsuliyyəti kimi yüksək insani keyfiyyətlər həmişə diqqəti cəlb etmiş, həmkarlarına və tələbələrinə gözəl bir nümunə olmuşdur. Onunla yaxından elmi əməkdaşlıq etmiş, birgə araşdırmalar aparmış SSRİ Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun göz kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Nina Borisovna Şulpina öz alim həmkarı haqqında böyük səmimiyyətlə yazmışdı:

"Zərifə xanım elə bir insan idi ki, bir dəfə ünsiyyətdə olan adam onu ömür boyu unuda bilmir. Bu cür şəxsiyyətlər yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi yadda qalır. Zərifə xanım Əziz qızı haqqında ürəyimdən keçənləri ifadə etməyə söz tapmıram. Obyektivlik naminə qeyd etmək lazımdır ki, Zərifə xanım Əziz qızı elmi tədqiqatların rəhbəri, alim, pedaqoq, həkim, ictimai xadim kimi öz missiyasını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, həm də gözəl ana və həyat yoldaşı idi. O, bütün varlığı ilə həyat yoldaşının, daha sonra isə nəvələrinin də qayğıları ilə yaşayırdı".

Akademik Zərifə Əliyeva gözəl pedaqoq, tədqiqatçı alim, xəstəliklərin profilaktikası və tibbi biliklərin yayılmasında fəal təbliğatçı olmaqla yanaşı, Azərbaycanda müasir oftalmologiya məktəbini yaradan tibb korifeylərimizdən biridir.

Zərifə xanım səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında tibb alimlərinin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Bu barədə onun tələbələrindən biri oftalmoloq-alim, professor Kərəm Kərimov yazır: "Mən özümü xoşbəxt sayıram, çünki vaxtilə bir çox gənc, istedadlı mütəxəssis kimi Zərifə xanım Əliyevanın diqqət əhatəsində olmuşam. Öz fəaliyyət sahəmdə daha böyük nailiyyətlərə çatmaq, uğurlar əldə etmək üçün, böyük hörmət bəslədiyim Zərifə xanımın qarşısında layiqli hesabat vermək üçün yorulmaq bilmədən öyrənirdim, təkmilləşirdim. O. bir məktəb yaratmışdır. İndi o böyük məktəbin yetirmələri: professor Nazim Tağızadə, professor Rasim Hacıyev, professor Qalib İskəndərov, tibb elmləri doktorları, professor Paşa Qəlbinur, professor Çingiz Cərullazadə, Rafiq Təhməzov və bir çox başqaları oftalmologiya sahəsində öz sözlərini demiş alimlərdir və Azərbaycanı dünyada layiqincə təmsil edirlər. Zərifə xanım Əliyevanın yetirmələri olduğumuzdan bütün tələbələri kimi, mən də həmişə böyük qürur hissi duyur, fəxr edirəm".

Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Akademik Zərifə Əliyevanı həmişə həkim etikası və tibbi deontologiya məsələləri düşündürmüşdür. O, gənc həkimlərin insan və vətəndaş kimi yetişməsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə böyük diqqət vermiş, həkim xəstə münasibətlərinin tədqiqi sahəsində elmi araşdırmalar aparmışdır. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə xanım, haqlı olaraq, belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək , hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Özünün zəngin tibbi təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin sözlə müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq təşkil edir.

Tibb elminin inkişafına verdiyi böyük töhfələrə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Akademik Zərifə xanım Əliyeva Sovet və Azərbaycan oftalmologiya elminin görkəmli xadimlərindən biri, 12 monoqrafiya və dərslik vəsaitinin, 150 yaxın elmi işin, bir ixtira və 12 səmərələşdirici təklifin müəllifi, yüzlərlə yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında böyük əməyi olan nüfuzlu alim kimi müasirləri tərəfindən xoş xatirələrlə anılır.

Dünya şöhrətli oftolmoloq, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik M. Krasnov Zərifə xanım Əliyeva haqqında xatirəsində yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım deyərdim: o, həm xeyirxah idi, həm ağıllı, həm də qüdrətli... Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

Əbəs yerə demirlər ki, insanın böyüklüyü onun sadəliyindədir. Bir təbib, bir müəllim, bir alim, bir ictimai xadim kimi qazandığı şöhrətinin ən yüksək zirvədə olduğu vaxtlarda da akademik Zərifə xanım Əliyeva belə də qaldı: qayğıkeş, mehriban, gülərüz, Bəlkə də bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı İnsanlıq zirvəsini bütün şan-şöhrətlərdən uca tuta bilsin.

Belə bir deyim də var: "hər uğurlu kişinin arxasında bir ağıllı qadın dayanır". Böyük bir məhəbbətlə sevdiyi ömür-gün yoldaşını həmişə dərin hörmət və ehtiramla xatırlayan ulu öndər Heydər Əliyev deyirdi:

Zərifə xanımın Ana obrazı da mükəmməldir, təkrarsızdır. Hər bir valideynin öz övladlarını sevməsi təbii hissdir. Lakin övladı sevərək sağlam, mədəni, təhsilli, vətənpərvər böyütmək, xoşbəxt yaşatmaq, ədəb-ərkan, tərbiyə vermək, kamil insan kimi yetişdirmək hər valideyinin imkanı və bacarığı daxilində deyildir. Bu mənada Zərifə xanım həm də xoşbəxt anadır ki, mənsub olduğu xalqa dəyərli övladlar bəxş etmişdir. Oğlu İlham Əliyevin şagird, tələbə, gənc alim kimi uğurlarına sevinsə də, Zərifə ana müstəqil Azərbaycanı qüdrətli dövlətə çevirən, ərazi bütövlüyünü təmin edən Prezident və Ali Baş Komandan İlham Əliyevin zəfər təntənəsini görə bilmədi. Amma ruhlar yaşayır. Və bu gün Zərifə xanımın ruhu şad və arxayındır.

Heç şübhəsiz ki, hər bir insan kimi Zərifə xanımın da həyatı, ailəsi, yaxınları barədə bir çox arzuları var idi. Onun arzularından biri Azərbaycanda elmi-kliniki Oftalmoloji Mərkəzin yaradılması idi. Ötən əsrin 80-ci illərinin əvvəllərində mərkəzin tikintisinə başlanılsa da, Heydər Əliyevin 1982-ci ildə iş yerinin Moskvaya dəyişməsi ilə əlaqədar bu işlər ləngidi, sonrakı illərdə isə tamamilə dayandırıldı. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində Milli Oftalmologiya Mərkəzi tikilib başa çatdırıldı. 2009-cu il mayın 22-də Prezident İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni binasının açılışı oldu.

Hazırda regionun ən böyük tibb ocaqlarından biri olan akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi görkəmli alim və böyük insan Zərifə xanım Əliyevanın xatirəsini və arzularını yaşadan qiymətli bir abidədir.

Zərifə xanımın ən böyük abidəsi isə gözünə nur verdiyi, şəfqət bəxş etdiyi insanlar, onların övladları, yetişdirdiyi tələbələr, yazdığı kitablar, insanlıq üçün irs qoyub getdiyi zəriflik və alicənablıq, xeyirxahlıq və insan sevgisidir. Akademik Zərifə xanım Əliyeva həm də ona görə xoşbəxt insandır ki, onun xeyirxah əməlləri yaşayır və davam edir. Onun elmi tədqiqatları, yazdığı əsərlər bu gün də insanlara fayda verir.

Zərifə xanımın humanist həkimlik peşəsi, alim, ictimai xadim kimi fəaliyyəti, ləyaqətli həyat yoldaşı, ana, nənə missiyası bu gün də ulu öndər Heydər Əliyevin ocağında Mehriban xanım Əliyevanın şəxsində yeni, daha böyük məna kəsb edərək davam edir. Hörmətli Mehriban xanım Əliyeva da istedadlı göz həkimi, görkəmli alim və səhiyyə təşkilatçısı, dövlət xadimi kimi humanizmi və xeyirxahlığı təcəssüm etdirir, həm də ailə ənənələrindən gələn şərəfli missiyanı yaşadır, öz yorulmaz fəaliyyəti ilə milyonlarla insana sevinc, xoşbəxtlik və gələcəyə inam bəxş edir.

**Musa QULİYEV,**
**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri**

# Bitməyən bir eşq hekayəti

**2023-cü il çağdaş Azərbaycan tarixində silinməz izlər qoymuş iki önəmli şəxsiyyətin, iki örnək insanın – böyük siyasi xadim, keçmiş Azərbaycan SSR-nin (1969-1983) və müstəqil Azərbaycan Respublikasının (1993-2003) rəhbəri Heydər Əliyevin və xanımı, görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmalarının 100 illik yubileyidir.**



Əliyevlər fenomeni haqda çoxsaylı tarixi-publisist əsərlərin müəllifi, Xalq yazıçısı Elmira Axundovanın növbəti kitabını oxuyanların ilk qənaəti, yəqin ki, belə olacaq: onları tale bir-biri üçün yaradıb! Zərifə və Heydər Əliyevlərin ailə ittifaqı yalnız iki unikal insanın şəxsi xoşbəxtliyi zəminində qurulmayıb, həm də minlərlə insanın həyatında və taleyində, Azərbaycan xalqının XX əsrdəki mədəni-mənəvi mövcudluğunda əcib, xeyirxah iz qoyub.

Uzun illərin dostu, filoloq və diplomat həmkarım, tanınmış yazıçı-publisist Elmira Axundova "Zərifə və Heydər Əliyevlər: Əbədiyaşar məhəbbət" kitabını ərsəyə gətirmək üçün xeyli müddət material toplayıb. Tək Azərbaycanda deyil, keçmiş SSRİ-nin müxtəlif guşələrində Əliyevlər ailəsini yaxından tanıyan onlarla insanla görüşərək xatirə və təəssüratlarını qələmə alıb. Həmsöhbətlər arasında siyasi xadimlər və rəhbər partiya işçiləri, tanınmış alimlər və görkəmli sənət adamları, yaxın qohumlar, iş yoldaşları, xidməti personal təmsilçiləri var. Zərifə və Heydər Əliyevlər təmasda olduqları bu insanların hər birinin yaddaşında silinməz izlər qoyub, qeyri-adi məhəbbətlərinin işıq və istiliyini onlarla da paylaşıblar. Azərbaycan xalqının tarixində və taleyində Heydər Əliyev fenomenini çoxcildlik "Şəxsiyyət və zaman" sənədli romanında ictimai-siyasi çalarlarla rəsm edən Elmira xanım yeni kitabında şəxsi həyat tarixçəsinə əsaslanaraq iki görkəmli şəxsiyyətin qarşılıqlı münasibətləri zəminində həssas və insani mövzuya toxunub.

Müəllifin rusca qələmə aldığı bu əsəri ana dilimizə böyük məmnuniyyət və məsuliyyət duyğusu ilə çevirdim...

***

Heydər Əliyevi ilk dəfə 1970-ci ildə görmüşdüm. O zaman Azərbaycan Dövlət Universiteti adlanan, hələ Cümhuriyyət yadigarı olduğunu bilmədiyimiz ilk universitetimizin yarıməsrlik yubiley təntənələrinə gəlmişdi. Zərifə xanımı isə heç zaman görməmişdim. Amma hələ o vaxtlar – 1970-ci illərin sonlarında yenicə tanınmağa başladığım ədəbi-elmi mühitdə onun haqqında rəylər, bir-birindən maraqlı fikir və xatirələr eşitmişdim. Xüsusən də nisbətən geniş əlaqələrə malik yaşlı həmkarlarım Zərifə xanımın bütün SSRİ miqyasında görkəmli oftalmoloq – alim olmaqla yanaşı nəcib, xeyirxah, rəhmdil və ürəyiyumşaq insan kimi tanındığını, sadəliyi və səmimiliyi ilə seçildiyini, çətinliyə düşənlərə daim yardım əli uzatdığını, bütün keyfiyyətləri ilə respublikanın birinci şəxsinə, həyat yoldaşı Heydər Əliyevə layiq olduğunu deyirdilər. O zaman hələ mühafizəkarlığı ilə seçilən kommunist dövlətində – Sovet İttifaqında "birinci xanım" – "first lady" institutu rəsmən mövcud olmasa da, Zərifə xanım öz nüfuzu ilə bu adı cəmiyyətdə və xalq arasında qazanmışdı.

İlk gənclik illərindən indiyə qədər dostluq etdiyim tanınmış cərrah-oftalmoloq və maraqlı bədii əsərlər müəllifi, tibb elmləri doktoru, professor Paşa Qəlbinur hələ o zamanlar, yəni 1980-ci illərin əvvəlində Bakıda və Moskvada dəfələrlə görüşdüyü, ünsiyyətdə olduğu Zərifə xanım haqda böyük heyranlıq hissi ilə danışırdı. Həm də tək Zərifə xanımı deyil, Tibb İnstitutunda birlikdə çalışdığı böyük bacısı Ləzifə xanımı, qardaşları Tamerlan və Cəmil Əliyevləri də yaxşı tanıyırdı. Həmkar olmaqdan başqa ailələri – baba və nənələri arasında əlaqə XX əsrin əvvəlində, hələ tam bir Azərbaycan şəhəri olan İrəvanda başlanmışdı.

Yadımdadır ki, poetik təbiətli gənc Paşa respublika rəhbərinin xanımından danışanda onu gözə görünmədən nəcib işlər görən xeyirxahlıq mələyi, şəfqət ilahəsi ilə müqayisə edirdi. Yüzlərlə insana təmənnasız yardım əli uzadan Zərifə xanım gənc həmkarından da diqqət və qayğısını əsirgəməmişdi. Sonralar Paşa Qəlbinur "Vətən sevgisi" adlı xatirə yazısında bacarıqlı həkim – oftalmoloq kimi yetişməsində akademik Zərifə Əliyevanın rolundan bəhs edərək yazmışdı:

"Zərifə xanım Moskvada nəşr olunan və keçmiş Sovet İttifaqının ən nüfuzlu tibbi nəşrlərindən sayılan "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinin üzvü idi. Baş redaktor isə Ümumittifaq Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Mən bu elm ocağında əvvəl aspiranturada, sonra isə doktoranturada təhsil almışdım. Zərifə xanımla vaxtaşırı həmin elmi mərkəzdə, müxtəlif elmi toplantılarda, yaxud jurnalın redaksiya heyətinin yığıncaqlarında görüşürdük. Bu qısa görüşlərdə həmişə çox səmimi olurdu. Elmi işimlə, qayğılarımla maraqlanırdı.

Bir dəfə mənə dedi ki, Heydər Əliyeviç də sənin uğurlarını izləyir, elmi nailiyyətlərin haqda evimizdə söhbətlər olur. Mən bir az utanaraq Heydər Əlirza oğluna və ona təşəkkür etdim. Bir müddət sonra Göz Xəstəlikləri İnstitutunun təqdimatı ilə elm sahəsində Ümumittifaq Lenin komsomolu mükafatına layiq görüləndə Heydər Əlirza oğlu Moskvadan zəng vurub məni təbrik etdi".

Heç şübhəsiz, Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin gənc oftalmoloq-alimin elmi uğurları ilə belə yaxından maraqlanmasında Zərifə xanımın rolu, xidmətləri olmaya bilməzdi. Mənə elə gəlir ki, bu alicənab xanım heç vaxt dövlət idarəçiliyi məsələlərinə qarışmasa da, ölkənin və xalqın gələcəyi ilə bağlı hadisələr və insanlar haqqında Heydər Əliyevə söz demək, fikir və mülahizələrini açıq bildirmək, pozitiv rəy yaratmaq, yaxud haqsız hücumlardan qorumaq missiyasını bütün həyatı boyu davam etdirmişdi.

Sovet dövründə Sumqayıt, Gəncə şəhər partiya komitələrinin birinci katibi, Azərbaycan KP MK katibi vəzifələrində çalışmış və Heydər Əliyevin ən yaxın silahdaşlarından olmuş diplomat həmkarım Həsən Həsənovun danışdığı bir epizod da çox səciyyəvidir. Zərifə xanımın milli mənəviyyat və dövlətçilik işinə ilk baxışdan nəzəri cəlb etməyən, amma çox lazımlı, faydalı töhfəsindən xəbər verir. Həsən müəllim Gəncədə işə başlayanda şəhərdəki tarixi abidələr sırasında yarıuçuq vəziyyətə düşmüş bir neçə məscidi də təmir etdirmişdi. Amma məlum səbəblər üzündən bu "özfəaliyyətini" xüsusi nəzərə çarpdırmamışdı.

Bir müddət sonra Zərifə xanımın çalışdığı Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun bir qrup əməkdaşı o zaman hələ tarixi Gəncə adı bərpa edilməmiş Kirovabadda olmuşdu. Əslində, Zərifə xanım özü də gəlməli imiş, lakin son məqamda proqram dəyişmişdi. Görünür, şəhərdəki abadlıq və quruculuq işləri ilə maraqlanan əməkdaşlar geri qayıdandan sonra çox təəccübləndikləri bir yenilik – qısa zamanda Gəncədəki digər tarixi abidələr kimi məscidlərin də yüksək zövqlə təmir və bərpa edilməsi haqda ona məlumat vermişdilər. Həmin günlərdə Azərbaycan KP MK birinci katibinin Gəncəyə gəlişi gözlənilirmiş. Təbii ki, şəhər partiya komitəsinin hazırladığı səfər proqramında Heydər Əliyevin tanış olacağı "obyektlər" arasında təzə təmirdən çıxmış dini abidələr yox idi. Çünki bu məsələ öncədən "yuxarılarla" razılaşdırılmadığı üçün Həsən müəllim işin çox da açılıb-ağardılmasını istəmirmiş. Amma gözləmədiyi halda MK-dan zəng vururlar ki, bəs yeni təmir edilmiş məscidlərlə tanışlığı niyə proqrama salmamısınız? Yoldaş Əliyev onlara da baxmaq istəyir. Sonra məlum olmuşdu ki, məsələ haqda ölkə başçısına xəbər çatdıran da, onu Gəncənin yeni həyat verilmiş dini abidələri ilə tanışlığa təşviq edən də Zərifə xanımdır. Məhz Zərifə xanımın təşəbbüs və istəyi ilə MK-nın birinci katibi sovet dövrü üçün qeyri-ordinar görünən bir addım atmış, məscidlərlə tanış olmuşdu.

Xatırlatdığım epizodlar kitabda yer almasa da, Zərifə xanımın nəciblik, təşəbbüskarlıq və vətənpərvərliyinə dəlalət edən analoji nümunələr onlarladır.

***

Çoxsaylı sənəd və xatirələrə, şəxsi təəssüratlara əsaslanan əsər üzərində işləyərkən Elmira xanımın görüşüb söhbət etdiyi tanınmış elm, mədəniyyət, incəsənət xadimlərinin, siyasətçilərin, sıravi adamların hamısı Zərifə xanımın əsas insani keyfiyyətləri sırasında nəciblik, sadəlik və səmimiliyini vurğulayıblar. Mərhum Prezident Heydər Əliyevi yaxından tanıyanlar sərtliyinə, tələbkarlığına baxmayaraq, eyni xüsusiyyətlərin onun da təbiətinə xas olduğunu təsdiq edə bilərlər. Birgə iş prosesində dəfələrlə bunun şahidi olmuşdum.

Təbii ki, yaş, mövqe və həyat təcrübələri arasındakı böyük fərq və iyerarxik asılılıq dövlət başçısı ilə münasibətlərimin sırf rəsmi müstəvidən kənara çıxmaması təəssüratını yarada bilər. Əslində, yəqin ki, belə olmalıdır və burada qeyri-adi, gözlənilməz heç nə yoxdur. Amma Prezident Heydər Əliyev yüksək insani taktı, səmimiyyəti nəticəsində bu sətirlərin müəllifi ilə yalnız iş haqqında, rəsmiyyət dilində danışmamışdı. Lazım biləndə, yaxud zərurət yarananda şəxsi motivli məsələlər, keçdiyi mürəkkəb ömür yolu, ailəsi, yaxınları haqda da söhbət açmışdı. Bir neçə dəfə müxtəlif münasibətlərlə mərhum həyat yoldaşı Zərifə xanımı yada salmışdı. Onun yüksək insani keyfiyyətlərini – həyat yoldaşına və övladlarına bağlılığını, nəcibliyini, alicənablığını, xeyirxahlığını xatırlamışdı. Hər dəfə belə söhbətlər zamanı Prezidentin sərt, cingiltili səsinin yumşaldığını, üzünün ifadəsinin dəyişdiyini, xəyalən keçmişə qayıtdığını hiss etmişdim.

Bir dəfə əhvalının yaxşı vaxtında 1970-ci illərdə MK-nın birinci katib olduğu dövrdə rəsmi şəxsə qarşı avtoxuliqanlıq etdiyinə görə yaxın qohumlarından birinin maşınını cərimə meydançasına qoydurduğunu xatırladı:

– Özü də tapşırdım ki, o maşına heç bir diqqət yetirməsinlər. Nə bilim, üstünə tent çəkməsinlər, aparıb kölgədə saxlamasınlar. Qoy günün, küləyin, yağışın altında qalıb çürüsün. O vaxt avtomobil böyük roskoş (cah-calal) sayılırdı. Hər adam ala bilmirdi. Qohumlar çox narahat olmuşdular. Düşünürdülər ki, maşın birdəfəlik əldən getdi. Amma qorxularından mənə bir söz deyə bilmirdilər. Gedib mərhum Zərifə xanıma minnətçi düşmüşdülər. Çünki yaxşı bilirdilər ki, belə məqamlarda yalnız Zərifə xanım mənə söz deyə bilər. Həm də birinci dəfə deyildi. Başqa işlər də olurdu. Qohumlar mənim idi, amma çətinliyə düşən kimi Zərifə xanımın yanına qaçırdılar. Arxayın idilər ki, ürəyiyumşaqlığına, xeyirxahlığına görə hər şey edəcək. Yanına gələnləri əliboş qaytarmayacaq..

XİN-də işlədiyim dövrdə belə ərköyün qohumlardan biri mənə sifariş göndərmişdi. Guya, xahiş edirdi, əslində, xahişdən çox tapşırıq, bəlkə də, əmr idi. Nə etməli olduğum barədə Prezidentdən məsləhət istəyəndə sərt səslə dedi:

– Heç nə eləmə! Yadında saxla: mənim yaxın qohumum oğlum, qızım, nəvələrimdir. Onların da aydın məsələdir ki, sənə bir işi düşməz.

Bir qədər susandan sonra gözləmədiyim halda soruşdu:

– Sən Zərifə xanımı görmüşdün?

– Xeyr, cənab Prezident. Amma haqqında çox eşitmişəm.

– Bilirsən, – dedi, – Qohum da özü üçündür. Övlad-uşaq da. Amma yaş keçdikcə başa düşürsən ki, insana qalan ömür-gün yoldaşıdır. Yeganə dost da ömür-gün yoldaşıdır. Rəhmətlik Zərifə xanım da belə insan idi. Həqiqi dost idi. Çox təəssüf ki, onu da vaxtsız itirdik... Mənə elə gəlir ki, Zərifə xanım bir an da olsun Heydər Əliyevin fikrindən çıxmır, asossiativ şəkildə hər yerdə, hər zaman xatırlanırdı. Zərifə xanımla bağlı olan hər xatirə onun üçün əziz idi, unudulmaz idi.

2000–2005-ci illərdə BMT baş katibi Kofi Annanın siyasi məsələlər üzrə müavini vardı: sloven əsilli Danilo Türk. Həm də BMT-də milli azlıqlar məsələsinə baxırdı. Sonralar Sloveniyanın prezidenti seçildi. 2013-cü ildə rəsmi səfərlə ölkəmizdə də olmuşdu.

Deməli, Nyu-Yorkda, Baş Assambleyanın Danilo Türkün də çıxış etdiyi iclasından sonra Heydər Əliyev birdən məndən soruşdu:

– Sən dilçisən, ədəbiyyatçısan. Bəlkə, bilərsən: bunun familiyası niyə Türkdür? Türklərlə nə əlaqəsi var?

– Slovenlər də əksər Balkan xalqları kimi Osmanlıya bac-xərac ödəyiblər, – dedim. – Ola bilsin ki, qanında türk qarışığı var. Ya da əcdadları türklərlə yaxınlıq elədiyinə, Osmanlının xidmətində dayandığına görə xalq elə o vaxtdan istehza ilə, bəlkə də, nifrətlə nəslinə "türk" adı verib...

– Bunlar ehtimallardır. Görünür, sən də dəqiq bir şey bilmirsən. Amma Sloveniya çox gözəl ölkədir, – deyə ani pauzadan sonra sözünə davam etdi. – 1976-cı ildə Zərifə xanımla orada dincəlmişdik. Lyublyananın yaxınlığında, Bled gölünün sahilində. Titonun iqamətgahında qalırdıq...

Gözləri uzaq bir nöqtəyə zillənmiş Prezidenti Zərifə xanımla bağlı düşüncələrindən ayırmamaq üçün sakitcə otaqdan çıxdım.

Budapeştdə işləyəndə bir dəfə maraq üçün Bled gölünə getdim. Həqiqətən də, çox füsunkar yerlər idi. İnsana rahatlıq və sükun təlqin edirdi. Ətrafdakı gözəlliyə Heydər Əliyevin və Zərifə xanımın gözləri ilə baxmağa çalışdım...

18 oktyabr 2002-ci ildə Dövlət Müstəqilliyi Günü "Gülüstan" sarayında ilk dəfə "ailəvi formatda" qeyd edildi. Hamı həyat yoldaşı ilə gəlmişdi. Prezident Heydər Əliyev təbrik nitqi söyləyəndən sonra zalda gəzib əksəriyyətini ilk dəfə gördüyü xanım qonaqlarla tanış olurdu. Bizə yaxınlaşanda həyat yoldaşım Şəhla xanımı təqdim etdim. Əlini sıxıb gülümsər ifadə ilə:

– Sən də ədəbiyyatçısan? – deyə soruşdu.

– Xeyr, həkiməm.

– Həkimsən? Hansı sahə üzrə?

– Kardioloqam.

– Həkimlik yaxşı peşədir, – deyə bir anlıq fikrə gedən Prezident təqdiredici ahənglə başını tərpətdi. – Yoxsa... ədəbiyyatçılar həmişə göynən uçurlar...

Təbii ki, "daş" mənim bostanıma atılmışdı.

Amma mənə elə gəlir ki, həmin anlarda Prezident Heydər Əliyevin öz xəyalı da səmalarda idi. Unudulmaz Zərifə xanımın yanında...

***

2001-ci il aprelin 28-də Rəşid Behbudov adına Mahnı Teatrında görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirə gecəsi keçirildi. Aradan iyirmi ildən çox vaxt ötməsinə baxmayaraq, həmin gecənin həzin-nisgilli atmosferi, ilk dəfə tamam fərqli ampluada gördüyüm Prezident Heydər Əliyevin kövrək səsi, yaşaran gözləri və ağrılı xatirələrin təsiri altında tez-tez dəyişən siması indi də yadımdadır. Ədəbi-musiqili gecənin rejissoru Cənnət xanım Səlimova rəsmiyyətdən qaçaraq tədbirə ailəvi ton, səmimiyyət və doğmalıq atmosferi verməyə çalışmışdı. Sanki o Zərifə xanımı tanıyan, sevən adamlar ailə mühitində toplaşıb onu yad edirdilər. Əslində də belə idi.

Prezident salona daxil olarkən ənənəvi alqış səsləri eşidilmədi. Elan olunmasa da, ortaya bir dəqiqəlik sükut çökdü. Sonra həzin musiqinin müşayiəti ilə rejissor Eldar Quliyevin Zərifə xanımın ömür yolundan bəhs edən "Elegiya" filmindən parçalar göstərildi. Filmdə Zərifə xanıma həsr olunan sənət əsərləri, ailəvi fotoşəkillər, onunla birgə işləmiş həmkarlarının xatirələri əksini tapmışdı.

Bir-birini əvəz edən aparıcılar Zərifə xanımın həyat yolu, elmi fəaliyyəti, yüksək insani keyfiyyətləri: nəcibliyi, xeyirxahlığı haqda danışdılar. Ona ithaf olunmuş şeirlərdən parçalar oxundu. Tanınmış müğənnilərin ifasında xüsusi həssaslıqla seçilmiş və xatirə gecəsinin ruhu ilə həmahəng səslənən muğam və xalq mahnıları səsləndi. Sevil xanım Əliyevanın Fikrət Qocanın sözlərinə bəstələdiyi "Ana" mahnısı sanki salondakı şəkillərdən bizə baxan Zərifə xanımın obrazını daha da canlandırdı. Onu xalqımızın ən gözəl mənəvi xüsusiyyətlərini özündə birləşdirən əsl Azərbaycan qadını, ailəsinə qırılmaz tellərlə bağlanan, övladları ilə nəfəs alan, həyat yoldaşının yaxın dostu və silahdaşı olan qayğıkeş ana, gözəl ailə xanımı, sədaqətli ömür-gün yoldaşı kimi gözlərimizdə daha da ucaltdı.

Prezidentin nitqi xüsusilə təsirli idi. Adətən, polad kimi cingildəyən səsi həmin axşam bəzən titrəyirdi, hətta bir-iki dəfə gözlərində yaş parıldadığını da gördüm. Mənə elə gəldi ki, son dərəcə həssas insan kimi tanıdığım Prezident Heydər Əliyev elə bil xatirə gecəsinin çox nisgilli, kədərli alınmasından bir qədər narahat olmuşdu. İştirakçıların salondan yalnız təəssüf hissi, qəm-qüssə ilə deyil, əksinə, Zərifə xanımın doğum günündə bu nəcib, xeyirxah qadının adına, əməllərinə, şəxsiyyətinə layiq işıqlı duyğularla ayrılmasını istəyirdi. Ona görə də üzünü hamıya, ilk növbədə isə proqramı hazırlayanlara tutub dedi:

"Təbiidir ki, bu, xatirə gecəsidir və siz də xatirə gecəsində onun bizdən ayrılması ilə əlaqədar həm sözlərinizlə, həm çıxışlarınızla, həm də ifanızla bizim üçün bu ayrılığın nə qədər çətin olduğunu göstərmək istədiniz. Ona görə də burada bir kədər, qəm, qüssə əhvali-ruhiyyəsi yarandı. Ancaq eyni zamanda bu gün onun anadan olan günüdür. Biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhvali-ruhiyyə salondan götürülsün".

Bu sözləri deyəndə isə mərhum Heydər Əliyev əməlli-başlı kövrəldi: "İndi Allahın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan gedibdir. Xatirimdədir, Moskvada xəstəxanada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. Ancaq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o vəfat etdi".

Xatirə gecəsində ölkəmizin tanınmış mədəniyyət, elm, incəsənət xadimləri də iştirak edirdilər. Tədbirin sonunda onların hər biri Heydər Əliyevə yaxınlaşıb Zərifə xanımla, birinci ledinin həyatlarında oynadığı xeyirxah rolla bağlı yaddaşlarında yaşatdıqları maraqlı epizodlar danışırdılar. Prezident xatirə bölüşənlərin hər birini diqqət və maraqla dinləyir, bəzən hansısa əlavələr edir, xoş xatirələrə görə minnətdarlığını bildirirdi. Zərifə xanımın xatirə gecəsi yaddaşımda həm də ömürlük eşqin, bitməyən bir sevginin təntənə gecəsi kimi qalıb. Prezident Heydər Əliyev həyatının bütün sahələrində olduğu kimi, sevgisində, xanımına bağlılığında, onun işıqlı xatirəsinə sədaqətində də, həqiqətən, bir örnək, nümunə idi.

***

Başqa bir tarixi də yaxşı xatırlayıram. 16 may 1998-ci il. Həmin axşam Respublika sarayında (indi Heydər Əliyev sarayı) Dağıstandan gəlmiş böyük bir nümayəndə heyətinin iştirakı ilə görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirildi. Əgər amansız xəstəlik həyatdan vaxtsız aparmasaydı, 75 yaşlı Zərifə Əziz qızı da atasının yubiley mərasimində iştirakçıları arasında ola bilərdi...

Prezident Heydər Əliyev geniş nitq söylədi. Burada Əziz Əliyevin təkcə dövlət xadimi, milli ruhlu ziyalı, elm təşkilatçısı kimi Azərbaycan və Dağıstan qarşısındakı xidmətlərinə qiymət verilmirdi. Təkcə naməlum faktlar əsasında onun çətin, mürəkkəb, amma şərəfli ömür yoluna nəzər salınmırdı. Təkcə gördüyü böyük işlərdən və üzləşdiyi sınaqlardan, repressiya maşınının dişləri arasından necə xilas olduğundan söz açılmırdı.

Yaxınlarla ürək söhbəti təsiri bağışlayan bu səmimi nitq həm də munis bir sevgi etirafı idi. Salona toplaşmış 2500 nəfərin nəfəs çəkmədən dinlədiyi, televiziya vasitəsilə milyonlarla insana çatdırılan sevgi etirafı... Çətin sınaqlardan çıxan, amma sınmayan, əksilməyən, şər və bədxahlıq üzərində qələbə çalan, yalnız iki insanın deyil, minlərlə insanın həyatını dəyişən sevgi etirafı..

Heydər Əliyev danışırdı və zal qəddar sistemə qarşı mübarizədə yeganə silahı yalnız bir-birinə inam olan iki gəncin məhəbbət hekayəsini dinləyirdi:

"Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 1950-ci ildə oradan Bakıya qayıdandan sonra şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi. Anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə kirayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev işdən çıxarılanda Zərifə xanımla görüşdük və o mənə dedi: "Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizlik orqanlarında işləyirsən və bu sənə zərər gətirə bilər. Odur ki, deyəsən bizə birlikdə olmaq qismət deyilmiş". Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi".

1948-ci ildən başlanan və tədricən qarşılıqlı məhəbbətə çevrilən tanışlıq ciddi maneələri, müxtəlif hədə və riskləri aşaraq 1954-cü ildə xoşbəxt və nümunəvi ailə həyatına çevrildi.

Zərifə xanım və Heydər Əliyevlərin otuz ildən çox birlikdə keçən ömür tarixçəsini izləyəndə düşünürsən: "Nə yaxşı ki, dövrün və cəmiyyətin bütün maneələrinə rəğmən belə oldu və davamı nəsillər üçün nümunəyə çevrilən, insanlara işıq və nur bəxş edən intəhasız bir eşq hekayəti yaşandı...

**Vilayət QULİYEV,**
**professor**

Moskva ulu öndəri yad edir

# Heydər Əliyev və Baykal-Amur əfsanəsi

**Aprelin 27-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QCS-nin təşəbbüsü, "Rusiya Dəmir Yolları" ASC, Rusiya Nəqliyyat Universiteti və Azərbaycanın Rusiyadakı səfirliyinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyevin Baykal–Amur magistral xəttinin tikintisində müstəsna rolu" mövzusunda tədbir keçirilib.**





Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən qəzetimizə bildirilib ki, Rusiya Nəqliyyat Universitetində təşkil olunmuş tədbirdə əvvəlcə Heydər Əliyevin Baykal–Amur magistralının (BAM) tikintisinə verdiyi töhfələri özündə ehtiva edən sənədli film nümayiş olunub.

Daha sonra tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ümummilli liderin Sovet İttifaqının ən nəhəng infrastruktur layihəsi hesab olunan BAM-ın uğurla həyata keçirilməsindəki müstəsna xidmətlərindən danışıb. Nazir qeyd edib ki, ulu öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə nəqliyyat sahəsinin kuratoru olaraq mükəmməl təşkilatçılıq bacarığı, qətiyyəti və inamı sayəsində BAM-ın inşasının uğurla başa çatdırılmasına nail olub: "Heydər Əliyev BAM dəmir yolu xəttinin tikintisini Sibirin və Uzaq Şərqin böyük kəşfi kimi qiymətləndirirdi. Çünki bu tikinti ilə dəmir yolu xətti zonasında faydalı qazıntılarla zəngin olan böyük bir ərazi istismara verilib. Heydər Əliyev qısa bir müddətdə BAM-ın coğrafi ərazisini mühüm sənaye bazasına, sosial-iqtisadi və mədəni mərkəzə çevirməyi bacardı".

Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitin çıxış edərək deyib ki, mürəkkəb geoloji struktura və sərt iqlimə malik ərazidə magistral və dəmir yollarının çəkilməsi əsl qəhrəmanlıq nümunəsi olub: "BAM-ın ərsəyə gəlməsi Sakit okean regionu və Avropa ölkələri arasında ən qısa marşrut olmaqla Sibirin və Uzaq Şərqin təbii ehtiyatlarından səmərəli istifadə edilməsinə əlverişli şərait yaratdı. Heydər Əliyevin BAM üzrə kurator işlədiyi dövrdə tikinti işləri xeyli intensivləşib, qarşıya qoyulan məqsədlərə tam nail olunmuşdu".

Tədbirdə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyi, "Rusiya Dəmir Yolları" ASC-nin rəhbərliyi, Azərbaycanın Rusiyadakı səfirliyinin diplomatları, Rusiyanın "BAM" İctimai Birliyinin üzvləri, Rusiyadakı Azərbaycan diasporunun üzvləri və tələbələr iştirak ediblər.

Sonra konsert proqramı təqdim olunub.

*"Xalq qəzeti"*

# Rusiyada ümummilli liderin 100 illik yubileyinə poçt markası buraxılıb

**Moskva şəhərində ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Rusiya Federasiyasının dövriyyəyə buraxdığı poçt markasının rəsmi möhürlənmə mərasimi təşkil olunub.**



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, markanın möhürlənməsi Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitin tərəfindən həyata keçirilib. Poçt markasının üzərində Azərbaycan Respublikasının dövlət bayrağı fonunda ümummilli liderin portreti təsvir edilib.

Qeyd edək ki, poçt markasından əlavə bu mövzuda Birinci gün zərfləri nəşr olunub.

*"Xalq qəzeti"*

# Ulu öndərin həyatı xalqa xidmət örnəyidir

**Naxçıvan Şəhər İcra Hakimiyyətində "Ulu öndər Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda konfrans keçirilib.**



Məclisi giriş sözü ilə açan Naxçıvan şəhər icra hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva bildirib ki, ümummilli Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpası dönəmi və ona qədərki dövrdə bir rəhbərin öz xalqı və dövləti üçün edə biləcəyinin hamısını gerçəkləşdirib. Bu baxımdan, Heydər Əliyev və Azərbaycan mövzusu tükənməz tədqiqat obyekti olaraq hər zaman öyrəniləcək. Ulu öndərin anadan olmasının 100 illiyi ilə bağlı ölkəmizdə elan olunmuş Heydər Əliyev ili bu zəngin irsin xalqımıza və dünyaya çatdırılmasında önəmli bir mərhələ təşkil edir.

Daha sonra qeyd edilib ki, bu gün sevimli rəhbərin şah əsəri və xalqımıza ən böyük mirası olan müasir müstəqil Azərbaycan dövləti onun əbədiyaşar ideyaları əsasında möhtəşəm nailiyyətlər qazanır. Bu uğurlar xalqımızın dünəninin, bu gününün və gələcəyinin Heydər Əliyev ideyaları ilə bağlı olduğunu bir daha təsdiqləyir. Xalqımızın xilaskar oğlunun Naxçıvanın taleyində oynadığı xilaskarlıq rolu isə muxtar diyarda daim sonsuz minnətdarlıqla xatırlanır.

Konfransda Naxçıvan Dövlət Universitetinin prorektoru Arzu Abdullayev və kafedra müdiri Şamxal Məmmədov Heydər Əliyev yolunun alternativsizliyini vurğulayıblar, bu siyasəti ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyini, nəticədə, Azərbaycanın regionun ən güclü dövlətinə çevrildiyini söyləyiblər.

Yubiley mərasimində ümummilli lider Heydər Əliyevin xalqa xidmət örnəyi olan şərəfli həyat yolunu əks etdirən videomaterial nümayiş olunub.

*Səbuhi HƏSƏNOV*

**Naxçıvan**

# Müstəqil dövlətin banisi ehtiramla anıldı

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlər təşkil edib.**





Tədbirlər çərçivəsində aprelin 24-də Xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin bir qrup əməkdaşı Culfa rayonu ərazisində yerləşən Haçadağ zirvəsinə yürüş təşkil edib. Yürüş iştirakçıları qarşıya çıxan maneələri uğurla dəf edərək təyin olunan yerə vaxtında çatıb, orada ulu öndərin şəkli əks olunmuş plakatı və Azərbaycanın Dövlət Bayrağını yerləşdiriblər.

Aprelin 26-da isə Naxçıvan şəhərində "Heydər Əliyev və təhlükəsizlik orqanları" adlı təntənəli tədbir keçirilib. Naxçıvan Muxtar Respublikasında (MR) Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirin ulu öndərin böyüyüb boya-başa çatdığı, doğma Naxçıvan şəhərində keçirilməsinin önəminə toxunub. O, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin ömür yoluna nəzər salaraq dahi şəxsiyyətin təhlükəsizlik orqanlarında fəaliyyəti və Azərbaycanın rəhbəri olaraq misilsiz xidmətləri barədə ətraflı məlumat verib, ölkəmizin milli tərəqqi strategiyasının əsasının məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulmasından geniş söhbət açıb.

Digər çıxışçılar da ulu öndərin təhlükəsizlik orqanlarında xidməti fəaliyyətinə məhz Naxçıvan şəhərində başladığını diqqətə çatdırıblar.

Məruzəçilər ulu öndərin həmin təşkilata ən mühüm töhfəsi olan, keçən əsrin 50-ci illərinin əvvəllərindən başlanan bu orqanların milliləşdirilməsi prosesinin iştirakçısı və sonralar da birbaşa təşkilatçısı olduğunu özünün hər zaman qürur və böyük iftixar hissi ilə xatırladığını söyləyib, Heydər Əliyevin peşəkarlıq irsinin bundan sonra da layiqincə davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

Sonda tədbir iştirakçıları sənədli filmə baxıblar.

*"Xalq qəzeti"*

# "Zərifə Əliyeva ömrünün işığı"nda



**Dünən Nizami Kino Mərkəzində Nəsimi Rayon İcra Hakimiyyəti Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilə birgə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş "Zərifə Əliyeva ömrünün işığı" adlı yubiley mərasimi keçirildi.**

Məclisdə Nəsimi Rayon İcra Hakimiyyətinin, YAP Nəsimi rayon təşkilatının rəhbərliyi, səhiyyə, təhsil müəssisələrinin, rayonun idarə və təşkilatların rəhbərləri, şəhid ailələri, müharibə əlilləri, QHT rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və rayon gəncləri iştirak etdilər. Əvvəlcə Zərifə xanım Əliyevanın həyat və yaradıcılığına aid "Bəyaz işığın Zərifəsi" adlı film nümayiş etdirildi.

Toplantı giriş sözü ilə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov açaraq bildirdi ki, çoxşaxəli, gərgin fəaliyyətinə baxmayaraq Zərifə xanım Əliyeva həmişə qadın incəliyini və zərifliyini qoruyub saxlaya bilib. O, özünün parlaq şəxsiyyətində əsl Azərbaycan xanımının keyfiyyətlərini təcəssüm etdirib. Zərifə xanım qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, yüksək mənəviyyat sahibi olub.

Ümummilli lider Heydər Əliyev həyatda qazandığı böyük uğurlarda Zərifə xanımın diqqət və qayğısının mühüm əhəmiyyətini yüksək qiymətləndirirdi. Bu, iki parlaq şəxsiyyətin ailə həyatı nümunə idi. Zərifə xanım görkəmli alim olmaqla yanaşı, həm də fəal ictimai xadim, qayğıkeş ana olmuşdur. Onun fəxri adları, elmi dərəcələri, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bunlar sırasında ən şərəflisi Ana adıdır. Ulu öndərin əsasını qoyduğu quruculuq işləri və Zərifə xanımın çoxşaxəli hümanist missiyası bu gün möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

1 nömrəli Bakı Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru Nailə Əliyeva çıxışında qeyd etdi ki, Zərifə xanım Əliyeva təkcə çoxşaxəli elmi tədqiqat işləri aparmaqla kifayətlənməyib. O, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrindəndir. Bütün bu uğurların kökündə isə Zərifə xanımın aldığı həyat dərsi dayanırdı.

Sonra Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Azər Süleymanov Zərifə Əliyevanın həyat və fəaliyyətindən danışaraq bildirdi ki, görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi- tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb.

Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar 50 nəfərə yaxın gözdən əlil, fiziki qüsurlu məktəbliyə optik göz eynəkləri təqdim edildi.

Tədbir bədii hissə ilə davam etdirildi.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Kamillik və müdriklik məktəbi

**Bakı Sağlamlıq Mərkəzində Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın həyat və yaradıcılığına həsr olunmuş anım mərasimi keçirildi. Öncə akademikin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**




Mərkəzin icraçı direktoru Asiman Həsənov akademik Zərifə Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolundan, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verməsindən söz açdı. Bildirdi ki, Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə həsr edib. 1968-ci ildən başlayaraq, məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayıb, bir sıra orden və medallara, mükafatlara layiq görülüb. Tibb elminin inkişafına mühüm töhfələr verərək, oftalmologiyanın aktual problemlərinə dair tədqiqatları ilə şöhrət qazanıb.

Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur Akademik Zərifə Əliyevanın yüksək mənəvi keyfiyyətlərindən bəhs etdi. Alimin elmi-pedaqoji və ictimai fəaliyyətinin həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərdiyini qeyd etdi.

Tədbirin sonunda böyük xidmətləri ilə zəngin həyat yolu keçirmiş Zərifə Əliyeva haqqında hazırlanmış video çarx izlənildi. Video çarxda görkəmli alimin keçdiyi şərəfli ömür yolunun hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olduğu göstərildi. Akademikin çoxcəhətli elmi və tibbi fəaliyyətinin təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb etdiyi və aktuallığı vurğulandı. Onun görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, ümummilli lider Heydər Əliyevin həyat yoldaşı və xalqımıza İlham Əliyev kimi müzəffər lider bəxş edən ana obrazı canlandırıldı.

Anım tədbirindən sonra Fəxri xiyabanda akademik Zərifə xanım Əliyevanın xatirəsi yad edilərək, məzarı üzərinə gül dəstələri qoyuldu.

*Z.BƏŞİRQIZI, "Xalq qəzeti"*

# Ölkəmizin avtobus parkı yenilənir

## Tezliklə Sumqayıtda "İkarus"lar da buraxılacaq

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, yaxın illərdə Azərbaycanda "İkarus" avtobuslarının istehsalına başlanılacaq. Bununla bağlı Sumqayıt Kimya Sənaye Parkının rezidenti – "Sumqayıt Texnologiyalar Parkı" MMC ilə Macarıstanın "İkarus" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.**



Sənədə əsasən, ilkin olaraq ölkəmizdə ildə 100 ədəd avtobus istehsal olunması, bu rəqəmin, tədricən, 500 ədədə çatdırılması nəzərdə tutulur. Memorandum, həmçinin yaxın gələcəkdə Qarabağ iqtisadi rayonunda istehsalın lokallaşdırılması, servis mərkəzinin yaradılması və digər məsələləri əhatə edir. "İkarus"ların istehsalının genişləndirilməsi isə, öz növbəsində, Azərbaycanın avtobus parkının yenilənməsinə mühüm töhfələr verə bilər.

Son illər vətəndaşların rahatlığı, onlara keyfiyyətli və təhlükəsiz sərnişindaşıma xidmətlərinin göstərilməsi məqsədilə Azərbaycana müasir tələblərə cavab verən müxtəlif tutumlu yeni avtobuslar gətirilir. Ölkənin avtobus parkının yenilənməsi ilə bağlı tədbirlər ötən il də davam etdirilib. Nazirlər Kabinetinin 2022-ci il fəaliyyətinə dair hesabatına əsasən, il ərzində Azərbaycana 170-i dövlət və 85-i daşıyıcılar tərəfindən olmaqla, ümumilikdə, 255 ədəd avtobus gətirilib. Hesabatda o da qeyd olunur ki, ötən il daşıyıcıya məxsus standartlara uyğun 1 yeni qaraj istifadəyə verilib. Bütövlükdə isə hazırda ölkədə 9 belə qaraj fəaliyyət göstərir ki, bunun da 2-si dövlətə, 7-si isə daşıyıcılara məxsusdur.

Yeri gəlmişkən, son illər ölkə Prezidentinin birbaşa tapşırığı ilə 1044 ədəd orta və iritutumlu sərnişin avtobusu alınaraq Bakı şəhərinin marşrut şəbəkəsində istismara buraxılıb. Yeni alınan avtobusların 76 faizi "Avro-6" standartına uyğun olub, tədricən təmiz sıxılmış təbii qaz mühərrikləridir. Beləliklə, bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində son 7 ildə paytaxtın avtobus parkının 61 faizi yenilənib. Onu da qeyd edək ki, hazırda paytaxtda gündəlik təxminən 650 min nəfərdən artıq sərnişin avtobuslardan istifadə edir. Hər bir sərnişin isə haqlı olaraq həmişə rahat, komfort avtobuslardan istifadə etmək istəyir.

Sevindirici haldır ki, indi paytaxt Bakının küçə və prospektlərində şütüyən müntəzəm xətt avtobuslarının əksəriyyəti komfort şəraitinə görə seçilir. Belə avtobuslar dizayn baxımından zövq oxşamaqla yanaşı, sərnişindaşıma üçün də olduqca əlverişlidir. Bununla belə, Bakıda hələ də bir sıra marşrutlar üzrə köhnə və yararsız avtobuslara müşahidə etmək mümkündür. Həmin nəqliyyat vasitələrinin tez-tez xarab olub sıradan çıxması isə əvvəlcədən tərtib olunmuş qrafiklərin pozulmasına, avtobusların hərəkətində intervalların artmasına gətirib çıxarır. Bu da sərnişinlərin haqlı narazılığına səbəb olur.

Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Bakıda 2 min 100 avtobus sərnişindaşıma sahəsində fəaliyyət göstərir ki, onların da müəyyən hissəsini istismar müddəti bitmiş köhnə nəqliyyat vasitələri təşkil edir. Ekspertlərin fikrincə, bu, paytaxtın sərnişin axınını qarşılamaq üçün kifayət etmir. Müasir nəqliyyat infrastrukturunu qurmaq üçün isə Bakının 5 min avtobusa ehtiyacı var. Regionlarda isə bu sahədə vəziyyət daha acınacaqlıdır. Bir sıra iri şəhərlərin avtobus parkları bərbad vəziyyətdə olduğundan sərnişinlərə keyfiyyətli xidmətin göstərilməsi imkan xaricindədir.

Yeri gəlmişkən, Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli qərarına əsasən, paytaxtda müntəzəm marşrut xətləri üzrə istismarda olan avtobuslar sıxılmış təbii qaz və elektrik mühərrikli nəqliyyat vasitələri ilə əvəz edilməlidir. Bundan da məqsəd ətraf mühitin qorunması və havanın çirklənməsinin qarşısının alınmasından ibarətdir.

Xatırladaq ki, Avropada təmiz, alternativ yanacaqlı avtobusların geniş miqyaslı tətbiqini təşviq etmək üçün Təmiz Avtobus Bəyannaməsi imzalanıb. Belə ki, dünya yollarında hərəkət edən avtobusların, təqribən, yarısı növbəti beş il ərzində tamamilə elektriklə işləyən nəqliyyat vasitələrinə keçidi planlaşdırılır. Artıq ölkəmizdə də bu sahədə müəyyən tədbirlərin həyata keçirilməsinə başlanılıb. Azərbaycan Respublikası Prezidentinin məlum sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də təmiz ətraf mühitə nail olmaq və "yaşıl artım" ölkəsinə çevrilmək kimi hədəflər müəyyənləşdirilib. Adıçəkilən sənəddə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqini gücləndirmək üçün bir sıra tədbirlər nəzərdə tutulur.

Həmin tədbirlərin davamı olaraq bu yaxınlarda Bakı şəhərinə ilk elektrik mühərrikli avtobus gətirilib. Dünyanın aparıcı elektrik mühərrikli avtobusların istehsalçısı olan Çinin BYD şirkətindən test məqsədilə alınan həmin avtobus 12 metrlikdir. 33 oturacağı olan avtobusun ümumi sərnişin tutumu 82 nəfərdir. Batareya gücü 383 kilovat-saat olan avtobus tam enerji dolumunda 350 kilometr məsafə qət edə bilir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, test müddətində elektrik avtobusunun Bakı şəhərinin mövcud relyefinə uyğunluğu yoxlanılaraq qiymətləndirilməsi aparılacaq. Testin nəticələrinə əsasən, elektrik mühərrikli avtobusların Bakı şəhərinin ictimai nəqliyyatında tətbiqi ilə bağlı təklif hazırlanaraq hökumətə təqdim ediləcək.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

# Türkiyə Azərbaycan qazı qovşağına çevrilir

**SOCAR-ın Türkiyədə fəaliyyət göstərən törəmə şirkəti "SOCAR Türkiyə"nin İzmirin Əliağa yarımadasında istismara verdiyi STAR zavodunda istehsal edilən neft məhsulları qardaş ölkənin tələbatının təxminən 25 faizini ödəyir. Bu barədə mətbuata qurumun baş direktoru Elçin İbadov məlumat verib. Onun sözlərinə görə, ötən il müəssisənin istehsal gücündən istifadə göstəricisi 113 faizə çatıb.**

Xatırladaq ki, STAR zavodu ildə 11 milyon ton xam neft və emal məhsulları istehsal edir. İndiyədək Azərbaycandan qardaş ölkəyə 98,2 milyard kubmetr təbii qaz ixrac edilib, həmçinin "SOCAR Türkiyə" şirkəti tərəfindən təxminən 9,3 milyard kubmetr qaz nəql olunub.

Son illər səmərəli fəaliyyətinə görə, "SOCAR Türkiyə" Türkiyənin topdansatış bazarında ən böyük özəl sektor şirkətlərindən biri kimi tanınıb. Ötən il təbii qaz və elektrik enerjisinin ümumi ticarət və indiyədək TANAP vasitəsilə Türkiyəyə nəql edilən təbii qazın həcminin təqribən 21 milyard kubmetrə, Türkiyə üzərindən Avropaya göndərilən qazın həcminin isə, təxminən, 22 milyard kubmetrə yüksəldiyini deyib.

Yeri gəlmişkən, Türkiyədə qaz qovşağının yaradılması Azərbaycan üçün də mühüm önəm daşıyır. Bu, ilk növbədə, ölkəmizin artan qaz həcmlərini satması üçün əlverişlidir. Digər tərəfdən də, Türkiyə TANAP və Bakı-Tbilisi-Ərzurum



satış həcmi 17 teravat/saata çatıb, dövriyyə isə 28 milyard türk lirəsi təşkil edib.

Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) Türkiyənin enerji dəhlizinə çevrilməsinə ən çox töhfə verən layihələrdən biri olduğunu bildirən "SOCAR Türkiyə"nin rəhbəri gələcəkdə bu infrastrukturun genişləndirilməsi və Türkiyə üzərindən Avropaya daha çox təbii qazın nəqli ilə bağlı işlərin davam etdiyini də vurğulayıb. O, bu işlərin Türkiyənin təbii qaz qovşağına çevrilməsi üçün böyük imkanlar yaratdığını diqqətə çatdıraraq kəmərləri ilə respublikamızdan qaz alır. Hər iki ölkə arasında qaz ticarəti qarşılıqlı anlaşma və güzəştlər şəraitində həyata keçirilir. Avropa İttifaqının Azərbaycan qazına ehtiyacının yüksək olması TANAP-ın ötürücülük gücünün 30 milyard kubmetrə qədər artırılması üçün əlverişli şərtlər formalaşdırır. Bundan əlavə, Azərbaycan qazını Türkiyə–Yunanıstan sərhədindən İtaliyaya daşıyan TAP-ın genişləndirilməsi də aktuallaşır.

*"Xalq qəzeti"*

**Azərbaycan və Rusiya Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində müvafiq infrastruktur inkişafı istiqamətində əməkdaşlığa dair fikir mübadiləsi aparıb.**

# Şimal–Cənub Dəhlizində daşımalar artacaq



Bu barədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev özünün "Twitter" hesabında məlumat verib. Nazir daha sonra bildirib: "Rusiyaya səfər çərçivəsində bu ölkənin nəqliyyat naziri Vitali Savelyevlə görüşdük, ölkələrimiz arasında avtomobil nəqliyyatı, aviasiya və dəmir yolu daxil olmaqla nəqliyyat sahəsində əməkdaşlığın inkişafı məsələlərini müzakirə etdik".

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin bununla bağlı məlumatında qeyd olunur ki, tərəflər "Rusiya–Azərbaycan dövlət sərhədindən "Yaraq-Qazmalar" (Rusiya Federasiyası) – "Samur" (Azərbaycan Respublikası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün və giriş yollarının istismarı və xidmətin göstərilməsi qaydaları haqqında Saziş" layihəsinin razılaşdırılması üçün müzakirələr aparıblar. Görüş zamanı, həmçinin hava nəqliyyatı sahəsində əlaqələrdən bəhs edilib, uçuşların və istiqamətlərin sayının artırılmasının vacibliyi vurğulanıb.

Eyni zamanda iki ölkə arasında dəmir yolu nəqliyyatı sahəsində, o cümlədən Şimal–Cənub Dəhlizi çərçivəsində dəmir yolu infrastrukturunun inkişafı istiqamətində əməkdaşlığın uğurla davam etdirildiyi qeyd olunub. Yeri gəlmişkən, ötən il adıçəkilən dəhlizlə dəmir yolu daşımalarının həcmi 481 min ton təşkil edib.

Görüşün sonunda Azərbaycan və Rusiya arasında nəqliyyat sahəsində əlaqələrin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

*"Xalq qəzeti"*

**Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə aqrar sektorun bütün sahələrinin, o cümlədən pambıqçılığın inkişafı daim diqqət mərkəzində saxlanılıb. "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi də kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın dirçəldilməsi, pambıq məhsullarının ixracının artırılması və bu sahəyə dövlət dəstəyinin gücləndirilməsində əhəmiyyətli rol oynayıb.**

# Pambıqçılıq elmi əsaslarla inkişaf etdirilir



Respublikamızda son illər ərzində pambıqçılığın inkişafının modernləşdirilməsi, bu sahədə mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, pambıqçılığın institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası "ağ qızıl"ın yetişdirilməsinin keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini şərtləndirib.

Məhz bütün bunların nəticəsidir ki, ötən il pambıqçılıq mövsümündə sahələrdən 322 min 300 ton pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Pambıq üzrə hektarın orta məhsuldarlığı 30,92 sentner təşkil edib ki, bu da bir il əvvəlki mövsümlə müqayisədə hər hektar üçün 2,42 sentner artıqdır. 2022-ci ildə bir il əvvəllə müqayisədə sahələrdən 35 min 259 ton artıq məhsul yığılıb.

Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2022-ci ildə tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə fermerlərə 170 manat məhsul subsidiyası ödənilib. Şuranın qərarı ilə 2023-cü il mövsümündə fermerlərə təhvil verəcəkləri pambığın hər tonuna görə 180 manat məhsul subsidiyası ödəniləcək.

2022-ci ildə pambıq tədarükü və emalı müəssisələri tərəfindən məhsulun fermerlərdən alış qiymətinin artırılmasına dair iki dəfə qərar qəbul edilib. Xam pambığın alış qiyməti hər tona görə mövsümün əvvəlində 50 manat və yığım ərəfəsində də 50 manat olmaqla, ümumilikdə, 100 manat artırılıb.

Ötən il pambığın fermerlərdən alış qiyməti 1-ci növ üçün 800 manat, 2-ci növ üçün 780 manat, 3-cü növ üçün 740 manat, 4-cü növ üçün isə 700 manat olaraq müəyyənləşdirilib.

Bu il də sözügedən sahənin inkişafı diqqətdə saxlanılır. Kənd Təsərrüfatı Nazirliyinin son məlumatına görə, cari il respublika üzrə pambıq emalı və tədarükü şirkətləri tərəfindən 15 min 434 mülkiyyətçi ilə 92 min hektar sahədə pambıq istehsalı məqsədilə müqavilə bağlanılıb və həmin sahələrin 90 min hektarında şum işləri aparılıb. Aprelin ikinci ongünlüyündə isə pambıq tarlalarında çiyid səpininə başlanılıb və artıq 17,7 min hektar sahədə səpin həyata keçirilib.

Mütəxəssislərin fikrincə, pambıq istehsalında yüksək göstəricilərin əldə edilməsi elmi yanaşmaların tətbiqindən asılıdır. "Azərşəkər" MMC ilə "MKT İK" MMC arasında pambıq əkinlərində belə bir amilin önə çəkilməsi, əkin sahələrində keyfiyyət və məhsuldarlığın artırılması istiqamətində memorandum imzalanması da bunun bariz ifadəsidir.

Xatırladaq ki, "MKT İK" MMC-nin fəaliyyət göstərdiyi 15 rayonda 267 fermeri əhatə edəcək yeni layihədə toxum səpinindən məhsul yığımına qədər olan bütün mərhələlər "Azərşəkər" şirkətinin tərkibindəki "Aqrolab" kənd təsərrüfatı laboratoriyasının nəzarəti altında müasir əkinçilik üçün lazım olan vacib elmi yanaşmaların tətbiq edilməsi ilə həyata keçiriləcək.

Əməkdaşlığa əsasən, "Aqrolab" tərəfindən fermerlər üçün təlimlər gerçəkləşdiriləcək, pambıq bitkisinin becərilmə prosesində kompleks laborator analizlər icra ediləcək, düzgün aqrotexniki qulluğun yerinə yetirilməsi üçün lazımi tövsiyələr veriləcək.

Bu əməkdaşlıq ölkəmizdə kənd təsərrüfatına elmi yanaşmaların tətbiqinin daha da sürətlənməsində, müasir yanaşmalarla idarə edilən təsərrüfatların yaranmasında, digər fermer və şirkətlərin də təşviqində mühüm rol oynayacaq.

*Ekspert rəyi*

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Prezident İlham Əliyev tərəfindən aqrar sahənin inkişafı prioritet istiqamətlərdən biri kimi elan edilib. Kənd təsərrüfatının bütün sahələri kimi pambıqçılıq da yeni inkişaf mərhələsinə qədəm qoyub. Son illərdə dövlət başçısının verdiyi tapşırıqlar, pambıqçılığın inkişafına dair müvafiq Dövlət Proqramının icrası ilə bağlı görülmüş işlər öz bəhrəsini verib.

Pambıqçılıqla bağlı bütün istehsal prosesini əhatə edən kompleks Tədbirlər Planına əsasən, hazırkı dövr üçün nəzərdə tutulan bütün təşkilati, aqrotexnika ilə bağlı məsələlər vaxtında və keyfiyyətlə icra edilib. Pambıq istehsalçıları ilə şirkətlər arasında müqavilələrin bağlanılması, şum, arat, suvarma məsələləri diqqətdə saxlanılıb, texnika, pestisid və mineral gübrələrə tələbatın həcmi müəyyənləşdirilərək təmin edilməsi istiqamətində tədbirlər görülüb.

Cari mövsümdə də pambıq istehsalına hazırlıq, qarşıda duran vəzifələr, pambıqçılığın inkişafı kimi məsələlər diqqətdə saxlanılır. Hazırda qarşıda duran əsas vəzifə pambığın becərilməsində intensiv texnologiyalardan istifadə etməklə məhsuldarlığı artırmaqdır. Eyni zamanda yüksək məhsuldarlıq üçün torpaq və su resurslarından səmərəli istifadə edilməli, növbəli əkin tətbiq olunmalıdır. Bundan başqa, aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, torpaq sahələrinin aqrokimyəvi analizinin aparılması, mineral gübrələrin düzgün istifadəsi, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsi önəmli amillərdir.

"Azərşəkər" MMC ilə "MKT İK" MMC arasında pambıq əkinlərində müasir elmi yanaşmaların tətbiqi, əkin sahələrində keyfiyyət və məhsuldarlığın artırılması istiqamətində memorandum imzalanması da bu sahənin inkişafı istiqamətində atılan mühüm addımdır. Qeyd edim ki, bu əməkdaşlıq ölkəmizdə kənd təsərrüfatına elmi yanaşmaların tətbiqinin daha da sürətlənməsi, müasir yanaşmalarla idarə edilən təsərrüfatların yaradılması məqsədi daşıyır.

Belə fermer təsərrüfatlarında mütəxəssislər tərəfindən analiz nəticələrinin düzgün elmi və yüksək keyfiyyətli təhlili əsasında əkinçilik və ya bitkiçilik fəaliyyəti uğurla gerçəkləşdirilir və müsbət göstəricilər əldə olunur.

Yeri gəlmişkən, "Aqrolab"un laboratoriyalarında torpağın, toxumun, bitkinin, suyun uyğun aqrokimyəvi, mikrobioloji və fitopatoloji analizləri ən müasir texnologiyalarla həyata keçirilir. İcra olunan analizlər və gündəlik işlərin təşkili "Aqro Analiz" kənd təsərrüfatı laboratoriyaları şəbəkəsinin mütəxəssisləri tərəfindən mütəmadi olaraq nəzarətdə saxlanılır.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

**Fransanın xarici işlər naziri Ketrin Kolonnanın Cənubi Qafqaz regionuna səfəri Bakıdan başladı. Dünən fransalı naziri Prezident İlham Əliyev qəbul elədi. Qonaq azərbaycanlı həmkarı Ceyhun Bayramovla da danışıqlar apardı.**

# Kolonna Bakıya gəldi və getdi... Nəticəsi olacaqmı?

Qeyd edək ki, K.Kolonnanın bölgəyə səfəri aprelin 28-dək davam edəcək. O, Ermənistanda da olacaq. Fransa Xarici İşlər Nazirliyinin sözçüsü səfərdən əvvəl – aprelin 24-də bildirib ki, nazir rəsmi Parisin əsasında ərazi bütövlüyü və beynəlxalq hüququn prinsiplərinə hörmət dayanan ədalətli, davamlı sülh naminə iki ölkə arasındakı danışıqları dəstəkləmək öhdəliyini xatırladacaq.

İrəvanda isə K.Kolonna baş nazir Nikol Paşinyan tərəfindən qəbul ediləcək və həmkarı Ararat Mirzoyanla müzakirə aparacaq. O, həmçinin Avropa



İttifaqının müşahidə missiyasının Cermukdakı mənzil-qərargahında olacaq. Xanım Kolonnanın səfər proqramına qondarma "erməni soyqırımı" abidəsinə baş çəkmək də daxildir.

Fransalı nazirin səfərinin sonuncu ünvanı Gürcüstandır. O, aprelin 28-də Prezident Salome Zurabişvili, Baş nazir İrakli Qaribaşvili və xarici işlər naziri İlya Darçiaşvili ilə müzakirələr aparacaq.

***

K.Kolonnanın səfəri regionda mürəkkəb proseslərin cərəyan etməsi fonunda baş tutur. Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. O cümlədən rəsmi İrəvan Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında dəhlizin yaradılmasına da imkan vermir, öz silahlı tör-töküntülərini Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır. Bundan əlavə, Ermənistan lap bu yaxınlaradək Laçın yolundan sui-istifadə edərək, Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsullar daşıyırdı. Aprelin 23-də Azərbaycan Ermənistanla şərti sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratdı. Bu, əslində, ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir. Buna baxmayaraq, bir sıra ölkələr, o cümlədən Fransa sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasına qarşı çıxıb. Elə dünən Bakıda Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında da K.Kolonna sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasına etiraz etdiklərini dilə gətirdi. Eyni zamanda bildirdi ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı da yerinə yetirilməlidir. Halbuki Fransa işğalçı Ermənistan ordusunun Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin icrası ilə bağlı 27 il ərzində heç bir təşəbbüs göstərməyib. Bu fikri dünənki mətbuat konfransında Ceyhun Bayramov da qeyd edib. O, sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə bağlı deyib ki, Azərbaycan öz konstitusiyasına uyğun olaraq, öz ərazisində addım atıb. Bu addımından 2,5 il öncə hər kəsə problemin mahiyyətini deyib. Bu illər ərzində Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib.

***

Ümumiyyətlə, Fransa hələ 1991-ci ildən sonrakı mərhələdə müəyyən mənada qlobal imkanlara malik azsaylı dövlətlərdən biri idi. Fransa BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi o dövrdə Cənubi Qafqazda xüsusi mənfi imicə malik deyildi. Əksinə, Parisin hər iki ölkə ilə müəyyən münasibətləri var idi ki, bu əlaqələr ona münaqişənin həlli, işğalın başa çatdırılması ilə bağlı konstruktiv rol oynamağa imkan verirdi. Fransa ilkin mərhələdə bu imkanları əlindən qaçırıb. Paris 1991–93-cü illərdə erməni lobbisinin təsiri altında mənfi rol oynayıb. Sonrakı proseslər zamanı biz Fransanın nə BMT TŞ-dəki statusuna, nə də mütəmadi qeyd etdiyi Avropa dəyərlərinə uyğun gəlməyən mövqeyə keçdiyini gördük. Fransa parlamentinin aşağı palatası olan Milli Assambleya 1998-ci ildə qondarma "erməni soyqırımı"nı tanıyıb. Sonrakı illərdə (2000 və 2001-ci il) parlamentin yuxarı palatası – Senat bu addımları təkrarlayıb. 2006-cı ildə isə Milli Assambleya misli görünməmiş akta imza atıb: qondarma "soyqırımı"nın inkarının cinayət məsuliyyəti yaratması barədə qanun qəbul edib. Beləliklə, Fransa tədricən Ermənistanın işğalçılıq siyasəti və digər mövzularda nə beynəlxalq hüquqa, nə özünün beynəlxalq arenadakı statusuna, nə də elan etdiyi "Azadlıq, Bərabərlik, Qardaşlıq" dəyərlərinə uyğun gələn mövqe ortaya qoymağa başlayıb. Bununla da Paris münaqişənin həllində bitərəf vasitəçi kimi nüfuzunu itirib.

Əfsuslar olsun ki, Fransa 44 günlük Vətən müharibəsi zamanı da bu mövqeyini dəyişməyib. Fransa müharibə günlərində ən yüksək səviyyədə açıq ermənipərəst bəyanatlar verir, Azərbaycanı muzdluları cəlb etməkdə ittiham edirdi. Fransa bəzən artıq səhvini başa düşdüyü, doğru siyasətə yönəldiyi görüntüsünü yaradır, amma sonra yenə destruktiv mövqe sərgiləyir. Elə bir mövqe ki, bu mövqe ancaq Cənubi Qafqazın münaqişə bölgəsi kimi qalmasına xidmət edir. Sanki istəyirlər ki, Cənubi Qafqazda münaqişə bitməsin, sülh əldə olunmasın. Ancaq çox maraqlıdır ki, bu sülhün əldə olunmaması nə Fransanın iki aparıcı ölkəsindən biri olduğu Avropa İttifaqının, nə də NATO-nun maraqlarına xidmət edir.

***

Fransanın xarici işlər nazirləri Azərbaycana çox nadir hallarda səfər edirlər. Sonuncu dəfə Bakıda 2018-ci ilin mayın 27-də Fransanın sabiq baş diplomatı Jan İv Lö Drian olub. Bir ilə yaxındır Fransa XİN-ə rəhbərlik edən K.Kolonna bu mənada sələflərindən fərqlənir. O, Bakıdakı mətbuat konfransında bəzi pozitiv fikirlər də səsləndirdi, müsbət mesajlar verdi. Xanım Kolonnanın səfərinin iki ölkə arasındakı fikir ayrılıqlarını həll edib-etməyəcəyi, Fransanın İrəvan–Bakı münasibətlərilə bağlı nəhayət, ədalətli mövqe tutub-tutmayacağı yaxın vaxtlarda bəlli olacaq.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Aydın QULİYEV,**
**politoloq**

**– Ketrin Kolonnanın səfəri Fransa–Azərbaycan münasibətlərinin gərgin dövrünə təsadüf edir. Bu gərginliyin yaranmasının məsuliyyəti bütünlüklə Fransanın indiki hakimiyyətinin üzərindədir. Nəzərə almaq lazımdır ki, münasibətlərdəki gərginliyi aradan qaldırmaq üçün Fransanın ali hakimiyyət dairələri tərəfindən heç bir jest edilmədi, bəyanat verilmədi. Əgər belə bir addım atılsaydı, bəlkə də Kolonnanın səfəri nəticəsində nəyinsə dəyişəcəyinə ümid etmək olardı. Amma belə bir gərgin vaxtda nazirin səfərinin ciddi dəyişikliyə gətirib çıxaracağını gözləmək, zənnimcə, doğru deyil.**

**Paris yürütdüyü ermənipərəst və qatı Azərbaycanofob siyasətində ciddi korrektələr etməlidir. Bugünlərdə Fransa Prezidenti erməni dilində qondarma soyqırımını dəstəklədi. Fransa başda Emmanuel Makron olmaqla, Ermənistanın bölgədə apardığı destruktiv siyasətə indiyədək birmənalı şəkildə dəstək verib. Belə bir şəraitdə xanım Kolonnanın Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına töhfə vermək iddiası ilə Bakıya gəlişi heç bir halda səmimi görünmür. Hətta, səmimi şəkildə bunu etmək istəsələr də burada hansısa bir nəticənin əldə olunması ağlabatan deyil.**

# Milli dini kadrların hazırlanması zərurətdən yaranıb

**Ali dini təhsil ocağı Azərbaycan Prezidentinin 2018-ci il tarixli "Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında" sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb və 2018–2019-cu tədris ilində Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi ləğv edilərək, yeni institutun strukturuna daxil edilib. Dini təhsilin ölkəmiz üçün əhəmiyyəti, din-dövlət münasibətləri və bu kimi mövzularla bağlı institutun rektoru Aqil Şirinovla söhbətləşdik. Müsahibəni təqdim edirik:**

***– Aqil müəllim, əvvəlcə institut barədə məlumat verməniz yerinə düşərdi.***

– İnstitutumuz Azərbaycanda din sahəsində fəaliyyət göstərən yeganə ali təhsil müəssisəsidir. Aİİ-də bakalavr səviyyəsində İslamşünaslıq və Dinşünaslıq olmaqla iki ixtisas mövcuddur. İslamşünaslıq ixtisasında təhsil alanların ölkəmizdə İslam dini üzrə din xadimi kimi fəaliyyət göstərmələri nəzərdə tutulub. Keçən il ilk islamşünas məzunlarımız diplom alıblar. Onlar Azərbaycanda fəaliyyət göstərən məscidlərə imam, imam müavini olaraq fəaliyyət göstərirlər. Bu da din sahəsində yerli milli kadrların hazırlanması istiqamətində mühüm məsələdir. Dinşünaslıq ixtisasında isə İslam dini ilə yanaşı, Azərbaycanda mövcud olan digər dinlər haqqında kifayət qədər bilgi alırlar.

Azərbaycan İlahiyyat İnstitutunda Magistratura səviyyəsində kadr hazırlığı dinşünaslıq ixtisasının İslamşünaslıq, dinin sosiologiyası, dinin psixologiyası, dinlərin tarixi, dinin fəlsəfəsi ixtisaslaşmaları üzrə aparılır. İnstitutda, həmçinin "dinşünaslıq" və "dinin tarixi və fəlsəfəsi" ixtisasları üzrə doktorantura təhsili mövcuddur. Aİİ yeni yaranmasına baxmayaraq, burada Ali Attestasiya Komissiyasının Müdafiə şurası yaradılıb.

***– Dini təhsilin ölkəmiz üçün əhəmiyyəti nədir?***

– Azərbaycanda ali dini təhsilə dövlət tərəfindən böyük əhəmiyyət verilir. Din təhsili spesifikdir. Hər bir ölkənin fərqli dini mühiti və strukturu var. Azərbaycanın dini mühiti ilə başqa dövlətin dini mühitində fərqlər var. Bu səbəbdən kadr hazırlığında bu amil nəzərə alınır.

Din mənəviyyat məsələsi olmaqla yanaşı, həm də təhlükəsizlik məsələsidir. Yaxın Şərq ölkələrində radikal qruplaşmaların bir çoxu səhv dini təhsilin təməli üzərində formalaşıb. Nümunə kimi "Taliban" qruplaşmasını göstərə bilərəm. Radikal idealları önə çəkən bu birləşmə mədrəsə tələbələri tərəfindən yaradılıb. Bu gün Yaxın Şərqdə İran tərəfindən dəstəklənən bir çox radikal qruplaşmalar da yanlış din təhsil səbəbindən səhv dini ideologiyaları təbliğ edirlər. Dini təhsili doğru şəkildə yerdən alınmayanda radikallıq baş qaldırır.

***– Aİİ-nin məzunları din-dövlət münasibətlərinə nə kimi töhfələr verə bilirlər?***

– Aİİ dövlətçilik prinsiplərinə sadiq qalan, ölkəmizin dini mühitini nəzərə alan, dünyəvilik, müasirlik təfəkkürünü özündə birləşdirən təhsil müəssisəsidir. Aİİ-nin məzunları din sahəsində insanların müraciət etdikləri mütəxəssislərə çevrildikdə Azərbaycan radikalizmdən, xurafatdan daha çox sığortalanmış olacaq. Bu halda insanlarımızın İran kimi ölkələrin dini alət etməklə apardıqları destruktiv fəaliyyətinin alətinə çevrilməyəcəklər. Biz tələbələrə sağlam dini dünyagörüşü ilə yanaşı, dövlətçilik əhvali-ruhiyyəsi də aşılayırıq. Hər il Aİİ-yə, ümumilikdə, 70 nəfərdən çox abituriyent qəbul olur. Bu rəqəm ildən-ilə artırılır.

***– Yadınızdadırsa, bir zaman ölkəmizdə özəl Bakı İslam Universiteti fəaliyyət göstəririb. Digər ixtisasların özəl universitetlərdə geniş tədrisi var. Bəs İslamşünaslıq və Dinşünaslığın özəl universitetlərdə tədrisi məqbuldurmu?***

– Azərbaycan kontekstində islamşünaslıq və dinşünaslığın geniş şəkildə tədrisinin əleyhinəyəm. Dini təhsil strateji əhəmiyyətlidir, birbaşa təhlükəsizlik məsələsidir. Bu baxımdan, dini təhsilin ölkədə aparılması mühüm məsələdir. İkinci tərəfdən, İslam ölkələrinə baxdıqda görürük ki, dini təhsil pulsuzdur. Bakı İslam Universiteti isə özəl olduğu üçün ödənişli fəaliyyət göstərirdi. Maddi baxımdan dini təhsil almağa imkanı olmayanlar bu məqsədlə çox vaxt pulsuz dini təhsil verən xarici ölkələrin dini təhsil mərkəzlərinə gedirdilər. Bunun isə müəyyən xoşagəlməzlikləri olurdu. Odur ki, dini təhsilin ölkəmizin dövlət dini təhsil müəssisəsində ödənişsiz verilməsi zərurəti ortaya çıxdı. Hazırda Aİİ-də bütün pillələr üzrə təhsil ödənişsizdir. Tələbələr təqaüdlə yanaşı, yeməkpulu ilə də təmin olunurlar. Kitablar pulsuz paylanılır. Hətta rayonlardan gəlib ehtiyacı olan tələbələr Mənəvi Dəyərlərin Təbliği Fondunun xüsusi təqaüdü ilə təmin edilməklə ev kirayələrini qarşılayırlar. Əslində, Aİİ BDU-nun İlahiyyat fakültəsinin inkişaf etdirilib daha da təkmilləşdirilməsidir. Aİİ həmin fakültənin bazasında formalaşdırılıb. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi daha çox dinşünas mütəxəssislər hazırlayırdı. Aİİ-də bu istiqamətlə yanaşı, din xadimi də hazırlanır.

***– Sekulyar dövlətlərdə din-dövlət münasibətlərində ilahiyyatyönümlü fənlərin tədrisinə müxtəlif aspektlərdən yanaşılır. Sizcə, sekulyar dövlətlərdə dini fənlərin təşkili necə həyata keçirilməlidir?***

– Dünyanın Harvard, Oksford, Kembric başda olmaqla tanınmış universitetlərin böyük əksəriyyətində İlahiyyat fakültələri var. Dünyəvi dövlətlər dini inanclar qarşısında neytral mövqe tutduğu üçün belə dövlətlərdə din tədrisi hansısa dinin təbliğatına çevrilməməlidir. Dini biliklər təsviri üsulla öyrədilməlidir. "Dünyəvilik prinsipinə xələl gətirmədən din təhsilini necə vermək lazımdır?" sualı ətrafında bir çox mülahizələr yürüdülmüş və yürüdülməyə davam edir. Qısaca qeyd edə bilərik ki, dünyada dini təhsilin müxtəlif formaları var. Bunlardan biri dini (konfessional) tədrisdir, yəni, tədrisdə bir din və ya məzhəb əsas götürür və dərslər həmin dindən və ya məzhəbdən çıxış edərək keçilir. Bu tədris metodu daha çox müəyyən bir dini və ya məzhəbi öz rəsmi ideologiyası kimi qəbul edən dövlətlərdə tətbiq olunur. Digər təcrübələr isə "din haqqında" və "dindən öyrənmə"dir. Dünyəvi dövlətlərdə din tədrisi daha çox bu son iki metod üzərində qurulub. "Din haqqında öyrənmə" modeli müəyyən bir dini dünyagörüşünün digərlərindən üstünlüyünü önə çəkmədən cəmiyyətdə mövcud olan dinlərin əsas mahiyyəti və tarixi haqqında deskriptiv (təsviri) bilikləri əhatə edir. "Dindən öyrənmə" modeli isə tədris prosesində dinlərin insanlığa təlqin etdiyi universal mənəvi dəyərlərin mənimsənilməsinə xidmət edir. Bu iki model dünyəvilik prinsipinə xələl gətirmədən cəmiyyətin köklü institutlarından biri olan din haqqında şagird və tələbələrə biliyin verilməsinə xidmət edir. Məhz Azərbaycan İlahiyyat İnstitutunda da təhsil dindən öyrənmə, din haqqında öyrənmə metodları ilə öyrədilir.

***– Bəzi alimlər bildirirlər ki, şəxs orta məktəbdən dini bilikləri öyrənməlidir. Bəziləri bunun ali məktəbdə öyrədilməsini məqbul hesab edir. Bəziləri isə dinin təhsildən ayrı olmasını, istəyənlərin könüllü şəkildə dini bilgilər almasının tərəfdarıdır. Aİİ-nin rektoru necə düşünür, sizcə ilkin dini biliklər harada öyrədilməlidir?***

– Mən də dini biliklərin orta məktəbdən öyrədilməsinin tərəfdarıyam. Dünyanın bir çox ölkələrinin orta məktəblərində şagirdlərin bünövrə təsəvvürü olmalıdır. Məqsəd odur ki, şagirdlər kənardan hər eşitdiklərini, xürafatı



əsas götürməsinlər. Dinin mahiyyətini bilən şagird radikallığa meyil etməyəcək, həqiqi dini başa düşəcək.

Orta məktəbdə verilən dini biliklər ali məktəbdə də davam etdirilməlidir. Nəzərinizə çatdırım ki, Azərbaycanın ali məktəblərində ixtisasından asılı olmayaraq, tələbələrə multikulturalizm fənni tədris olunur. Bu fənnin tərkibində böyük dünya dinləri haqqında təsviri məlumatlara da yer verilir.

***– Maraqlıdır, fərqli dini inancı olan şəxslər ötən 5 il ərzində Aİİ-nin İslamşünaslıq fakültəsinə qəbul olubmu? Ümumiyyətlə, digər dini icmalarla münasibətləriniz necədir?***

– İslamşünaslığa digər dinlərə mənsub şəxslərin qəbulu olmayıb. Lakin buna məhdudiyyət yoxdur. Onu da bildirim ki, Aİİ Azərbaycanda fəaliyyət göstərən Xristian və Yəhudi icmaları ilə aktiv şəkildə əməkdaşlıq edir. Keçən il institutumuz Azərbaycanda mövcud olan Qafqaz–Alban Udi icması üçün Qəbələnin Nic qəsəbəsində Xristianlıq kursları təşkil etdi. İnstitutumuzun müəllimləri həmin kursda xristianlığın əsaslarını və digər fənləri tədris etdilər. Maraq yüksək idi və uğurlu da alındı. Tədbirlərimizin müxtəlif yəhudi və xristian dini icmalarının rəhbərləri və nümayəndələri iştirak ediblər.

***– Azərbaycanda dini dəyərlər yüksəkdir. Din cəmiyyətimiz üçün həssas mövzudur. Təəssüf ki, bəzən xurafat da dinə qarışdırılır. Müşahidələrimizə əsasən, görürük ki, İran Azərbaycanda casus şəbəkəsini orada təhsil almış "din xadimləri" vasitəsilə həyata keçirirlər...***

– Doğru qeyd etdiniz. İran "İslam" Respublikası destruktiv fəaliyyətlərini son zamanlar tamamilə açıq büruzə verdi. Təəssüf ki, İran tək Azərbaycanda deyil, bir çox İslam ölkəsində qanunsuz fəaliyyətlərlə məşğuldur. İran qeyri-legitim fəaliyyətlərində ölkəsində təhsil almış xarici vətəndaşlardan istifadə edə bilir. Qarşısının alınmasının birinci yolu dini maarifləndirmədən keçir. O baxımdan Azərbaycan İslam İnstitutunun yaranması vacib idi, zərurətdən yarandı. Biz Azərbaycanın müxtəlif bölgələrində də maarifləndirmə işlərini həyata keçiririk. Bunu müstəqil və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və komitənin tabeliyindəki qurumlarla birgə həyata keçiririk.

***– Sonda oxucularımıza nə demək istərdiniz?***

– Oxuculara qəzetiniz vasitəsilə bildirirəm ki, dinlə bağlı hər danışılana qulaq asmasınlar. "Din xadimi" adı altında destruktiv fəaliyyətlə məşğul olanlara aldanmasınlar. Onlar İslam dinini yox, hansısa quplaşmanın, ölkənin maraqlarını təmsil edirlər. Din sahədə ölkəmizdə mütəxəssislər çoxdur, onların fikirlərinə istinad etsinlər. Allah hər bir soydaşımızı, hər bir dindaşımızı qorusun!

***– Müsahibə üçün təşəkkür edirəm.***

*Rizvan FİKRƏTOĞLU,*
*"Xalq qəzeti"*

*İnzibati Xətalar Məcəlləsinə dəyişiklik*

# Media və məsuliyyət

## yaxud kütləvi yayımın hüquq və əxlaq hüdudları

**Prezident İlham Əliyevin təsdiqlədiyi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu sözügedən məcəllənin "Media haqqında" Qanuna uyğunlaşdırılması məqsədi daşımaqla, həm də qanunvericiliyin media fəaliyyəti ilə bağlı hissələrini təkmilləşdirir. Burada müəyyən formal prosedurlar da var, vacib məqamlar da. Birinci ilə bağlı müxtəlif maddələrdəki "kütləvi informasiya vasitələri" sözünün "media", "mətbuatın və digər kütləvi informasiya vasitələrinin" sözlərinin "media subyektlərinin", habelə 533-1-ci maddənin adındakı və mətnindəki "Kütləvi informasiya vasitələrində" sözlərinin "Media məhsullarında" sözləri ilə əvəzlənməsi vurğulanmalıdır.**



Başlıca məqam İXM-nin 381-ci maddəsindəki Media haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyətdir. Belə ki, 381.1-ci maddəyə görə media məhsullarının qanunla müəyyən edilmiş qaydada yayılmasına mane olmağa görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimələnəcəklər. 381.2-ci maddə üzrə jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə nəzərdə tutulur.

İXM-nin yeni redaksiyasına görə, 381.3-cü maddə üzrə nəzərdə tutulmuş qanunla müəyyənləşdirilmiş hallardan başqa, media subyektləri və jurnalistlərin informasiya almaq hüququnun məhdudlaşdırılmasına və ya onlara informasiya verilməsindən imtina edilməsinə, yaxud qanunla müəyyən edilmiş müddətdə onların sorğusuna cavab verilməməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə tətbiq ediləcəkdir.

İXM-nin 381.4-cü maddəsinə dəyişikliklə isə media subyektləri tərəfindən təkzib, cavab və düzəliş verilməsinin "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşmiş qaydalarının pozulmasına görə məsuliyyət müəyyənləşəcək ki, bu, vəzifəli şəxslər üçün üç yüz manatdan altı yüz manatadək, hüquqi şəxslər üçün isə min manatdan min beş yüz manatadək məbləğdə cərimə deməkdir.

İXM-nin 381.5-ci maddəsinin yeni redaksiyası audiovizual media subyektləri tərəfindən yayımlanmış materialların saxlanılmasının "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşmiş qaydalarının pozulmasına görə məsuliyyəti müəyyənləşdirir. Bu, vəzifəli şəxslər üçün beş yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər üçün isə min manatdan min beş yüz manatadək məbləğdə cərimənin tətbiqi ilə bağlıdır.

Yeni dəyişikliyə əsasən, İXM-nin 381.6-cı maddəsi audiovizual media, çap mediası və onlayn media subyektləri tərəfindən reklam və sponsorluqla bağlı "Media haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət edilməməsinə görə vəzifəli şəxslər üçün iki min beş yüz manatdan üç min beş yüz manatadək, hüquqi şəxslər üçün səkkiz min manatdan on min manatadək məbləğdə cərimə müəyyənləşdirir.

İXM-nin 381.7-ci maddəsinə dəyişiklik plagiat faktına görə məsuliyyət müəyyənləşdirməkdədir. Belə ki, proqrama müstəsna yayım hüququ əldə etmiş audiovizual yayımçıdan başqa, digər audiovizual yayımçıların həmin proqramı yayımlamasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimələnəcəklər. 381.8-ci maddə yayımın müvəqqəti dayandırılması barədə məlumatın yayımın dayandırıldığı müddət ərzində audiovizual yayımçının televiziya və (və ya) radio kanalında yayımlanmamasına, yaxud yayımın dayandırılmasına və ya digər məsuliyyət tədbirinin tətbiqinə səbəb olmuş audiovizual proqramın audiovizual yayımçının veb-saytından və həmin proqramın yayımlandığı videopaylaşım platformalarından çıxarılmamasına görə məsuliyyətlə bağlıdır. Bu maddə üzrə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər iki min manatdan dörd min manatadək məbləğdə cərimələnəcəklər.

İXM-də audiovizual media subyektlərinin redaksiyasının loqotipinin (embleminin) Azərbaycan Respublikası Audiovizual Şurasının razılığı olmadan dəyişdirilməsinə görə də məsuliyyət nəzərdə tutulur. Sənədin 381.9-cu maddəsi də yeni redaksiyada təqdim olunur ki, burada qeyd edilən pozuntu faktına görə vəzifəli şəxslərin dörd yüz manatdan altı yüz manatadək, hüquqi şəxslərin isə səkkiz yüz manatdan min manatadək məbləğdə cərimələnməları təsdiqlənib.

İXM-dəki daha bir dəyişikliyə görə, dövlət büdcəsindən maliyyələşən audiovizual yayımçılar (sifarişli yayım xidməti istisna olmaqla) tərəfindən auditoriya həcminin reytinq ölçən təşkilat vasitəsilə müəyyənləşdirilməsinin təmin edilməməsinə görə də məsuliyyət müəyyənləşdirilib. Bu, sənədin 381.10-cu maddəsində nəzərdə tutulub. Belə ki, sözügedən əməlin törədilməsi səbəbindən vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər iki min manatdan dörd min manatadək məbləğdə cərimələnəcəklər.

İXM-nin 381.11-ci maddəsi audiovizual media sahəsində lisenziyanın qayda və şərtlərinin pozulmasına görə məsuliyyəti əhatə edir. Bununla bağlı vəzifəli şəxslərin min beş yüz manatdan iki min beş yüz manatadək, hüquqi şəxslərin beş min manatdan səkkiz min manatadək məbləğdə cərimələnmələri nəzərdə tutulur.

Sənədə əsasən, media subyektləri tərəfindən sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliğinə görə vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimələnəcəklər ki, bu, məcəllənin 381.12-ci maddəsinin tələbi olaraq meydana çıxmaqdadır.

İXM-nin 381.13-cü maddəsi qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) görə cərimə məbləğlərini müəyyən edir. Belə ki, qeyd edilən əmələ görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər iki min beş yüz manatadək məbləğdə cərimələnəcəklər.

İXM-də platforma və ya multipleks operatorunun fəaliyyətinin Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən monitorinqinin həyata keçirilməsi məqsədilə həmin operator tərəfindən şuranın ödənişsiz istifadə hüququnun təmin edilməməsinə görə, məsuliyyət də nəzərdə tutulub. Sənədin 381.14-cü maddəsinə əsasən bununla əlaqədar olaraq vəzifəli şəxslərin iki min manatdan iki min beş yüz manatadək, hüquqi şəxslərin beş min manatdan səkkiz min manatadək məbləğdə cərimələnmələri üzərində dayanılıb.

İXM-dəki vacib yeniliklərdən biri də sənədin 388-ci madəsinə edilmiş dəyişiklikdir. Bu dəyişiklik media azadlığından və jurnalist hüququndan sui-istifadə ilə əlaqədardır. Belə ki, media subyektinin redaksiyası (məsul redaktoru) və jurnalistlər tərəfindən media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadəyə, yəni, açıqlanması qanunla qadağan edilən informasiyanı yaymağa və ya informasiya mənbəyini qanunla yol verilməyən hallarda açıqlamağa görə cərimə halı yaranacaqdır. Bu baxımdan fiziki şəxslər üçün iki yüz manatdan üç yüz manatadək, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər isə iki min manatdan üç min manatadək məbləğdə cərimələnəcəklər.

Son dəyişikliyə görə, həmçinin İXM-nin 382–385-ci və 387-ci maddələr ləğv edilir.

***R.AMİN***

# Mənim cəsur həmyerlim

**Vətən müharibəsində xalqımızın igid, qeyrətli oğulları erməni işğalçılarını məğlub edərək, uzun illər həsrətini çəkdiyimiz, qədəmlərimizin dəymədiyi yurdlarımızda üçrəngli Azərbaycan bayrağını sancdılar. Döyüş meydanında qazandığımız bu zəfər xalqımızın qəhrəman övladlarının qanı-canı bahasına, cəbhəyə könüllü yollanmış vətənpərvər gənclərimizin, əsgər və zabitlərimizin rəşadəti sayəsində tarixə yazıldı .**



Döyüşdə fərqlənmiş igid oğullarımızdan biri də düşmən tərəfindən basdırılmış minada ayağını itirmiş qazi Asim Pənah oğlu Məmmədbəyovdur. Asim 1995-ci ildə Xacmaz rayon Köhnə Xudat kəndində anadan olub. Ailədə üç uşaqdırlar və ilk övlad Asimdir. O, Qürbət Babayev adına Köhnə Xudat kənt ümumi orta məktəbi bitirdikdən sonra 2013-cü ildə Beyləqanda müddətli hərbi xidmətə yollanmışdır. Tərxis olunduqdan sonra 2015-ci ildə öz istəyi ilə Qusar rayonundakı "N" saylı hərbi hissədə mühəndis-istehkam bölüyündə manqa komandiri kimi işləmişdir.

Aprel döyüşlərində iştirak edən Asim Cəbrayılın Lələtəpə yüksəkliyinin düşmən işğalından azad olunmasında yaxından iştirak etdi. Cəsurluğu ilə fərqlənən həmyerlim Asim 2020-ci il 44 günlük Vətən müharibəsində də bir çox Azərbaycan oğulları kimi, Vətənə borcunu yerinə yetirmək üçün can-başla öndə gedənlərdən oldu. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə yaxından iştirak edərək böyük şücaət göstərdi və "Cəsur döyüşçü" medalı ilə təltif olundu.

Döyüşlər zamanı o, Xocavənddə Qırmızı Bazar istiqamətində ermənilərin basdırdığı piyada əleyhinə minaya düşərək bir ayağını topuqdan itirmişdir. Müalicə aldıqdan sonra yenidən döyüşlərə qayıtmaq istəsə də, lakin icazə verilməmişdir.

Asimlə həmsöhbət olduğum zaman onun qürurverici sözlərinin bir Azərbaycan oğlunun tükənməz vətən sevgisindən soraq verdiyi aşkar hiss olunurdu. Döyüş yolundan danışan Asim "Vətənə xidmət hər bir gəncin borcudur və mən xidmətdə dözümlülük, mərdlik, möhkəmlik qazanmışam", – dedi. Sonra dövlətin onun kimi qazilərə qayğısından razılıq etdi. Prezident təqaüdü və eyni zamanda hərbçi təqaüdü aldığını və 2021-ci ildə dövlət tərəfindən protez ayaqla təmin olunduğunu bildirdi.

Vətənimizin belə cəsur bir oğlu ilə həmsöhbət olmaqdan, sözün həqiqi mənasında, böyük qürur hissi keçirdim. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm.

***Gülnar HƏSƏNOVA,***
***Xaçmaz sakini***

**Sosial sahə yenilikləri**

# Dövlət Məşğulluq Agentliyində




### Peşə hazırlığı təlimləri

**Agentlik cari ilin 1-ci rübündə 2190 nəfəri əmək bazarının tələblərinə uyğun olaraq, peşə hazırlığı kurslarına cəlb edib. Onlardan 1191 nəfəri üçün agentliyin Bakı, Gəncə və Göyçay peşə hazırlığı mərkəzlərində və Naxçıvan Peşə Hazırlığı Mərkəzində, 999 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub.**

Kurslarda dərzi, İT üzrə texniki dəstək mütəxəssisi, nəzarətçi-xəzinədar, mühasib, xalçaçı, insan resursları mütəxəssisi, elektrik aparat və cihazlarının sazlayıcısı və digər peşələr üzrə nəzəri və praktiki biliklər tədris olunur.

İndiyədək 834 şəxs kursları uğurla



bitirib və 780 müdavim müvafiq sahələr üzrə işlə təmin olunub. Digər şəxslərin də yeni yiyələndikləri peşələr üzrə məşğulluğuna dəstək göstərilməsi istiqamətində işlər aparılır.

### Talışda məşğulluq layihəsi

Dövlət Məşğulluq Agentliyi tərəfindən ilk mərhələdə Talış kəndinə köçürülən 20 ailə ilə görüş keçirilib. Təhlillər aparılaraq məşğulluq tədbirlərinə cəlb ediləcək şəxslər müəyyənləşdirilib. 29 sakinin məşğulluğu təmin edilib.

Agentlik tərəfindən, həmçinin kənd sakinlərinin özünüməşğulluq proqramına cəlb olunması işləri də aparılır. Doqquz sakin özünüməşğulluq proqramına cəlb edilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə həmin şəxslər üçün biznes təlimləri təşkil edilib. Yaxın günlərdə onlara proqram çərçivəsində müxtəlif iqtisadi sahələr üzrə şəxsi təsərrüfatlarını yaratmaları üçün avadanlıq veriləcək.

Proqrama cəlb olunacaq kənd sakinlərinin əməkhaqqının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən ödəniləcək ki, bununla proqram həmin sakinlərin məşğulluğu ilə yanaşı, ərazidəki işəgötürənlərə də dəstək olacaq.

### İşsizlərə qayğı artır



**Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin birinci rübündə 77 min 687 işsiz və işaxtaran şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 12 min 820 nəfəri "Əmək və məşğulluq" altsistemindəki vakansiya bankına yerləşdirilən münasib boş yerlər üzrə işlə təmin edilib. 12 min 45 nəfər isə kiçik bizneslərini yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.**

Yanvar – mart aylarında 2 min 190 işsiz şəxs üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində peşə hazırlığı kursları təşkil edilib, 61 min 432 şəxsə isə peşəyönümü xidmətləri göstərilib.

### DOST dünyada "ən yaxşı"dır

**DOST Agentliyi bu dəfə könüllülük proqramı qlobal insan resursları sammitinin diqqətini cəlb edib. Bakıda keçirilən "Global HR Summit 2023" tədbiri çərçivəsində "Könüllü DOST" proqramı "Ən yaxşı Korporativ Sosial Məsuliyyət (KSM) Strategiyası" (Best CSR strategy) kateqoriyası üzrə qalib elan olunub. Könüllü DOST proqramı sosial məsuliyyət çərçivəsində həyata keçirilən uğurlu fəaliyyətinə görə bu mükafata layiq görülüb.**

Qiymətləndirmə müxtəlif dövlət və özəl qurumların nümayəndələri, o cümlədən beynəlxalq ekspertlər tərəfindən həyata keçirilib. Mükafatlanma mərasimi sammitin "Global HR EXELLENCE Award" adlı tədbirində baş tutub. Tədbirdə yerli və beynəlxalq şirkətlərin insan resursları üzrə baş direktorları, dünyanın aparıcı konsaltinq şirkətlərinin rəhbərləri, dövlət qurumlarının vəzifəli şəxsləri, ümumilikdə, 50-dən çox ölkədən 700-dən çox iştirakçı iştirak edib.

Xatırladaq ki, Azərbaycanın uğurlu sosial islahat nümunəsi olan DOST təcrübəsi təkcə ötən il 8 beynəlxalq mükafatla təltif edilib. Beynəlxalq müsabiqələrdə 2 layihə üzrə finalçı seçilən agentlik 4 beynəlxalq ISO sertifikatı da əldə edib.

### "Öz biznesinə başla..."

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" iştirakçıları üçün növbəti biznes təlim Şamaxıda keçirilib.**

Rayonda bu layihəyə cəlb edilən işsiz şəxslər üçün təşkil edilən təlimdə iştirakçılara Beynəlxalq Əmək Təşkilatının "Öz biznesinə başla və təkmilləşdir" təlim proqramı əsasında kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar tədris olunur, biznes planlar hazırlanıb.

Qeyd edək ki, təlimi uğurla bitirən şəxslər biznes planın qiymətləndirilməsinə cəlb edilir və fəallar aktivlərlə təmin olunur.

### 2 minədək insan işlə təmin edilib

**Dövlət Məşğulluq Agentliyinin icra etdiyi "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə son 3 ayda daha 723 şəxsə iş yerlərinə göndəriş verilib. Həmin şəxslərin bir il ərzində əməkhaqlarının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdiriləcək.**

2020-ci ilin son aylarında icrasına başlanan proqram üzrə ötən dövrdə 636, o cümlədən bu il 151 işəgötürənlə əməkdaşlığa başlanıb və müqavilələr imzalanıb. Həmin müqavilələr əsasında artıq 1926 nəfər işlə təmin edilib.

### Sosial xidmətlər genişlənir

**Sosial Xidmətlər Agentliyinin Əlilliyi Olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinə təşkil edilən mediaturda media nümayəndələrinə məlumat verilib ki, mərkəzdə 15-29 yaşlı əlilliyi olan şəxslərin müxtəlif peşələr üzrə peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir.**

Onlar 3-6 aylıq kurslarda kompüter istifadəçisi, montaj operatoru, bədii oyma, xalçaçılıq, dərzilik, kişi və qadın bərbəri, toxuculuq, aşpaz köməkçisi, rəssamlıq, dulusçuluq üzrə peşə bacarıqlarına yiyələnirlər. Kursları uğurla bitirən şəxslərə peşə şəhadətnamələri verilir və əmək bazarına çıxışı üçün dəstək göstərilir.

Mərkəzə qəbul olunanlar burada dövlət hesabına yataqxana, yemək, sosial-psixoloji və tibbi-sosial xidmətlərlə təmin olunurlar. Burada gənclər peşələrlə yanaşı, musiqi və dizayn dərnəkləri, stolüstü oyunlar, paralimpiya idman məşqlərinə də cəlb edilirlər.

Ötən il mərkəzdə daha 600 nəfərə, bu ilin ötən dövründə isə 30 nəfəri Vətən müharibəsi ilə əlaqədar əlilliyi olanlardan ibarət olmaqla 285 nəfər əlilliyi olan şəxsə xidmət göstərilib.

Postmüharibə dövründə mərkəzə Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan 78 nəfər qəbul edilib, onlardan 14 nəfərinin peşə hazırlığı kursları davam edir. Ümumilikdə, hazırda mərkəzdə 114 nəfərin peşə və sosial reabilitasiya kursu davam edir. Agentliyin dəstəyi ilə indiyədək aralarında müharibə ilə əlaqədar əlilliyi olanların da olduğu 90 nəfər gənc Türkiyədə həyata keçirilən beynəlxalq təcrübə layihələrində iştirak edib.

Mütəmadi olaraq mərkəzin yetirmələrinin əl işlərindən ibarət satış sərgiləri də təşkil olunur. İndiyədək ölkəmizin bütün bölgələri üzrə 2700-ə yaxın gənc mərkəzdə peşə və sosial reabilitasiya kursu keçib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında

*2023-cü ilin may ayında vətəndaşların qəbulu*

## CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini** Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| **Baş nazirin müavini** Əhmədov Əli Cavad oğlu | 2 |
| **Baş nazirin müavini** Mustafayev Şahin Abdulla oğlu | 3 |
| **Aparatın rəhbəri** Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| **İqtisadiyyat şöbəsinin müdiri** Əmiraslanov Azər Kamal oğlu | 5 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri** Rüstəmli Ruslan Rüstəm oğlu | 8 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri** Paşayev Zakir İlqar oğlu | 10 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri** Qasımlı Xalid Akif oğlu | 11,24 |
| **Sosial məsələlər şöbəsinin müdiri** Rəhimov Niyazi Süleyman oğlu | 12,25 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən** Həbibbəyli Ərəstü İsa oğlu | 15 |
| **Sənaye və energetika şöbəsinin müdiri** Hacızadə Elşən Mahmud oğlu | 16,26 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri** Qasımov Lətif Cəfər oğlu | 17,30 |
| **Regionların inkişafı şöbəsinin müdiri** Məcidov İlkin Sabir oğlu | 18 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri** Mustafayev Feyruz Rəvayət oğlu | 19,31 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri** Pənahov Musa Sədi oğlu | 22 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri** Məmmədov Anar Rəhim oğlu | 23 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68**
**Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Qəbulla bağlı əlaqə nömrələri: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 123** **Bakı şəhəri, 18 aprel 2023-cü il**

***"Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydasının və qiymətləndirmə meyarları"nın təsdiq edilməsi haqqında***

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Elektrik və istilik enerjisi istehsalı və təbii qazın emalı üzrə effektivlik potensialının qiymətləndirilməsi qaydası və qiymətləndirmə meyarları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 133** **Bakı şəhəri, 26 aprel 2023-cü il**

***"Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 13 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1939 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 70, № 3, maddə 365) ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nın 5.1-ci bəndindən və "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"na 2 nömrəli əlavə - "Publik hüquqi şəxslər üçün vəsaitlərdən istifadə barədə aylıq, rüblük və ilin əvvəlindən artan yekunla iqtisadi təsnifat üzrə Hesabat Forması"ndan "aylıq," sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 126** **Bakı şəhəri, 20 aprel 2023-cü il**

***"Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin əməkhaqlarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 2 mart tarixli 72 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 2 mart tarixli 72 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 583) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "maaşlarının sxemi" sözləri "maaşları" sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin aylıq vəzifə maaşlarının sxemi" aşağıdakı redaksiyada verilsin:

### Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyəti üzvlərinin və digər işçilərinin aylıq vəzifə maaşları

| Vəzifələrin adı | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|
| İdarə Heyətinin sədri | 2300 |
| İdarə Heyəti sədrinin müavini | 1700 |
| İdarə Heyətinin üzvü, baş mühasib, departament müdiri, hüquqşünas | 1500 |
| Baş redaktor | 1200 |
| İdarə müdiri, redaksiya müdiri | 1050 |
| Şöbə müdiri | 970 |
| Aparıcı mühasib | 950 |
| Baş redaktorun müavini | 900 |
| İdarə müdirinin müavini, bölmə müdiri, buraxılış redaktoru, informasiya texnologiyaları mütəxəssisi | 850 |
| İdarə Heyəti sədrinin məsləhətçisi, redaktor, aparıcı mütəxəssis | 820 |
| Tərcümə redaktoru | 800 |
| İdarə Heyəti sədrinin köməkçisi, mühəndis, kontent menecer, aparıcı müxbir, tərcüməçi, rejissor, iqtisadçı | 750 |
| İdarə Heyəti sədrinin müşaviri, mütəxəssis, bölgə müxbiri, müxbir, qrafik-dizayner, böyük fotomüxbir, montaj rejissoru, əməyin mühafizəsi üzrə müfəttiş, mühasib | 700 |
| Videooperator, fotomüxbir, böyük korrektor, rabitə mütəxəssisi, səs operatoru, menecer | 650 |
| Sürücü, anbardar, mühəndis-elektrik, arxivçi, korrektor, mühafizəçi | 600 |
| Operator, rabitə operatoru, usta, elektrik | 550 |
| Xadimə | 500 |
| Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) xarici ölkələrdə çalışan müxbirləri | müxbirin fəaliyyət göstərdiyi ölkədəki Azərbaycan Respublikası fövqəladə və səlahiyyətli səfirinin 2023-cü il yanvarın 1-də mövcud olmuş əməkhaqqının 55 faizi məbləğində |

**2.** Bu Qərar 2023-cü il fevralın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 127** **Bakı şəhəri, 20 aprel 2023-cü il**

***"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 385 nömrəli və 2022-ci il 15 mart tarixli 88 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərara əsasən Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 128** **Bakı şəhəri, 20 aprel 2023-cü il**

***"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1546; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 mart tarixli 90 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin (aparat) dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsinin tabeliyində olan büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2023-cü ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

**3.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 134** **Bakı şəhəri, 26 aprel 2023-cü il**

***"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 678-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1937 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1899; 2020, № 9, maddə 1207; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 aprel tarixli 170 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulada "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 646-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 1 may tarixli 1357 nömrəli Fərmanının 3.1-ci bəndinin" sözləri "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 678-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 28 dekabr tarixli 1937 nömrəli Fərmanının 1.4-cü bəndinin" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın 1.2-ci və 1.3-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"1.2. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 28.13.1-ci yarımbəndi nəzərə alınmaqla, vəsaitin qalan hissəsinin 60 faizi dövlət büdcəsinə köçürülür və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə sərf edilir.

1.3. Bu Qaydanın 1.2-ci bəndi nəzərə alınmaqla, vəsaitin qalan hissəsi gömrük orqanlarının, Komitənin tabeliyində olan qurumların maddi-texniki və sosial bazasını möhkəmləndirmək, habelə gömrük işi sahəsində elmi-texniki potensialın artırılmasına, elmi tədqiqat işlərinin, o cümlədən gömrük tənzimlənməsi vasitələrinin tətbiqi ilə bağlı tədqiqatların aparılmasına, beynəlxalq təcrübədə qəbul olunan yeni metod və üsulların öyrənilməsinə sərf etmək məqsədilə Komitənin hesabına köçürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ana dilimiz Güneydə milli varlığımızın mənəvi qalasıdır

**Azərbaycan dili qədim kökləri, zəngin söz ehtiyatı olan, 50 milyon insanın əsas ünsiyyət vasitəsi sayılan, qonşu ölkələrdə də başa düşülən və işlədilən həmişəyaşar bir dildir. O, bizim üçün təkcə ünsiyyət vasitəsi deyil, həm də ən üstün milli-mənəvi dəyərdir. Ana dilimiz bütün dünya azərbaycanlıları arasında körpü yaradan bir vasitədir.**



Bu dildə yaranan qədim və müasir sənətkarlıq nümunələri onun bütün dövrlərdə nə qədər geniş ifadə imkanlarına malik olduğunu göstərir. Bu dildə xalqımızın qəhrəmanlıq tarixi, mübarizələrlə dolu keçmişi, əzmi, zəfəri yaşayır. Azərbaycan dili milli dövlətçilik tariximizin bütün dövrlərində diqqət mərkəzində olmuş, onun dövlət dili səviyyəsinə yüksəlməsi üçün gərgin mübarizələr aparılıb. “Azərbaycan dili” ifadəsi ürəklərə hərarət gətirən, insanı öz keçmişinə bağlayan, gələcəyə səsləyən mənəvi xəzinədir.

Ana dilimiz həm də bizim kökümüz, milli mədəniyyətimiz, özəl əxlaqımızdır. Elə məhz buna görə də Güney Azərbaycanda ötən əsrdən başlayaraq, soydaşlarımızın öz dillərindən istifadəsi əngəllənib, rəsmi səviyyədə qadağan olunub. Bu məsələ bu gün bütöv xalqımızın ən ağrılı yeridir. Güneydə yaşayan əhalinin İran hökuməti tərəfindən sıxışdırılması, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizi unutdurmaq cəhdi İranın dövlət siyasətinin əsas hədəfləri sırasındadır. Bu gün də həmin proses davam etməkdədir. Hakim fars şovinizmi hesab edir ki, fars dili əsasında təhsil sistemi coxmillətli ölkə olan İranda “vahid İran milləti”nin yaranmasına yardımçı olacaq və fars təfəkkürlü yeni nəsil yetişdirəcəkdir.

Maraqlısı budur ki, İran dövləti, adətən, bu siyasətini mənşəcə öz xalqımıza məxsus insanların əli ilə həyata keçirməyə çalışır. XX əsrin əvvəllərindən başlayaraq İran rejimləri ölkədə yaşayan azərbaycanlıların farslarla eyni kökdən olduğunu sübut etməyə çalışır, bunun üçün uydurma, heç bir elmi əsası olmayan iddialar irəli sürür. Güney azərbaycanlıların dil, milli dəyərlər, mədəniyyət fərqlərinin bu dövlətin varlığına təhdid olacağı qorxusu fars dilini ölkədə zorla yaymağa, soydaşlarımızı öz doğma dillərini unutdurmağa xidmət etsə də, onlar buna nail ola bilməmişlər.

Eyni zamanada Güney Azərbaycan ərazisindəki türk mənşəli coğrafi adların dəyişdirilməsi də İranın milli maraqlarına xidmət edib. Uzun bir dövr öz dilində məktəbi olmayan insanların bu dili qoruyub saxlaya bilməsi, doğrudan da möcüzədir. Bütün qadağalara baxmayaraq, ana dilində yazıb-yaradan güneyli şairlərimizdən Mirzəli Möcüz özünün “Anan təlim edən dildə” şeirində dilimizə olan düşmən münasibətdən şikayət edərək yazırdı:

***Dünən şeir ilə bir namə apardım şahi-İranə,***
***Dedi: “Torki nə midanəm, məra to beççə pəndari?”***
***(Türkcə bilmirəm, sən məni uşaq sanırsan?)***
***Özü türk oğlu türk, əmma deyir türki cəhalətdir.***

Şah rejimi dövründən İranda ana dilimizə qarşı həyata keçirilən soyqırımı, dilin unutdurulması üçün aparılan iş İran dövlətinin gözlədiyi nəticəni vermədi. Bunun üçün ana dilində məktəblərin bağlanması, milli ədəbiyyata qarşı təzyiqlər, hətta soydaşlarımıza öz övladlarına türkcə adların qoyulması qadağası da yetərli olmadı. Öz soy-kökünə, qədim folkloruna, milli dəyərlərinə bağlı insanlar doğma dili unutmadılar. Bütün çətinliklərə baxmayaraq, öz ana dillərindən istifadə etməyə davam etdilər. Bu da İran dövlətinin uzun illər yürütdüyü türklərin farslaşdırılması siyasətinin iflasa uğramasına səbəb oldu.

Güney Azərbaycan tarixində yalnız Rza şah hakimiyyətdən getdikdən sonra – 1941-ci ildən başlayaraq, Azərbaycan dilinə qarşı münasibətdə nisbətən yumşalma müşahidə edildi. Bu dövrdə yaranan anadilli mətbuatın da təsiri ilə milli oyanış baş verdi. 1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Hökuməti yaradıldı. Bu hökumət 1946-cı ilin yanvarında Azərbaycan dilini məmləkətdə rəsmi dövlət dili elan etdi. Lakin İranda şər qüvvələrin fitnəsi ilə 13 dekabr 1946-cı ildə Azərbaycan Milli Hökuməti süqut etdi. Beləliklə, onların yeritdiyi dil siyasəti də yarımçıq qaldı.

Sonrakı dövrlərdə də İran hökuməti dilimizə, ədəbiyyatımıza qarşı çox sərt mövqe tutdu və ana dilinin heç bir səviyyədə istifadəsinə imkan vermədi. İran hökumətinin bütün cəhdləri bölgədə fars dilinin nüfuzunu yüksəltməyə, onun təhsil sistemində möhkəmlənməsinə və beləliklə də ana dilini unutdurmağa yönəldi. Lakin İran hökuməti buna nail ola bilmədi, xalqın milli dəyəri olan dilini – folklor nümunələrinin yarandığı, ata-babalarının danışdığı, göz açıb gördükləri, ailələrindən əxz etdikləri doğma dilini unutdurmağa müvəffəq omadı.

Güney Azərbaycan əhalisi savadlılıq dərəcəsinə görə çox geridə qaldığından fars dilini bilmirdi və bütün qadağalara baxmayaraq, öz dillərində danışırdı. Nəticədə, onların övladları da bu dili öyrənirdilər. Bu da Azərbaycan dilinin unudulmağına mane olurdu. Digər tərəfdən, yaranan milli ədəbiyyat, mətbuat nümunələri dilimizin inkişafına və yayılmasına təkan verirdi.

Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığı və 1954-cü ildə qələmə aldığı “Heydərbabaya salam” poeması Güneydə milli şüurun oyanmasında, dirçəlməsində xüsusi bir mərhələ oldu. 1960-cı illərdən başlayaraq, burada Azərbaycan dilində əsərlər çap olunmağa başladı. Onların içərisində ana dilində əsərlər yazan və milliyyətçi fikirləri ilə tanınan Səməd Behrənginin yaradıcılığını xüsusi qeyd etmək lazımdır.

1979-cu ildə İran İslam İnqilabı başa çatdıqdan sonra yenidən milli hüquqlar uğrunda mübarizə başladı. Bu mübarizənin əsas hərəkətverici qüvvələrindən biri də inqilabdan sonra Quzey Azərbaycandan öz yurduna qayıtmış demokrat ziyalılar idi. Bu zaman referendum yolu ilə qəbul edilmiş konstitusiyada yenə də insanlara milli dildə təhsil hüququ tam verilmədi, yalnız ana dilinin fars dili ilə yanaşı öyrədilməsi nəzərdə tutuldu. Bütün dövlət yazışmaları fars dilində aparıldı.

Əslində, konstitusiyada öz əksini tapan bu müddəalar yalnız kağız üzərində idi. Azərbaycan dilinə yenə də gözlənilən hüquqlar verilmədi və ana dilinin tədrisi mümkün olmadı. Yalnız mətbuatda Azərbaycan dilindən məhdud istifadə mümkün oldu. İranda uzun illər gedən mübarizələr isə dilimizin buxovlardan azad olması ilə nəticələnmədi.

Düzdür, İranda müxtəlif dövrlərdə yaranmış təşkilatlar Azərbaycana muxtariyyət, hətta bəzən müstəqillik, ana dilimizin dövlət dili elan olunması kimi tələblər irəli sürürlər. Lakin ötən dövrlərdə azərbaycanlılar arasında vahid, güclü təşkilatlanma olmadığı üçün onların dil uğrunda mübarizəsi də tam olaraq öz həllini tapa bilmir. Bütün bunlara baxmayaraq, ana dilimiz yenə də Güneydə milli varlığımızın mənəvi qalasıdır.

**Nuray ƏLİYEVA,**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent**



# Ayağa dur, Azərbaycan!



*Nə yatmısan qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri,*
*biz hər şeyi bölə billik.*
*Səndən qeyri,*
*biz hamımız ölə billik.*
*Bu Şəhriyar harayıdır,*
*Bu Bəxtiyar harayıdır.*
*Ayağa dur Azərbaycan!*
*Bunu bizə zaman deyir,*
*Məzarından baş qaldıran baban deyir:*
*– Nər oğlu nər, səninləyəm!*
*Səninləyəm silah tutan,*
*kulung tutan, yaba tutan,*
*Kösöy tutan nişanlı ər, səninləyəm!*
*Səninləyəm, qız atası,*
*Hanı nərən, hanı səsin?*
*Hani andın?*
*Yoxsa sən də yatmışlara, batmışlara,*
*Qeyrətini satmışlara xırdalandın?*
*Gözünü sil vətən oğlu,*
*Ayağa qalx!*
*Üfüqünə bir yaxşı bax,*
*Sərhədinə bir yaxşı bax,*
*Sərhədinin kəməndinə bir yaxşı bax!*
*Dur içindən qorxunu boğ,*
*Ölümünlə qalımını ayırd elə.*
*Dur içindən dovşanı qov,*
*Dur özünü Boz Qurd elə!*
*Varı -yoxum səninləyəm,*
*Azım-çoxum səninləyəm,*
*Şirin yuxum səninləyəm.*
*Yıxın məni söz atından,*
*Atın məni tank altına,*
*Əzin məni xıncım-xıncım*
*Kəsmir əgər söz qılıncım.*
*Didin məni didim-didim,*
*Atın məni tank altına.*
*Qundaqdakı bir körpəni xilas edim,*
*Səninləyəm,*
*Sözü qəmli, özü dəmli*
*rəhbər adam!*
*1918-də vuruşurdu*
*danışmırdı rəncbər atan,*
*rəncbər atam!*
*Oyat bizi ey yaradan, səninləyəm!*
*Ya birmərrə yatırt bizi,*
*Ya birmərrə oyat bizi.*
*Ya yenidən yarat bizi!*
*Ey yaradan, səninləyəm!*
*Səninləyəm, yatmış vulkan.*
*Səninləyəm!*
*Ayağa dur, Azərbaycan,*
*Səninləyəm!*

***Məmməd ARAZ***



# Milli istiqlalın “Bəxtiyar harayı”

**Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının azsaylı istiqlal şairlərindəndir. O, sözün əsl mənasında, istiqlalçı, mücahid şairdir. Təkcə “Gülüstan” poemasının adını çəkmək bəs edər ki, Bəxtiyar Vahabzadə dönməz istiqlalçı sayılsın. Üstəlik, şairin milli varlığımızın qorunmasına və yaşadılmasına poetik çağırış olan çoxsaylı əsərləri bu həqiqəti qəti olaraq təsdiqləyir.**

Başqa bir istiqlalçı şairimiz Məmməd Araz isə Qarabağın bəlalı günlərində “Nə yatmısan qoca vulkan, səninləyəm!” harayını “Bu, Şəhriyar harayıdır, Bu, Bəxtiyar harayıdır!”– deyə mənalandırmışdı. Qardaş Türkiyənin görkəmli siyasət və dövlət xadimi, keçmiş baş nazir və prezident Süleyman Dəmirəl də Bəxtiyarı, ilk növbədə, istiqlalçılığına görə XX əsrin sonu– XXI əsrin əvvəllərində “Türk dünyasının ən böyük yaşayan şairi” adlandırmışdı.

Hələ sovetlər dövründə Azərbaycanın ikiyə bölünməsinin səbəbkarları olan, Azərbaycan xalqının azadlıq mübarizəsini qırğınlarla və xəyanətlərlə boğan rus və fars siyasətinə etirazın ifadəsi kimi yazdığı “Gülüstan” poemasına görə başı bəlalar çəkmişdi. Bu əsər həm də onu mərd, mübariz şair kimi xalq arasında böyük hörmətə mindirmişdi. Buna görə Bəxtiyar haqqında danışanda həmişə onu “Azadlıq aşiqi, Vətənin səsi” kimi təqdim edirik.

Nə qədər ki, xalqımız taleyini bütövləşdirməyib, Bəxtiyarın istiqlal poeziyası milli haray zəngi kimi susmayacaq. Sonrakı dövrdə isə bu poeziya azadlıq və birlik mübarizəsinin bədii salnaməsi kimi tarixə şahidlik edəcək. Ötən ilin sonlarında Azərbaycan Prezidenti İlham Əliyev bu mübarizənin indiki mərhələsini bütün dünyaya belə açıqladı: “Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün



səylərimizi davam etdirəcəyik!”.

Belə bir mübarizə mərhələsində Bəxtiyarın istiqlal poeziyası mübarizliyi və döyüşkənliyi ilə ictimai-siyasi düşüncədə yenidən aktuallaşır. Azərbaycan xalqının milli oyanışı, istiqlalı və türk birliyi məsələsi onun əsərlərinin başlıca qayəsidir. Azərbaycan xalqının milli və siyasi taleyi, suverenliyi, birliyi və s. kimi motivlər şairin yaradıcılığ amalı və sənət taleyi olmuşdur. Bəli, Bəxtiyar Vahabzadənin bir şair və vətəndaş olaraq qayəsi öz Vətənini bütöv, ölkəsini müstəqil, xalqını isə azad görmək olmuşdur. Onun əsərləri xalqına bölünmüş, haqqı tapdanmış Azərbaycan xalqının istiqlalının poetik ruporudur.

Bəxtiyar Vahabzadənin Azərbaycanın milli və ərazi birliyi mövzusunda qələmə aldığı “Gülüstan” poeması şairin ən dəyərli və oxunaqlı əsərlərindən biri olaraq Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Poema Azərbaycanın Güney və Quzey olaraq ikiyə bölünməsinə səbəb olan “Gülüstan” müqaviləsinə həsr olunmuşdur:

***Bir qələm əsrlik hicran yaratdı***
***Bir xalqı yarıya böldü qılınctəк.***
***Öz sivri ucuyla bu lələk qələm***
***Dəldi sinəsini Azərbaycanın.***

Şair “İstiqlal” və “Şəhidlər” əsərlərini də Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə həsr etmişdir. “Dar ağacı”, “Özümüzü kəsən qılınc”, “Fəryad”, “Atamın kitabı” kimi digər əsərlərində xalqın istiqlalına manəə olan problemlər, daxili və xarici düşmənlərin mənfur əməlləri əks etdirilmişdir. Şair özü “İstiqlal” poemasının “Gülüstan”ın davamı olduğunu qeyd etmişdir:

***Məndən rica etdi bir vətənsevər***
***Yazım davamını mən “Gülüstan”ın...***
***“Şəhidlər” nəticə, “Gülüstan” təməl.***
***Azadlıq verilməz, bilək bir kərə...***

Beləliklə, “Gülüstan” əsərində şairin qaldırdığı ayrılıq fəryadı və parçalanma dərdi “İstiqlal” əsərində istiqlaliyyətin alınması coşqusu ilə əvəzlənir. Azərbaycan xalqının milli müstəqilliyi və istiqlaliyyəti mövzusunda yazılmış “Şəhidlər” poeması bu silsilədə məfkurəvi siqləti və tarixi önəmi ilə seçilir:

***Torpağın bağrına casədləriylə,***
***Azadlıq tumunu əkdi şəhidlər.***

Bəxtiyar Vahabzadənin əsərlərinin bir çoxunda Azərbaycan–türk milli xarakteri, düşüncəsi başlıca yer tutur. Şairin “Azərbaycan oğluyam” şeirində Azərbaycan türkünün qürurverici tarixi, fəxarət dolu keçmişi başlıca mövzudur. “Anam torpaq, Atam od, Od kimi istiqanlı, Seltək dəliqanlıyam”, – deyən şair Azərbaycan milli xarakterini yüksək bədiiliklə təqdim etmişdir. Uzun zamanlar Azərbaycan dövlətinin paytaxtı olmuş Təbriz və Bakı şəhərlərini şair milli inancının Məkkəsi və Mədinəsi elan edir:

***Həm Təbriz, həm Bakıdır***
***Məkkəm, Mədinəm mənim.***

Bəxtiyar Vahabzadənin düşündürücü sualları, sanki, tarixin ədalətsiz hökmünə qarşı üsyan edir, xalqını birlik, bütövlük uğruna mücadiləyə çağırır:

***Vətənimiz bir bizim,***
***Dünənimiz bir bizim...***
***Bizim talelərimiz***
***Bəs neçün başqa-başqa?***

Şair nə yazırsa yazsın, Azərbaycanın istiqlalı və türk milli birliyi həmişə onu bütün varlığı ilə düşündürmüşdür. “Vətəndən vətənə”, “Azərbaycan oğluyam”, “Mənim şeirim”, “Şair-vətən”, “Əgər qorunmazsa istiqlalımız” və başqa şeirlərində də bəhs edilən mövzu əhəmiyyətli yer tutmaqdadır:

***Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,***
***Mən isə...Vətəndən Vətənə baxıram.***

Şair “Anamın kitabı” əsərində Azərbaycan türklərini yüz illərcə bölüb, başqa mənəviyyata, başqa qanunlara, başqa ideologiyaya yönəldilməsindən söz açmışdır. Onun “Ana dili” və “Anamın kitabı” kimi əsərlərində də milli dil və heysiyyət məsələlərinə toxunulmuşdur. Bu mövzu şairin “Ana dili” adlı şeirinin əsas mövzusudur:

***Bu dil – bizim ruhumuz, eşqimiz, canımızdır***
***Bu dil – bir-birimizlə əhdi-peymanımızdır.***

Göründüyü kimi, istiqlal şairi Azərbaycan dilini milli-ictimai varlığın daşıyıcısı, birləşdirici dəyəri kimi səciyyələndirir. Bəxtiyarın “Muğam”, “Özümüzü kəsən qılınc”, “Dar ağacı” kimi əsərlərində də azərbaycanlıların milli dəyərləri, müstəqilliyi, istiqlalı və başqa bu kimi motivlər əhəmiyyətli yer tutur.

Bəxtiyar Vahabzadənin bütün əsərləri həm Azərbaycanın, həm türk dünyasının milli birliyi və istiqlalı motivlərilə zəngindir. Şairin “Bütün millət dönməliykən yumruğa, Türkün türklə ədavətə haqqı yox” misrası türk dünyası birliyinə uğurla xidmət edən böyük Mustafa Kamal Atatürkün “Türkün türkdən başqa dostu yoxdur” və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” kimi siyasi aforizmlərinin poetik davamı olaraq səslənir.

***Ramiz QASIMOV,***
***filologiya üzrə fəlsəfə doktoru***

# “Akkuyu” AES Türkiyəyə 50 milyard dollarlıq qazanc gətirəcək

**Dünən “Akkuyu” AES-in birinci bloku üçün ilk nüvə yanacağının təhvil verilməsi mərasimi keçirilib. Xatırladaq ki, stansiyanın birinci enerji blokunun lazımi sazlama işlərindən və Türkiyənin Atom Enerjisinə Nəzarət İdarəsinin təsdiqindən sonra bir il ərzində istifadəyə veriləcəyi planlaşdırılıb.**

Yeri gəlmişkən, bu atom elektrik stansiyasının istismar müddəti, təxminən, 60 ildir. Daha sonra nəzarət və yoxlamaların nəticələrinə əsasən, həmin müddət 20 il də uzadıla bilər. “Akkuyu”nun Türkiyənin iqtisadi inkişafına verəcəyi töhfə 50 milyard ABŞ dolları qiymətləndirilir. Eyni zamanda, qardaş ölkənin ilk atom elektrik stansiyası olan “Akkuyu” istismara verildikdən sonra burada ildə 35 milyard kVt/saat elektrik enerjisi istehsal etmək planlaşdırılır və bunun isə Türkiyənin ümumi enerji ehtiyacının 10 faizini qarşılayacağı bildirilir.

Layihənin həyata keçirilməsinə 2010-cu il mayın 12-də başlanılıb. Rusiya və Türkiyə hökumətləri arasında qardaş ölkənin Mersin vilayətinin Gülnar rayonunda “Akkuyu” AES-in tikintisi və istismarı sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

İkitərəfli dövlətlərarası razılaşmanın şərtlərinə əsasən, “Akkuyu” yatağı Rusiyanın "Atomstroyexport" (ASE) Şirkətlər Qrupuna təhvil verilib. Müqavilədə qeyd olunduğu kimi, Rusiya şirkəti burada nüvə stansiyası tikəcək və bu atom elektrik stansiyasından əldə ediləcək elektrik enerjisini 15 illik alış zəmanəti ilə Türkiyə tərəfinə satacaq. Stansiyanın 1200 meqavatlıq dörd moduldan ibarət ümumilikdə 4800 meqavat gücü olacaq.

Xatırladaq ki, “Atomstroyexport JSC” “Rosatom” dövlət korporasiyasının xarici ölkələrdə nüvə enerjisi obyektlərinin tikintisi, onların modernləşdirilməsi üzrə aparıcı mühəndislik şirkətidir. Qurumun fəaliyyəti Rusiyanın nüvə enerjisi sahəsində çalışan mütəxəssislərinin yarım əsrlik təcrübəsinə əsaslanır. Həmin mütəxəssislərin iştirakı ilə Şərqi Avropa və Finlandiyada 30-a yaxın atom enerji blokunun tikilməsi də bunun bariz ifadəsidir.

Qeyd edək ki, “Rosatom” korporasiyası beynəlxalq enerji bazarında 70 ildən çox təcrübəyə malikdir və xarici layihələr portfeli baxımından dünyada birinci yerdədir. Həmçinin bu qurum 12 ölkədə həyata keçirilmiş müxtəlif layihələrdə 36 enerji blokunu istifadəyə verərək dünya nüvə yanacağı bazarının 17 faizini təmin edir. Korporasiya tərəfindən indiyə qədər təmiz enerji əldə etmək üçün təqdim olunan həllərdən ən mükəmməl məhsulu “VVER-1200” reaktorunun təkamül etdirilmiş dizaynıdır.

Bu reaktorlar 1990-2000-ci illərdə xarici müştərilər üçün tikilmiş “VVER-1000” reaktorlarının daha da təkmilləşdirilməsi əsasında hazırlanıb. “VVER-1000” reaktorunun hər bir parametrinin təkmilləşdirilməsi nəticəsində möhürlənmiş reaktor bölməsindən kənarda hər hansı qəza baş verdikdə radiasiyanın kənara çıxma ehtimalını azaltmağa imkan verən bir sıra əlavə təhlükəsizlik sistemlərini tətbiq edilib.

Görülən işlər nəticəsində “VVER-1200”ün enerji istehsalı gücü daha da artırılıb, reaktorun istifadə müddəti 60 ilə qədər uzadılıb, quraşdırılmış gücdən istifadə əmsalı 90 faizə çatdırılıb, reaktora yenidən yanacaq doldurmadan 18 ay işləmək imkanı əldə edib və sıra digər spesifik göstəriciləri təkmilləşdirilib.

“Akkuyu” AES-in istismarı zamanı təhlükəsizliyin təmin edilməsi məsələsinə də xüsusi diqqət ayrılıb. Belə ki, stansiyada ionlaşdırıcı şüalanmanın və radioaktiv maddələrin ətraf mühitə yayılmasına qarşı dörd qatdan ibarət təhlükəsizlik sistemi yaradılıb.

Reaktor zalında hər hansı bir qəza baş verərsə, bütün radioaktivlik bu müdafiə qatlarının arxasında qalacaq. Bu qatlar, həmçinin stansiyanın xarici təsirlərdən (məsələn, təyyarə qəzası, tornado, qasırğa və ya partlayış) qorunması üçün nəzərdə tutulub.



“Akkuyu” ətraf ərazilərin su mühitinə, flora və faunasının təhlükəsizliyinə təhlükə yaratmayacaq. Bu səbəbdən də stansiya yaxınlığında istirahət zonaları və çimərliklərin salınması məqsədəuyğundur.

Mütəxəssislərin fikrincə, Türkiyənin iqtisadi inkişafında da bu layihənin özünəməxsus rolu olacaq. Belə ki, stansiyanın istifadəyə verilməsindən sonra həm AES-də, həm də onun əlaqədar digər müəssisələrində xeyli sayda iş yerləri açılacaq. Nüvə texnologiyasının inkişafı elmi tədqiqatların, istehsal həcminin və yüksək texnologiyalı məhsulların ixracının artmasına kömək edəcək.

Bir sözlə, “Akkuyu” Atom Elektrik Stansiyası qardaş ölkə üçün əlamətdar layihədir. Türkiyə bu layihə ilə nüvə enerjisi sahəsində illərlə toplanan təcrübə və ən yaxşı texnologiyaları əldə etmək imkanına malik olacaq. Layihənin tikinti prosesində türk mütəxəssislərinin maksimum iştirakı nəzərdə tutulub. Belə ki, ilkin hesablamalara görə, Türkiyə tərəfi stansiyanın tikintisi üzrə bütün işlərin 40 faizini yerinə yetirəcək.

**P.S.** Dünən Akkuyu AES-in təntənəli açılışı olub. Prezident Rəcəb Tayyib Ərdoğan mərasimə videokonfrans vasitəsilə qatılaraq bildirdi ki, Türkiyə Akkuyu Atom Elektrik Stansiyası nəticəsində dünyada nüvə gücünə sahib ölkələrdən biri olur. Stansiyanın işə salınması təbii qaz idxalını illik 1,5 milyard dollara qədər azaltmağa imkan yaradacaq. Türkiyə lideri qeyd etdi ki, Atom Elektrik Stansiyası 20 milyard dollarlıq bir yatırımdır.

***V.BİNYƏTOĞLU,***
***“Xalq qəzeti”***

# Ukrayna: sosiomədəni qütbləşmə, yaxud milli birlik?!

**On aydır davam edən Rusiya–Ukrayna müharibəsi haqqında çox yazılıb. Müxtəlif yanaşmalar və şərhlər var. Bu kəskin silahlı qarşıdurma həm geosiyasi, həm də sivilizasiyalararası savaş xarakteri daşıyır. Bunun nədən qaynaqlandığı, eləcə də proseslərin hansı məcrada davam edəcəyi barədə BDU-nun Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimovdan fikirlərini oxucularla bölüşməsini xahiş etmişik. Aydın müəllimin bu mövzuda eksklüziv olaraq “Xalq qəzeti” üçün hazırladığı materialı təqdim edirik:**



“Ukrayna müharibəsi geosiyasi qarşıdurma xarakteri daşıyır. Burada Qərblə Rusiyanın maraqlarının toqquşması baş verir. Sivilizasiyalararası kontekstdə isə bu, həm də qərbi və şərqi xristianlığın üz-üzə gəlməsidir.

Ukraynanın coğrafi məkan və dövlət olaraq belə bir vəziyyətə düşməsi təsadüfi deyil. Ukrayna və Rusiya slavyan dövlətləridir və bu amil onları həm birləşdirir, həm də ayırır. Bu iki toplumun ümumi mədəniyyət, dil və tarix baxımından yaxın olduğu bəllidir.

Unutmaq olmaz ki, Ukrayna və Rusiya, üstəgəl Belarus keçmiş ittifaqın siyasi və iqtisadi dayaqları idi. Ukrayna və Belarus, həmçinin BMT və UNESCO-nun üzvləri idi.

Təsadüfi deyil ki, bu üç dövlət Sovet İttifaqının həyatında baş verən bütün müsbət və mənfi proseslərə görə məsuliyyət daşıyırdı. Buna görə də məhz bu üçlük 1991-ci dekabrın 8-də Belarusda “Belovejsk” razılaşmasını imzalayaraq, SSRİ-ni dağılmasını təsdiq etdi və MDB-ni yaratdı.

Sənədə imza atan dövlətlərin rəhbərləri bu qərarlarını onunla izah etməyə çalışdılar ki, SSRİ-nin təsisçiləri məhz onların başçılıq etdikləri respublikalar olublar və buna görə də onu ləğv etmək hüquqları var.

Burada bir məqam var. Belə ki, 1922-ci il dekabrın 30-da SSRİ-nin yaradılması barədə müqavilə həmin üç slavyan ölkəsindən başqa, Azərbaycan, Gürcüstan və Ermənistanın daxil olduğu Zaqafqasiya Federasiyası adından imzalanıb. Lakin sonuncu üç dövlət Sovet İttifaqının bir siyasi qurum kimi ləğv olunması ilə bağlı sənədin imzalanması mərasiminə dəvət olunmadı.

Bütövlükdə, SSRİ-nin süqutunun əleyhinə etiraz etməyərək qeyd etmək istərdik ki, digər respublikalar ilə razılaşdırılmadan federativ dövlətin ləğvi barədə qərarın qəbul edilməsi siyasi-etik cəhətdən slavyan ölkələrinin liderləri tərəfindən, yumşaq desək, layiqli addım deyildi.

Sonra nə baş verdi? Gözləmək olardı ki, ümumi tarix, dil və mədəniyyət yaxınlığı həmin slavyan ölkələrinin siyasi və iqtisadi inteqrasiyasını sürətləndirəcək. Lakin, bu gözləntilər özünü doğrultmadı. Rusiya–Belarus cütlüyü yaxşı-pis işləsə də, Ukrayna tamamilə başqa yolla getdi.

Özünün “xüsusi Avroasiya missiyası daşıdığını” düşünən Moskvadan fərqli olaraq, Kiyevin heç bir imperiya ambisiyaları yoxdur, o, öz üzərinə qlobal güc yükü də götürməyib və Şərqi Avropadakı digər keçmiş sosialist ölkələri kimi, sadəcə sivil və demokratik Avropa ölkəsi olmağı arzulayır.

2003-cü ildə Ukraynanın ikinci prezidenti Leonid Kuçma “Ukrayna Rusiya deyil” adlı kitab nəşr etdirib. Orada açıq mətnlə yazılır ki, “rus adamı çoxdan öz tarixi tərəfindən yaradılıb, onun milli identikliyini itirərək qeyri-rus ola bilməsi üçün təhlükə yoxdur. Bizim isə gündəliyimizdə duran əsas vəzifə ukraynalını yaratmaqdır. Milyonlarla ukraynalı üçün öz ukraynalılığına qayıtmamaq təhlükəsi var!”.

Ukrayna Cənub-Şərqi Avropa ölkəsidir, Rusiya ilə dil və tarixi baxımdan yaxın olsa da, özünün böyük qonşusundan fərqli olaraq, Avroasiya məkanında “pravoslavların xilaskarı” ruhu daşımır və belə bir iddiası da yoxdur.

Ukraynada kifayət qədər mürəkkəb daxili geosiyasi konstruksiya formalaşıb. Kiyev Qərbi, Şərqi və Cənubi Ukraynanın maraqlar balansını gözləyərək ölkənin stabil funksiyalılığını təmin etməlidir. Burada əsas problem göstərilən ərazilərin siyasi oriyentasiyasının fərqli olmalarıdır. Əgər Qərbi Ukrayna daha çox Polşa və Macarıstana meyl göstərirsə, ölkənin şərqi Rusiyaya meyillidir. Cənub isə Qaradəniz regionunda hansısa bir şəkildə muxtar hüquqlara sahib olmaq niyyətindədir.

Ukrayna özünün coğrafi mövqeyinə görə unikal bir dövlətdir. Onun azad, müstəqil dövlət olaraq təşəkkül tapması bazar iqtisadiyyatına keçid ilə üst-üstə düşüb. Ölkə iqtisadiyyatının şərq (Rusiya) vektoru tədricən dağılıb, bunun əvəzinə qərb istiqamətinin güclənməsi baş verib. Lakin qərb ilə də hərtərəfli əlaqələr arzuolunan səviyyəyə yüksəlməyib.

Adətən, əksər dövlətlərdə separatçılıq meyilləri milli-etnik zəmində baş verir, amma Ukraynada buna etnik-mədəni fərqlilik səbəb olub. Ukrayna millətinin sosio-mədəni qütbləşməsi cəmiyyətin nə Qərbi Avropanın, nə də Rusiyanın mədəni-tarixi ənənələri üzərində konsolidə olunmasına şərait yaradır.

Ukrayna dövlətinin formalaşmasının xronologiyası kifayət qədər maraqlıdır. Belə ki, 1919-cu ilin martında Sovet Ukraynasında proletar zümrəsini artırmaq üçün Donbas RSFSR-in tərkibindən çıxarılaraq Ukraynaya verilib.

1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında məşhur Ribbentrop-Molotov paktı imzalanıb. Gizli protokollara əsasən, Polşanın şərqi əraziləri Sovet İttifaqının idarəçiliyinə verilib və Qərbi Ukrayna adlandırılan bu torpaqlar 1939-cu ilin 14 sentyabrından indiki Ukraynanın bir hissəsi oldu. 1940-cı ildə Rumıniya ərazisi sayılan Şimali Bukovina, 1945-ci ilin iyununda isə Macarıstanın Zakarpatye vilayəti Ukraynaya birləşdirilib. Nəhayət, 1956-cı il aprelin 26-da Krım Rusiya Federasiyasından alınaraq Ukraynaya verilib.

Əlbəttə, bu qədər kəskin mental fərqlilliyini nəzərə alsaq, sovet Ukraynasında əhali kontingenti arasında mənəvi birliyin nə üçün yaranmadığının səbəbini başa düşmək olar. Ölkənin bir çox regionlarını müstəqillik ideyası heç vaxt tərk etmirdi və bu, Rusiya Federasiyasında daim qıcıq yaradırdı.

Günahkar kimdir: Qərb, Rusiya, yaxud Ukrayna? Beynəlxalq hüquq müstəvisində Rusiya günahkar sayıla bilər, lakin məsələyə bütün tərəflərin mövqelərindən yanaşsaq, bu suala birmənalı cavab tapmaq çətindir. Burada hamının günahı var, barışıq modeli tapmaq olardı, görünür, bunu istəmədilər.

**P.S.** Bu gün Ukrayna torpağında tərəflər arasında ağır müharibə gedir. Ölkənin, demək olar ki, bütün əhalisi Vətən torpaqlarının müdafiəsinə qalxıb. Görünən budur ki, Ukraynada sosio-mədəni qütbləşmənin yerini milli birlik və həmrəylik əvəz edib. Bu proses daimi olacaqmı? Hər şey müharibənin nəticələrindən asılıdır!

***Çapa hazırladı:***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

# Qonşu ölkələr Sudanı sülhə çağırdı

**Sudan Dövlət Şurasının sədri, general Əbdülfəttah əl-Burhan bəyan edib ki, Afrika Regional Birliyi (İQAD) tərəfindən ölkədəki böhranın nizamlanması ilə bağlı irəli sürülmüş təşəbbüsü bəyənir. Məlumatı “Anadolu” verib.**



Sudan ordusundan verilən məlumata görə, əl-Burhan təşkilata üzv dövlətlərin başçıları ilə virtual görüşündə Cənubi Sudanın, Keniyanın və Cibutinin rəhbərlərindən xahiş edib ki, yaranmış münaqişənin nizamlanması üzrə təklif hazırlasınlar. Dünən o, həmin təklifləri alıb.

Təkliflərdə hazırda davam edən atəşkəs rejiminin daha 72 saat müddətinə uzadılması, eləcə də ölkənin Silahlı Qüvvələri və qiyamçıların nümayəndələrinin detalları müzakirə etmək üçün Cənubi Sudanın paytaxtı Cubaya göndərilməsi nəzərdə tutulur.

Əl-Burhan özü də bildirib ki, irəli sürülmüş təşəbbüsü bəyənir. O, eyni zamanda İQAD nümayəndələrinə Sudandakı vəziyyətin nizamlanması üzrə göstərdikləri səylərə görə təşəkkür edib.

Qeyd edək ki, Sudanın Silahlı Qüvvələri və Çevik Reaksiya Qüvvələri (xüsusi təyinatlılar) arasında hərbi toqquşma aprelin 15-dən başlayıb. Ölkədə həyata keçirilməsi nəzərdə tutulan islahatlar çərçivəsində xüsusi təyinatlıların Silahlı Qüvvələrin tərkibinə daxil edilməsi ilə bağlı təklif iki qurum arasında ağır toqquşmalara səbəb olub.

Ordunun baş komandanı Əbdülfəttah əl-Burhan Çevik Reaksiya Qüvvələrini buraxdığını və onun üzvlərini qiyamçı elan etdiyini bildirib.

Bir neçə gün bundan əvvəl isə ABŞ-ın dövlət katibi Entoni Blinkenin tərəflərlə uzun-uzadı danışıqlar aparmasından sonra ölkədə 72 saat müddətinə atəşkəs elan olunması ilə bağlı razılaşma əldə edilib.

Ümumdünya Səhiyyə Təşkilatı isə paytaxt Xartumda və digər şəhərlərdə baş vermiş hərbi toqquşmalar nəticəsində 459 nəfərin öldüyü və 4 min 72 nəfərin yaralandığı barədə məlumat yayıb.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***



# Yaponiyanın əhalisi azalır

**Yaponiya Səhiyyə Nazirliyinin Əhali və Təhlükəsizlik Tədqiqatları İnstitutunun hazırladığı proqnozlara görə, 2070-ci ilədək ölkə əhalisinin sayı 30 faiz azalaraq, 87 milyon nəfərə düşəcək. Məlumatı “İzvestiya. ru” yayıb.**

Məlumata görə, 2070-ci ilədək ölkədə yaşı 65-dən yuxarı olanların sayı 33 milyonu ötərək əhalinin 38 faizini təşkil edəcək ki, bu da sosial təminat xərclərinin kəskin artmasına səbəb olacaq.

İnstitutun proqnozlarına görə, Yaponiyada qadınların doğum əmsalının 2070-ci ildə nisbətən artaraq 1,33-ə çatmaq ehtimalına baxmayaraq, bu rəqəm əhalinin sayının sabit saxlanılması üçün həlledici hesab edilən əmsaldan (2,07) aşağı olacaq. Yeni doğulanların sayı 2043-cü ildə 700 minə, 2070-ci ildə isə 500 minə düşəcək.

Əsas vergi ödəyicisi olan əməkqabiliyyətli əhalinin (15-64 yaş) sayında da ciddi azalma olacağı gözlənilir. Proqnozlar əməkqabiliyyətli əhalinin sayının hazırki 75 milyon nəfərdən 2070-ci ilədək 45 milyona enəcəyini göstərir. Həmin vaxta 14 yaşadək olanların sayı təxminən 2 dəfə azalacaq, əhalinin orta yaşı isə 54-ə yüksələcək.

***“Xalq qəzeti”***

# 277 mindən çox türk xaricdə səs verəcək

**Xarici ölkələrdə yaşayan Türkiyə vətəndaşları artıq ölkədə mayın 14-də keçiriləcək prezident və parlament seçkisində səsvermə prosesinə start veriblər. Səsvermə artıq sərhəd məntəqələrində də başlayıb. Məlumatı TRT verib.**

Məlumata görə, dünyanın 75 ölkəsində 156 seçki məntəqəsi açılıb. Məntəqələr Türkiyənin həmin ölkələrdəki diplomatik nümayəndəliklərində yerləşir.

“Ölkənin sərhəd-keçid məntəqələrində, quru keçid məntəqələrində, hava limanlarında və dəniz limanlarında xaricə gedənlərin iradəsini ifadə etməsi üçün 4,6 min məntəqə yaradılıb. Ümumilikdə, Türkiyədən kənarda 3,6 milyondan çox vətəndaş səs verə bilər. Xaricdə və sərhəd-keçid məntəqələrində səsvermə proseduru mayın 9-dək davam edəcək, bundan sonra bütün bülletenlər hesablanaraq MSK-ya göndəriləcək. Seçki məntəqələri 24 saat açıq olacaq. Hazırkı seçkidə ilk dəfə olaraq 277 mindən çox türk xarici ölkələrdə səs verə biləcək”, – deyə məlumatda qeyd edilir.

***“Xalq qəzeti”***

# Kliniki Tibbi Mərkəzin “Xalq qəzeti”nə cavabı ilə bağlı sözardı

## ...Razılaşırıq, amma razı qalmırıq

**“Xalq qəzeti”nin 28 mart 2023-cü il tarixli sayında dərc olunmuş “Kliniki Tibbi Mərkəzdə xidmət və ya havayı pendir ancaq tələdə olur” sərlövhəli yazı ilə bağlı Kliniki Tibbi Mərkəz Publik Hüquqi Şəxsin (“Semaşko” kimi tanıdığımız) rəhbərliyi tərəfindən redaksiyamıza məktub daxil olub və məktuba əlavədə yazımızda göstərilən xüsuslarla əlaqədar müvafiq izahat işləri aparılıb. Əlbəttə, mərkəzin qəzet məqaləsinə belə həssas münasibətini təqdir edir, alqışlayırıq. Amma onu deməliyik ki, ümumən, cavabda göstərilənləri yazımızda vurğulanmış məsələlərə aydınlıq gətirmək istəyi kimi saymır və buna görə KTM-in mövqeyini olduğu kimi yayımlamırıq.**



İlk məqama keçid alaq. Bəli, yazımızda texniki yanlışlıq olub və bunu qəbul edirik. Müəllif yazıda martın 18-də götürülmüş laborator analizin cavabının martın 25-də hazır olmasına diqqət çəkmək istəyib. Mərkəz isə cavabında bildirib ki, “laborator analizlərin martın 19-da götürülüb 25-də cavab verilməsi fikri həqiqəti əks etdirmir”, çünki analizlərin cavabını “e-TABİB” mobil tətbiqi vasitəsilə, yaxud da its.gov.az, tabib.gov.az internet səhifələrinə daxil olmaqla, elektron qaydada izləmək mümkündür.

Açığı, belə bir prosedurun həyata keçirilməsinə çox sevindik. Çünki “pulsuz həkim” növbəsinə dayanmış şəxslərin əksəriyyəti (yazımızın ərsəyə gəlməsi məhz o növbə səbəbindəndir – red.) mövcud prosedurdan xəbərdar deyillər. Ancaq onların içərisində cavabların özlərinin fərdi elektron emailinə göndərilməsini arzulayanlar var idi. Gördüyümüz qədərilə, bu yenilik KTM-ə hələ gəlməyib. Arzu edirik ki, tezliklə gəlsin. Onu da nəzərə alaq ki, elektron yeniliklərdən tam xəbərsiz olan vətəndaşlarımız var. Yazıda təsvir etdiyimiz növbədə isə belələri daha çox idi.

Biz çalışırıq ki, ölkədə vətəndaşların sığortası əsasında onlara göstərilən tibbi xidmətin durumu daha da yaxşılaşsın. Buna görə istərdik ki, vətəndaşlara bayram günlərində də növbəlilik əsasında xidmət göstərilsin. Axı tənqidi yazımızda da sağlamlığın gözləmədiyini bildirmişik. KTM-in cavabından isə məlum olur ki, sağlamlıq da “bayram etməlidir”. Bu halda analiz cavabının gün fərqi ilə mobil tətbiqə, fərdi emailə, yaxud da telefona göndərilməsinin heç bir əhəmiyyəti yoxdur. Çünki indiki halda martın 18-də vətəndaşı analiz üçün göndərən həkim işə martın 25-də çıxır. Digər tərəfdən, gördüyümüz sıxlıq və növbə idi ki, o növbədə insanların əsəbləri tarıma çəkilir, xoşagəlməz ifadələr işlədilirdi və yekun nəticədə bu, ölkəmizdə tibbi sığorta sahəsindəki xidmətlə bağlı mənfi təəssürat yaradırdı. Arzumuz budur ki, həmin təəssürat aradan qalxsın.

KTM xəstəxanaya müraciətlə bağlı sıxlığın olduğunu inkar etmirsə, bunun xəstəliyi ucbatından canını götürüb ora gələn vətəndaşa nə dəxli var? Mərkəz sıxlıq statistikasını bizə deyil, aid olduğu quruma göndərməlidir ki, müvafiq həll variantları tapılsın. Burada sıxlığın rayondan gələn pasientlərin hesabına artdığının bildirilməsinin də mənası yoxdur. Pasientləri TƏBİB-in struktur dəyişikliyi, İTS tətbiqinin çətinliyi az maraqlandırır. İndiki halda KTM sıxlığı aradan qaldırmağı düşünməlidir. Bunun tək yolu isə qeydiyyatçıların sayını artırmaq və onların işinə ciddi nəzarətdir ki, bunu da mərkəz etməyib.

Martın 28-də gedən yazımızda bildirmişdik ki, ASAN xidmətdə, elə qapıdaca, vətəndaşlara yaxınlaşıb onları müvafiq sahələr üzrə yönləndirirlər. KTM-də isə bildirilib ki, “vətəndaşın məlumatsızlığına xəstəxana məsuliyyət daşımır”. Mərkəz rəhbərliyi onu da deyir (bizə cavabında yazır – red.) ki, müvafiq lövhələr vurublar, gələnlər zəhmət çəkib baxsınlar. Hörmətli KTM rəhbərliyi, vətəndaşın məlumatsızlığına yox, məlumatsızlığının doğurduğu duruma görə məsuliyyəti, məhz, siz daşıyırsınız. ASAN xidməti bir kənara qoyaq, deyə bilərsiniz ki, icbari tibbi sığortaya yeni keçilib, axı yeni yaradılmış DOST mərkəzləri var, onlarda da vətəndaşlarla fərdi təmas qurulur.

Necə ola bilir ki, Kardioloji xəstəxanada, ET Mamalıq və Ginekologiya institutunda bu tibb müəssisələrinə üz tutanlara, onlardan nə üçün gəldikləri soruşula, vətəndaşlar müvafiq qaydada yönləndirilə bilir, KTM-də bunu etmək kimsənin yadına düşmür?..

Hörmətli KTM rəhbərliyi, cavabınızda xəstənin analizlərin nəticələrini elektron qaydada öyrənmək yollarını sadalamaqla yanaşı, onu da bildirirsiniz ki, həkim öz qarşısındakı komputerlə xəstəsini göndərdiyi analizin cavablarına baxmaq imkanındadır. Əgər həkim xəstənin qan analizlərinin cavabları ilə komputerlə tanış ola bilirsə, o zaman nəyə görə xəstə analiz cavablarını özü gedib götürməlidir? Deyirsiniz ki, analiz vermək üçün ayrıca qeydiyyat məntəqəsi təşkil etmisiniz. Bəlkə bunu edirsiniz, amma həmin an aləm qarışmışdı bir-birinə.

Yazımızda göstərmişik ki, printerin katrici işləmədiyindən, xəstələrə cavablar kağızda verilmirdi. Deyirsiniz ki, kağız daşıyıcılardan imtina edirsiniz. Beləmi imtina edirsiniz? Elektron xidmətə keçmək vətəndaşın mobil telefonu ilə komputerin ekranından analiz cavabının çəkilməsidirmi? Elə buradan da görünür ki, həkimin qarşısında komputer yoxdur, diqqətə çatdırdığınız xidmət işləmir.

Yenə də bildirək ki, başlıca məsələ vətəndaşların “pulsuz həkim” kimi qiymətləndirdikləri sığortalı tibb xidmətinin qurulmasına yanaşmadır. İndi tənqid obyektimiz KTM-dirsə, sabah bir başqa tibb müəssisəsi də ola bilər. Əlbəttə, müsbət tərəfləri də qeyd etməliyik. İnsanlar hazırda, əvvəllər maddi baxımdan müşkil saydıqları, bir sıra cərrahiyyə əməliyyatlarını sığorta hesabına gerçəkləşdirib sağlamlıqlarına qovuşa bilirlər. Ancaq çatışmazlıqları, özü də gözlə gördüyümüz problem və çətinlikləri vurğulamalıyıq ki, vəziyyət daha da yaxşılaşsın. Yazıb agah etməliyik ki, KTM bizə cavabında özünü təmizə çıxarmaq yolu tutmasın, “çox təəssüf ki, vətəndaş bu məntəqəni görməyib” tipli arqumentlər gətirməsin. Nəzərə alaq ki, məsələ, böyük ölçüdə, vətəndaşın nəyisə görüb-görməməsində deyil. Vətəndaş görməyə bilər. Ona anlatmaq lazımdır.

KTM “Xalq qəzeti”nə cavabında bildirir ki, “dərc olunan yazıda növbədə duran hər hansı bir xəstənin halının pis olduğu, növbədə dayana bilmədiyi qeyd olunub. Bildiririk ki, poliklinik müraciət səhhətində heç bir kənar hal olmayan, təcili və təxirəsalınmaz yardımın göstərilməsinə ehtiyac olmayan xəstələr üçün nəzərdə tutulub”. İndi isə 28 mart tarixli yazımızdakı müvafiq hissəni xatırladaq: “Elə bu an iki nəfər gəlir və onlardan biri öz yanındakını göstərərək onun durumunun pis olduğunu, növbədə dayana bilməyəcəyini bildirir. Təbii, həmin şəxsin dedikləri hər hansı əhəmiyyət daşımır. Heç kəs növbəyə kənar müdaxiləni istəmir. Elə bu an dövriyyəyə insanlıq məsələləri girir: müsəlmanıq, yezid deyilik, erməni bizdən yaxşıdır, xəstə adamdır, dayana bilmir, filan. Təsəvvür edirsinizmi ittihamın miqyasını? Həssas nöqtələrə aramsız mənəvi yaylım atəşləri açılır. Sanki, ora gələnlər sağlamlardır...”.

Yəqin, müqayisə apara bildiniz. KTM xəstələri, belə demək mümkünsə, kateqoriyalara bölürsə, öz işidir. Yəni, mümkündür ki, təcili və təxirəsalınmaz tibbi xidmətə ehtiyac duyanlar və duymayanlar olsun. Amma yazımızda qeyd etdiyimiz xüsus başqadır, KTM isə cavabında tamam başqa məsələni gündəmə gətirir. Biz deməmişik ki, növbədə kiminsə vəziyyəti pisləşdi. Sadəcə, vətəndaşın növbədə irəli düşmək üçün gətirdiyi arqumenti (bəlkə də yalan danışır. Önəmli deyil) vurğulamışıq. O arqumenti ki, orada olan digərləri tərəfindən (görünür, yalan kimi qiymətləndirildiyindən) qəbul edilmədi və nəticədə insanlar bir-birinə qarşı xoş olmayan fikirlər səsləndirdilər. Sözümüz ondadır ki, tibbi xidmət düzgün təşkil olunsaydı, belə hal yaşanmazdı.

KTM-in cavabındakı bir məqama diqqət yetirək: “Əlavə olaraq qeyd etmək istəyirik ki, qeydiyyatçılar mütəmadi olaraq etik davranış qaydaları ilə bağlı təlimatlandırılır. Ancaq vətəndaşlar tərəfindən növbədənkənar keçmək cəhdləri, şəxsiyyət vəsiqələrinin göstərilməməsi, başqa şəxsin şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçmək istəyi və s. kimi hallar baş verir. Bəzən qeydiyyatçılar təhqir olunur və alçaldılır”.

Hörmətli KTM rəhbərliyi özü də fərqinə varmadan xəstəxanadakı acınacaqlı durumu açıqlığa çıxarır. Təəssürat yaranır ki, belə xoşagəlməzliklər tendensiya halını alıb. Günahkar vətəndaşlardır? Qeydiyyatçı niyə təhqir olunmalıdır? Biz ASAN xidmət sahəsində hansısa işçinin təhqir olunduğunu eşitməmişik, görməmişik.

Qeyd edək ki, KTM-nin cavabında tənqidi yazımıza düzgün nəzər salınmamasını təsdiqləyən başqa bir məqam da var. Məsələn, biz ümumən ölkəmizdə sığortalı tibb xidmətindəki problemlərə nəzərən bildirmişik ki, “Goranboy Rayon Mərkəzi Xəstəxanasında növbəyə durmuş bir vətəndaşımız deyir ki, səhər saat 11 olan kimi ona xəstə qəbulunun dayandırıldığını bildiriblər. Söhbət pulsuz xəstə qəbulundan gedir”.

KTM bu fikrimizə münasibətini açıqlayıb. Əlbəttə, mərkəzin münasibətini nöqsan saymırıq. Hesab edək ki, oxucularımız da, biz də maariflənirik. Maariflənirik və artıq bilirik ki, “həkim özünün iş saatı müddətində maksimum 25-30 xəstəyə baxa bilər. Əgər saat 11-ə qədər qeydiyyatda bu say dolarsa, təcili hal olmadığı müddətdə xəstənin növbəti gün müraciət etməsi təklif olunur”.

Açığı, normalda həkimin gün ərzində 25-30 xəstəyə baxmasını da düzgün saymırıq. Görünür, həm də həkim yetərincə olmadığından, suallar yaranır: xəstə çoxdursa necə? Axı çoxdur və çoxdur ki, növbə də formalaşır. Xəstə nə üçün səhəri gün gəlməlidir? Təcili hal kriteriyası necə müəyyənləşdirilir? İndiki halda belə müəyyənləşdirmə nə dərəcədə lazımdır? Xəstə gəlibsə, xidmət göstərilməsi, işin sabaha saxlanılmaması daha faydalı olmazmı? Əvvəlki yazımızda bunları bildirməmişdik. Bildirməməli idik?! Belə də davam etsin, eləmi?!

KTM rəhbərliyi “Xalq qəzeti”nə cavabında özünün qüsursuz olduğunu və ya heç bir çatışmazlığının olmadığını demək istəmədiyini yazır. Biz də bəyan edirik ki, KTM-ə qarşı qərəzimiz yoxdur. Tibb müəssisəsinin cavabını oxuyanda sevindik ki, orada son illərdə təcili yardım şöbəsi ilə yanaşı, beş şöbə də açılıb. Bunların içərisində, hətta, dövlət tibb müəssisələrində ilk olan Torokal cərrahiyyə şöbəsi də var.

Ancaq biz yazımızda bildiməmişik ki, KTM-də müayinə avadanlıqları lazımi səviyyədə deyil. Halbuki mərkəz bunu da qəzetimizə nöqsan kimi qiymətləndirib. Əvvəlki yazımızdakı sitatı təqdim edirik: “Ümumiləşdirmə apararaq deyək ki, söylədiklərimiz icbari tibbi sığorta sahəsindəki problemlərin çox kiçik bir hissəsidir. Məsələn, ondan danışa bilərdik ki, vətəndaşlara pulsuz tibbi xidmət göstərən xəstəxanalarda müayinə avadanlıqları lazımi səviyyədə deyil, onların bəziləri, ümumiyyətlə, yoxdur və insanlarımız məcbur qalıb özəl tibb müəssisələrinə üz tutmalı, pul xərcləməli olurlar”.

Sonda onu da deyək ki, KTM “Xalq qəzeti”nə cavabında çatışmazlıq və nöqsanların ictimai nəzarət, aparılan monitorinqlərlə təsbit edildiyini, aradan qaldırmaq üçün lazımi tədbirlərin görüldüyünü vurğulayıb. Çox gözəl. Bu yerdə diqqətə çatdıraq ki, qəzet fəaliyyəti də ictimai nəzarətdir və KTM-də gördüklərimizə əsasən qeydə alınıb. Biz obyektiv tənqid eləmişik və bundan sonra da edəcəyik. Mərkəz isə görünür, fakt dedikdə qeydiyyat şöbəsindən aldığımız qəbzi, yaxud analizin cavabını, xəstənin adını, soyadını dərc etməyimizi istəyib. Təəssüf ki, bunu edə bilmərik, çünki etik çərçivəyə sığmır. Ancaq KTM lazım bilsə, onun rəhbərliyi ilə birgə bunun və digər gördüklərimizin açıq müzakirəsini keçirə bilərik. O zaman tibb müəssisəsinin rəhbərliyinə tam agah olacaq ki, söylədiklərimizi havadan götürməmişik.

Bəli, bilirik ki, mediada yayınlanan həqiqətə uyğun olmayan məlumatlar barədə qarşı tərəfin verdiyi təkzib media subyektində dərc olunmalıdır. Yaxşı olar ki, KTM bunu bizə öyrətmək fikrindən daşınsın. Mərkəzin rəhbərliyinə xoş olması üçün onu da deyə bilərik ki, onlarda olduğu kimi, bizim də fəaliyyətimizdə çatışmazlıqlar var. Bunu lap əvvəldə diqqətə çatdırdıq və texniki yanlışlıq iradı ilə razılaşdığımızı yazdıq. Ancaq heç kəs unutmasın ki, biz öz işimizi yaxşı bilənlərdənik.

***“Xalq qəzeti”***

**Məşhur fransız alimi Lui Pasterin belə bir aforizmi var: “Elmin Vətəni yoxdur, lakin alimin Vətəni olmalıdır”. Füzuli rayonunda dünyaya göz açan Hətəm Quliyev ADU-nun (BDU) mexanika-riyaziyyat fakültəsini bitirmişdir. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda könül verdiyi geologiya və geofizika elminin sirlərinə mükəmməl yiyələnmişdir. Elmi fəaliyyətini bir müddət Kiyev şəhərində davam etdirəndən sonra ötən əsrin 80-ci illərində akademik Midhət Abbasovun dəvəti ilə Vətənə qayıtmışdır. Elmi fəaliyyətini AMEA-nın Dərin Neft Quyuları İnstitutunda çalışarkən dünyanın əksər ölkələrində elmi məruzələrlə çıxışlar etmişdir. Hətəm müəllim həm respublikamızın, həm də xarici ölkələrin nüfuzlu elmi qurumlarında təmsil olunmuşdur.**

# Enməzlik qübbəsinin sakini...

## *Akademik Hətəm Quliyevi xatırlayarkən*



Akademik Hətəm Quliyevin üzərində yaşayıb, yaratdığımız yer kürəsinin və kainatın geofizik strukturlarının proqnozlaşdırılması, qanunauyğunluqların aşkarlanması sahəsində xüsusi xidmətləri olmuşdur. Vaxtilə onun elmi naliyyətləri haqqında Ukrayna Elmlər Akademiyasının Geofizika İnstitutunun direktoru, akademik B.Starostenko, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, həmin akademiyanın Geosferlərin Geodinamikası İnstitutunun elmi rəhbəri B.Aduşkin, Norveçin Bergen Universitetinin geofizika üzrə fəxri professoru Karsten M.Stortbedet, Beynəlxalq Geofizika Cəmiyyətinin prezidenti, BP şirkətinin baş geofiziki Leon Tomsen və başqa dünyaşöhrətli elm xadimləri və mütəxəssisləri dəyərli fikir söyləmişlər.

Hətəm müəllimin adının mənası“qanun verən, qət edən, əliaçıq, səxavətli” deməkdir. O, ilk dəfə ümumdünya geofizika nəzəriyyələr sisteminin yenillənmiş modellərinin xətti xüsusiyyətlərini ixtira etmiş dahi şəxsiyyət, görkəmli elm xadimi olduğu qədər də dərin ədəbiyyat, incəsənət, musiqi, folklor bilicisi idi. Haqqında yazılan xatirələrdən görünür ki, Hətəm müəllim zamanında heç vaxt insanlardan öz isti, doğma münasibətini, səxavətini əsirgəməyib, hər zaman onların qeydinə qalıb. Qələm dostum, şair-publisist Əbülfət Mədətoğlu “İç dünyamın adamları” kitabında yazır: “…Hətəm müəllim kimi insanları Allah doğulduğu elə, obaya, yurda, məmləkətə böyük sevgiylə hədiyyə edir. Onların timsalında həmin el-obaya, məmləkətə, millətə sayğısını büruzə verir. Hətəm müəllim kimi insanlar dünyanın dayanıqlığını, tarazlığını qorumaq üçün doğulanlar sırasında da yer tutmağa haqq ediblər...”

Əməkdar jurnalist Əflatun Amaşovun təbirincə desək, Hətəm müəllim həm də “Göylərin alimi” idi. Onun düşüncəsi, yanaşması, baxışı son dərəcə fərqliydi. O, hər bir yaşanmış hadisəyə ailə, iş yeri, ölkə, Yer kürəsi, Günəş sistemi, milyonlarla qalaktikalar prizmasından deyil, daha geniş baxırdı. Çünki o, varlıqla yoxluğun, sonsuzluğun astanasınadək gedib çıxmışdı. Sonsuzluq divarının o tərəfindəki paralel dünyada da nələrin baş verəcəyi barədə elmi mühakimə yürüdə bilmək zənginliyinə malik idi...

İxtisasca jurnalist olan ömür-gün yoldaşı Kəmalə xanım Hətəm müəllim barədə yazır: “O, inadkar, mərd idi. Möhkəm iradə sahibi idi. Qərar verməkdə tələsməzdi. İnsanları sevirdi. Qohumluqda, yoldaşlıqda sədaqətliliyi ilə fərqlənirdi. Etibarlı dostları vardı. Bir sözlə, sözün əsil mənasında, mükəmməl idi. Zamanın gətirdiyi sel özülündən zərrə qədər də olsun qopara bilməmişdi. Dünyaya vergi idi, dünya onu saxlaya bilmədi, itirdi!”

Əməkdar elm xadimi, akademik Hətəm Quliyev 2021-ci il aprelin 21-də haqqın dərgahına qovuşub. Allah rəhmət eləsin!

***Nurəddin ƏDİLOĞLU,***
***yazıçı-jurnalist***

# Futbol üzrə Azərbaycan kubokunda ikinci finalçı da müəyyənləşdi



**Futbol üzrə Azərbaycan kuboku yarışlarında ikinci finalçı da müəyyənləşib. Dünən turnirin yarımfinal mərhələsinin cavab oyunları çərçivəsində “Səbail” klubu “Qəbələ”ni qəbul edib.**

“ASCO Arena”da keçirilən görüş “Qəbələ”nin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda yeganə qolu 11 metrlik cərimə zərbəsindən qonaqların futbolçusu İsnik Alimi vurub.

Xatırladaq ki, komandalar arasında keçirilmiş ilk matçda “Qəbələ” klubu 3:2 hesablı əzmkar qələbə qazanmışdı.

Qeyd edək ki, bundan əvvəl “Neftçi” komandası ölkə kubokunda finala adlayan ilk komanda olmuşdu.

***Elçin ABBASOV,***
***“Xalq qəzeti”***

# 500 milyon insan Bakı yarışını izləyir

**Bakı 500 milyonluq auditoriyası olan möhtəşəm Formula 1 yarışlarına tam hazırdır.**



Bu sözləri "Xalq qəzeti"nə müsahibəsində Formula 1 Azərbaycan Qran–Prisinin mətbuat katibi Turab Teymurov bildirdi. O qeyd etdi ki, hazırlıq işləri uğurla tamamlanıb, trek, tribunalar tam hazırdır. Builki Formula 1 yarışlarında 3 rekorda imza atılıb. Bütün tribunalara biletlərin satılması böyük nailiyyətdir. Yarışı rekord sayda – dünyanın 100-dən çox fərqli ölkəsindən azarkeş canlı izləyəcək. Əcnəbi sayına görə də rekord əldə edilib. Bundan başqa, mövsümün ilk sprint yarışının Bakıda keçirilməsini xüsusi qeyd etməliyəm. Bu, Formula 1 fanatları üçün yenilikdir.



Formula 1 Azərbaycan Qran–Prisinin keçirilməsində marşal və könüllülərin hazırlığı mühüm əhəmiyyət kəsb edir. Ötən yarışlarda olduğu kimi, bu dəfə də həm marşal, həm də könüllülərin bacarıq və təcrübələrinin artırılması məqsədilə ciddi təlim proqramlarından keçiblər. Təlimlərdə əsas məqsəd yarışların təşkili istiqamətində vacib bilik və bacarıqların aşılanması, eyni zamanda öz fəaliyyətləri çərçivəsində çevikliyin və peşəkarlığın artırılmasıdır. Yarış müddətində 1471 marşal iştirak edəcək. BŞH Akademiyasının könüllüləri bu il də bütün əməliyyatlara cəlb olunacaqlar. Budəfəki yarışlarda 1500 nəfər könüllü kimi çalışacaq.

Yerli və əcnəbi media nümayəndələri üçün Media Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə jurnalistlər və fotoqraflar üçün hər cür şərait yaradılıb. Onların yürüşləri izləməsi üçün xüsusi monitorlar quraşdırılıb. Eyni zamanda fotoqrafların çəkiliş məkanlara çatdırılması üçün bütün imkanlar var.

Bu il ötən illərdən fərqli olaraq BŞH-yə daxil olan bəzi yollar avtomobillərin rahat hərəkətini təmin etmək üçün açıq olacaq. Yarışlar zamanı şəhər sakinləri trekə daxil olan ərazilərdə yeraltı keçidlərdən maneəsiz istifadə edə biləcəklər. Eyni zamanda piyadalar, həmçinin Azərbaycan prospekti ilə İstiqlaliyyət küçəsinin kəsişməsində, Xəqani və Rəşid Behbudov küçələrində, habelə halqanın ətrafında yerləşən Azadlıq prospekti ilə Xəqani küçəsində quraşdırılmış müvəqqəti yerüstü keçidlərdə sərbəst hərəkət edə biləcəklər. Bununla yanaşı, Rəşid Behbudov küçəsi ilə Neftçilər prospektinin kəsişməsində yerləşən yerüstü keçid də bu məqsəd üçün daimi əsasda quraşdırılıb.



Turab Teymurov qeyd etdi ki, Bakı yarışında hər il əyləncə proqramı əvvəlkindən daha maraqlı təşkil edilir. Bu ənənə bu il də davam edəcək. Belə ki, bu il də Dənizkənarı Milli Park ərazisində F-1 azarkeşləri üçün müxtəlif əyləncə proqramları baş tutacaq. BŞH sürət həvəskarlarının marağını və istəyini nəzərə alaraq yarış çərçivəsində baş tutacaq dünya ulduzları – niderlandlı sənətçilər DJ Don Diablo və DJ Hardvell konsertlərinə əlavə məhdud sayda ayaqüstü biletləri satışa çıxarıb. Bilet sahibləri, həm də fan zonaya giriş əldə edə biləcəklər.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

## Azərbaycan Qran-Prisi: 2023

**Dünyanın ən sürətli şəhər treki sayılan Bakı trası Formula-1 iştirakçılarının ixtiyarına verilib. Məşhur pilotlar üç gün ərzində üç təsnifat üzrə yarışacaqlar. Azərbaycan Qran Prisinin promouteri Bakı Şəhər Halqası Əməliyyat Şirkəti yarışın davam edəcəyi günlərdə paytaxtımıza təşrif buyurmuş turistlər, sürət azarkeşləri üçün hərtərəfli şəraitin yaradılmasının qayğısına qalıb.**



# Sürət cəngavərləri döyüşə başlayır




Bakının heç də asan trek olmadığını söyləyən Azərbaycan – 2022 Qran-Prisinin qalibi Maks Ferstappen mövsümün dördüncü mərhələsi ilə bağlı fikirlərini bölüşüb. "Red Bull"un dünyaca məşhur pilotu budəfəki yarışlara yeni ştrixin əlavə edildiyini deyir. 26 yaşlı niderlandlı pilot Azərbaycan Qran-Prisində mövsümün ilk sprint yarışının gerçəkləşəcəyini xatırladıb:

"Əslində bu, yarışı bir qədər xaotik edə bilər. Ona görə də ilk sərbəst yürüşdən əsas mərhələyə yaxşı başlamaq lazımdır. Nəticənin necə olacağını isə hamımız birlikdə görəcəyik".

Onu da qeyd edək ki, bu gün Formula 1 üzrə dünya çempionatı – Azərbaycan Qran-Prisi Bakıda start götürür. Möhtəşəm yarış aprelin 28, 29 və 30-da davam edəcək. Yeri gəlmişkən, 2023-cü ilin Formula-1 mövsümü növbəti ilkə imza atıb və 24 yarışla yadda qalacaq. Mövsümə 5 mart tarixində Bəhreyndə start verildi, noyabrın 26-sı isə ənənəyə sadiq qalaraq Əbu-Dabidə yekunlaşacaq. Builki təqvimdə Mayami və Ostinlə bərabər, ilk dəfə ABŞ-ın daha bir şəhəri – Las Veqas da yer alır. Qətər Qran-Prisi isə birillik fasilədən sonra Formula-1 təqviminə qayıdır.

**ARAYIŞ:** Formula 1 yarışları 1950-ci ildən keçirilir. Dünyanın ən prestijli avtoidman çempionatı sayılan Formula-1 həm də ilboyu davam edən ən məşhur idman seriyasıdır. Bu çempionat 4 qitəni əhatə edir və hər ölkədə 1 yarış olmaqla ümumilikdə 21 ölkədə keçirilirdi. Formula 1 Dünya Çempionatı Formula 1-in tərkib hissəsidir və bu çempionatla bağlı eksklüziv kommersiya hüquqları FİA Formula 1 Dünya Çempionatına məxsusdur.

*Hazırladı: İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*

# Formula 1 bolidi necə hazırlanır?

**Formula 1 üzrə ilk dünya çempionatı 1950-ci ildə keçirilmişdi. O zaman yarış avtomobili dizaynına görə sadə görünüşü vardı. Bu gün mühərrikinin gurultusu havanı yaran yarış avtomobillərinin dizaynında çox dəyişiklik müşahidə edilir. Bəs bolid adlandırılan yarış avtomobillərinin qiyməti nə qədərdir?**



Müasir Formula 1 avtomobili, təxminən, 15–16 min fərdi komponentdən ibarət mürəkkəb yüksək texnologiyalı məhsuldur. Onun elementlərinin hər birini inkişaf etdirmək üçün kompüter dəstəkli dizayndan (CAD), onların istehsalı üçün isə kompüter dəstəkli istehsalatdan (CAM) istifadə olunur. Əsasən, eyni avtomobillərdən istifadə edən Formula 2 kimi yarış seriyalarından və ya standart şassili Formula E-dən fərqli olaraq, hər Formula 1 komandası öz unikal avtomobilini yaradır.

Avtomobilin hazırlanması hər yeni mövsüm üçün komandalar tərəfindən həyata keçirilir. Struktur olaraq dəyişməz qalan adi istehsal avtomobil modelindən fərqli olaraq, Formula avtomobili yarışdan yarışa qədər daim təkmilləşdirilir.

Bəs bolidin hazırlanması nə vaxt başlayır? Formula 1 bolidinin hazırlanması düşündüyünüzdən daha çox vaxt aparırı. Ən yaxşı komandalar yeni yarış mövsümünün başlamasına bir ildən çox vaxt qalmış yeni avtomobillər üzərində işə başlayırlar. Məsələn, "Ferrari" komandası 2022 avtomobilinin yaradılmasına 2020-ci ilin son aylarında başlamışdı.

Proses mühəndislər və texnoloqlardan ibarət komandaların təkər bazasının ölçüsü və güc aqreqatının spesifikasiyası kimi əsas texniki parametrləri müəyyənləşdirməklə, eləcə də bu mövsüm sürdükləri avtomobil haqqında sürücü rəylərini nəzərdən keçirməklə başlayır. İlkin mərhələdə ayrıca bir komanda da işdə iştirak edir, müəyyən yeniliklərin (məsələn, aerodinamika və ya hibrid elektrik stansiyası baxımından) tətbiqini və maşının hazırlanmasına ümumi yanaşmaları qiymətləndirir.

Yeni mövsümün başlanğıcı yaxınlaşdıqca, komandanın diqqəti tədricən hazırkı layihənin yekunlaşdırılması və modernləşdirilməsindən yeni avtomobilin hazırlanmasına keçir – getdikcə daha çox konstruktor işçisi gələcək avtomobil üzərində işləməyə köklənir.

Ən mühafizəkar hesablamalara görə, müasir formula avtomobili hazırlamaq üçün 500–1000 nəfərdən ibarət komanda lazımdır. Hazırlama prosesi konstruktor bürosunda başlayır, burada istehsalat mühəndisləri yeni hissələrin mürəkkəb 3D çertyojlarını yaratmaq üçün kompüter dəstəkli dizayn (CAD) sistemlərindən istifadə edirlər (bir gündə yüzlərlə belə "qaralama" ola bilər).

Dizaynerlərin və konstruktorların müxtəlif alt qrupları gələcək avtomobilin müxtəlif texniki aspektləri ilə – transmissiya, elektronika, mexaniki komponentlər və aerodinamika, eləcə də kompozit hissələrin və konstruksiyaların istehsalı ilə məşğul olurlar. CAD istifadə edərək yaradılan komponentlərin modelləri və çertyojları kompüter dəstəkli istehsalat sistemi (CAM) üçün təlimatlara çevrilir.

Aerodinamika ən vacib sahələrdən biridir və komandalarda adətən 3–4 ayrı qrup olur ki, onların hər biri avtomobilin ətrafında hava axınının axını və paylanması, onun avtomobilin ayrı-ayrı hissələri ilə qarşılıqlı əlaqəsi ilə bağlı müxtəlif məsələlərlə məşğul olur. Onlar hava axınının istiqamətini təfərrüatlı şəkildə vizuallaşdırmağa və müəyyən komponentin gözlənilən nəticəni təmin edib-etmədiyini başa düşməyə imkan verən ideya və konsepsiyalar təklif edirlər. Əldə edilən məlumatlar daha sonra aerodinamik boruların sınaqları zamanı istifadə olunur. Qeyd etmək zəruridir ki, avtomobilin bütün komponentlərinin və hissələrinin təxminən 80 faizi kompozit materiallardan hazırlanır. Əsas material da karbon lifidir.

Bəs Formula 1 avtomobilinin qiyməti nə qədərdir? 2022-ci ildə komandanın xərcləri mövsümdə 140 milyon dollarla məhdudlaşdırılmışdı. 2023-cü ildə isə 135 milyon dollara düşdü. Bu məbləğ avtomobilin istismarı (inkişafı, modernləşdirilməsi, təmiri) üçün bütün xərcləri əhatə edir. Marketinq xərcləri, komandanın maaşları buraya daxil deyil. Üstəlik, inflyasiya və artan nəqliyyat xərclərinin nəzərə alsaq, bu il bəzi komandalar 145 milyon dollardan çox xərcləyə bilər.

Bolidin dəqiq qiymətini təxmin etmək mümkün deyil. Əksər ekspertlər razılaşırlar ki, istifadə olunan bütün komponentlər və hissələrlə birlikdə onun qiyməti 13 milyon dollardan 15 milyon dollara qədərdir. Hibrid güc aqreqatı ən bahalı hissədir və təxminən 7,5 milyon dollardır. Sadəcə bir turbomühərrikli V6 mühərriki, təxminən, 5 milyon dollara başa gəlir.

Dəyər baxımından daha sonra karbon lifli monokok və şassi gəlir ki, onların qiyməti 1,2 milyon dollardan çoxdur. Bu məbləğ, digər məsələlərlə yanaşı, mühəndislərin mümkün qədər yüngül və eyni zamanda mümkün qədər güclü olmasına çalışdığı şassinin tədqiqat və inkişafı xərcləri ilə bağlıdır. Ağır yüklərə tab gətirən sürət qutusu üçün, təxminən, 1 milyon dollar lazımdır. Yanacaq çəni, Halo sistemi, hidravlika, elektronika və 1000 dərəcəyə qədər istiyə tab gətirməli olan əyləc sistemi isə 3-4 milyon dollardır. Ön və arxa qanad dəstinin qiyməti 250 min dollara çata bilər. Nəhayət, bir çox düymələri, açarları və mürəkkəb elektron komponentləri ilə sükan çarxının qiyməti 50 min dollardan çoxdur.

Təkərlər nisbətən ucuzdur – hər dəst üçün, təxminən, 2000 dollar tələb olunur. Hər Qran-Pri zamanı komandanın 20 dəstdən istifadə etdiyini nəzərə alsaq, o zaman hər yarış həftəsonu üçün 40 min dollar lazımdır. Formula 1-də qəzalar nadir hal sayılmır, ona görə də komandalar avtomobillərin təmiri xərclərini də nəzərə almağa məcburdurlar.

*Hazırladı:*
*S.ELAY, "Xalq qəzeti"*

# Polşalı ailə Bakı trekindən sürprizlər gözləyir



**Formula 1 üzrə yeddinci Azərbaycan Qran-Prisinin başlaması ərəfəsində paytaxt küçələrində çox sayda əcnəbi turistlər diqqəti cəlb edirlər. Biz də şəhərə çıxıb onların fikirlərini öyrənməyə çalışdıq. İlk rastlaşdığımız şəhərimizin əcnəbi qonaqları Polşadan təşrif buyurmuş Madzuk ailəsi oldu.**

Onlarla Azərbaycan Qran-Prisi barədə söhbət etdik. Qonaqlar bildirdilər ki, Bakı treki yarışları dünyanın prestijli və populyar avtoidman növlərindəndir. Dünyada böyük maraqla izlənən Formula 1 yarışlarının Bakıda da uğurla keçirilməsi artıq dünyada bu idman növünü sevən, ona rəğbət bəsləyən azarkeş kütləsinin diqqətini cəlb edir. Öyrəndik ki, Bakı həyəcanını yaxından izləmək üçün Madzuk ailəsi şəhərimizə birgə gəlməyi qərara alıblar.

Ailənin başçısı Tomaş Madzuk dedi ki, həyəcan və gərginliklə dolu yarışı birgə izləmək barədə təklifi oğlum Filip irəli sürdü. İlk dəfədir ki, Bakı şəhərinə gəlmişik. Onu da qeyd edim ki, əvvəl oğlumun bu fikrinə qarşı çıxsaq da, sonradan Bakıya gəlməyə qərar verdik. Artıq şəhərlə və Bakı treki ilə tanış olmuşuq. Burada olarkən, dünyanın dörd bir yanından avtoidman həvəskarlarının Bakıya axışdığının şahidi olduq. Bu isə ev sahibinin qonaqpərvərliyinin və yarışa olan marağın göstəricisidir. Oğlumla mən "Red Bull" komandasının pilotu Maks Ferstappenə azarkeşlik edirik.

Ailənin böyük övladı Maya Madzuk isə bildirdi ki, Bakıda Formula 1 yarışlarını izləmək üçün şəhərə təşrif buyuran bütün qonaqlar üçün möhtəşəm ab-hava yaradılıb. Xüsusən, şəhərin tarixi abidələri daha çox diqqətimizi çəkdi. İçərişəhərdə olduq. Tarixlə müasirliyin qovuşduğu məkanla yaxından tanışlıq bizdə böyük təəssürat doğurdu. Mən "Alpin" komandasının pilotu Pyer Qasliya azarkeşlik edirəm.

Ailənin kiçik övladı Filip Madzuk dedi ki, Formula 1 üzrə dünya çempionatında mövsümün dördüncü mərhələsi olan Azərbaycan Qran-Prisi də olduqca maraqlı keçəcək. Çünki Azərbaycan Qran-Prisində mövsümün ilk sprint yarışı da gerçəkləşəcək. Yəqin ki, pilotlar ilk sərbəst yürüşdən sonra mərhələyə yaxşı başlamağı özləri üçün hədəf seçəcəklər. Yarışın necə alınacağını isə zaman göstərəcək. Mən Maks Ferstappenə azarkeşlik edirəm.

Xanım Maqda Madzuk isə ilk dəfə Bakıda olsalar da, şəhərimizdəki qonaqpərvərlikdən məmnun qaldıqlarını və özlərini evlərindəki kimi hiss etdiklərini dilə gətirdi. O, Şarl Leklerə azarkeşlik etdiyini bildirdi. "Fikrimcə, "Ferrari", ən azı, ilk üçlükdə qərarlaşacaq", – deyə Maqda Madzuk firkini yekunlaşdırdı.

*Elçin AĞAMİRZƏ,*
*Rizvan FİKRƏTOĞLU,*
*"Xalq qəzeti"*

İmmunlaşdırma həftəsi

# “Vaksinasiyaya dəstək” kampaniyası davam edir

**Avropa İttifaqının (Aİ) maliyyələşdirdiyi “Vaksinasiyaya Dəstək” layihəsi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) BMT-nin Uşaq Fondu (UNICEF) ilə birlikdə aprelin 24-dən 29-dək Azərbaycanda Avropa immunlaşdırma həftəsi ilə bağlı silsilə tədbirlərə başlayıb.**

ÜST-ün tövsiyəsinə əsasən, 6 aprel 2023-cü il tarixində Səhiyyə Nazirliyi tərəfindən respublikanın bütün şəhər və rayonlarında “İmmunlaşdırma həftəsi” keçirilməsi ilə bağlı əmr imzalanıb. Bu əmrə uyğun olaraq, ÜST-ün texniki dəstəyi ilə 2022-ci ilin göstəricilərinə görə peyvəndlərlə əhatə səviyyəsi nisbətən aşağı olan 11 rayonda monitorinqlər keçiriləcək. Eyni zamanda, bu rayonların 4-də – Göygöl, Mingəçevir, Yevlax və Qobustanda ÜST və UNICEF Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə “Peyvəndin vaxtını gecikdirmə! Hər doza vacibdir!” – şüarı altında valideyn konfransları təşkil edəcək.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyindən aldığımız məlumatda bildirilir ki, kampaniya müddəti boyunca əhaliyə ÜST tərəfindən hazırlanmış rutin immunlaşdırma ilə bağlı maarifləndirici materiallar, o cümlədən rutin peyvəndlərə bağlı miflər haqqında sual-cavab şəklində hazırlanmış broşür və peyvəndlə qarşısı alına bilən xəstəliklər haqqında yenilənmiş kitabça təqdim ediləcəkdir. Həmçinin bu il ÜST-ün Avropa regionunda qızılca və məxmərək infeksiyasına yoluxma hallarının artmasını nəzərə alaraq, bu xəstəliklər haqqında məlumatların əks olunduğu posterlər əhali arasında paylanılacaqdır. Bundan başqa, bu kampaniyadan kənarda qalan uşaqların peyvənd olunmağa dəvət edilməsi istiqamətində iş aparılacaqdır.

Azərbaycanda COVID–19 pandemiyasına qarşı mübarizə və rutin immunlaşdırma proqramlarının gücləndirilməsi məqsədilə ÜST-ün Azərbaycandakı ofisi 2021-ci ilin iyun ayından etibarən, Avropa İttifaqının maliyyə dəstəyi ilə üç illik “COVID–19 əleyhinə Vaksinasiyaya Dəstək” layihəsini həyata keçirməyə başlayıb. Layihə Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

*Z.HÜSEYNOVA,*
*“Xalq qəzeti”*

**Bərəkətli torpağı, çalışqan camaatı olan Cəlilabad həm də söz-sənət diyarıdır. Bu rayonda şair-jurnalist Ədalət Salmanın ərsəyə gətirdiyi “Sözün işığı” qəzeti düz 20 ildir ki, həm oxucuları ictimai-siyasi həyatın yenilikləri ilə bilgiləndirir, həm də ədəbi zövqü formalaşdırır. Əvvəllər rayonda eyni adlı jurnal çıxırdı, sonradan oxucularla daha sıx ünsiyyət naminə qəzet buraxılmağa başlayıb.**

# Sözün işıq saçdığı qəzet

Cəlilabad ötən əsrin əvvəllərində Tiflisdə min əzabla “Molla Nəsrəddin” jurnalı nəşr edən, millətin maariflənməsinə çalışan böyük demokrat ədib Mirzə Cəlilin adını daşıyıb əbədiləşdirir. Onun mənəvi övladları bu gün bölgədə eyni missiyanı davam etdirirlər. Lənkəranda “Söz”, “Məşəl”, Cəlilabadda isə “Sözün işığı” nəşrləri bölgənin ədəbi qüvvələrini birləşdirir, onlara sənət sevincləri bəxş edir. Bu nəşrlər ucqarlarda qalıb nəzər-diqqətdən uzaq olan çox istedad bulağının gözünü açıb, əzəl-əzəl şirin zümzüməsinin, sonra isə gur səsinin dağdan-arana, arandan-Turana yayılmasına vəsilə olur.

“Sözün işığı”nın yubileyində bu barədə ətraflı danışılıb. Yaradıcı ziyalılarla yanaşı, idarə, müəssisə və ictimai birlik rəhbərlərinin də iştirak etdiyi tədbirdə Cəlilabad Rayon Veteranlar Təşkilatının sədri, yubilyar qəzetin baş redaktoru Ədalət Salman bu mətbu orqanın 20 illik tarixi yolundan, bölgədə ədəbiyyatın təbliğində göstərdiyi xidmətdən danışıb.

Sonra Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidin “Sözün işığı” qəzetinin yubileyi münasibətilə redaksiyaya göndərdiyi təbrik məktubu oxunub. “Qarabağ qaziləri” ictimai birliyinin Cəlilabad filialının sədri Maşallah Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində göstərdiyi fəaliyyətə görə baş redaktor Ədalət Salmanı fəxri fərmanla təltif edib. Rayon Gənclər və İdman idarəsinin rəisi Elçin Hüseynov, Ağsaqqallar Şurasının sədri Ədalət Əsgərov, AJB üzvləri Əfrahim Abbas, Əlizadə Nuri, Gülbala Teymur, Mirhəbib Sadiq, Əlövsət Tahirli, Mikayıl İnçəçaylı, Zülfi Vellidağ, Qurban Əhməd, Rahim Burovarlı və başqaları ürək sözlərini söyləyib, qəzetin yaradıcı heyətini təbrik ediblər.




*Əli NƏCƏFXANLI,*
*“Xalq qəzeti”*

# Ana və uşaqlara sağlam dünya!

**Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda (ETMGİ) ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Mama-ginekologiya, reproduktiv sağlamlıq və qadın sağlamlığı” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfrans Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Ginekologiya və Perinatologiyanın İnkişafına Dəstək Assosiasiyası, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, İctimai Səhiyyə və İslahatlar Mərkəzi və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə təşkil edilib.

Respublikamızın müxtəlif bölgələrindən və xarici ölkələrdən 150-dən çox mütəxəssisin, tələbə və həkim-rezidentlərin iştirak etdikləri konfrans mamalıq və ginekologiya sahəsinə dair aktual məsələlərin müzakirəsi ilə yadda qalıb.

ET MGİ-nin direktoru Cəmilə Qurbanova ölkəmizin ictimai həyatının digər sahələrində olduğu kimi, ana və uşaq sağlamlığı ilə bağlı da həyata keçirilən islahatlar, inkişaf və tərəqqinin Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb.

Beynəlxalq konfransda reproduktiv dövrdə endometrium xərçənginə yanaşma, antenatal qulluğun müasir aspektləri və digər mövzularla bağlı yerli və xarici mütəxəssislərin məruzələri dinlənilib.

*Z.BƏŞİRQIZI, “Xalq qəzeti”*




# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

*“Neftçala rayonunun 11 və Salyan rayonunun 6 yaşayış məntəqəsinin içməli su təchizatının yaxşılaşdırılması” işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” ASC-nin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs – Abışev Murad Çingiz oğlundan, telefon – + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon- + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri - su şəbəkəsinin tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı 500,00 (beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat- “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

VÖEN- 9900001751

Bank- “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı

Kod- 200112

VÖEN- 9900003611

Yerli valyutada hesab nömrəsi AZ65AIIB33070019441100216111

Xarici valyutada hesab nömrəsi AZ55AIIB33170018401100216111

M/h- AZ-37NABZ01350100000000001944

SWIFT AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

Tenderdə iştirak etmək üçün ərizə.

İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender iştirakçılarının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.

İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış.

Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (ədliyyə nazirliyindən alınmış müvafiq arayış).

Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış.

Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir).

Mühasibat balansları, mənfəət və zərər haqqında hesabat.

Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa).

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il üçün ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 10 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər, son beş il ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ən azı 8 milyon manat dövriyyə tələb olunur və TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 14 iyun 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində 16 iyun 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Məlumat üçün bildirmək istərdik ki, “Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi” tərəfindən “Gəncə şəhərində yolların əsaslı təmiri işlərinin satın alınması məqsədilə “Xalq qəzeti”nin 27 aprel 2023-cü il tarixli nömrəsində dərc edilmiş tender elanında göstərilən tarixlə etender.gov.az-da dərc edilmiş elandakı tarixlər üst-üstə düşmədiyindən texniki səhv kimi etender.gov.az-da tarixlər düzgün verilməmişdir. Ona görə də qeyd olunan tarixlər “Xalq qəzeti”nin 27 aprel 2023-cü il tarixli nömrəsində yazıldığı kimi olmalıdır.

Odur ki, tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 5 iyun 2023-cü il saat 18.00, təkliflərin son təqdim olunma tarixi və vaxtı isə 14 iyun 2023-cü il saat 12.00 olmalıdır.

Zərflərin açılış tarixi və vaxtı isə 16 iyun 2023-cü il saat 12.00-dır.

Nəzərə almağınızı xahiş edirik.

***Tender komissiyası***

# “EUROPEAN TOBACCO – BAKU” ASC səhmdarlarının nəzərinə!

Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi Köndələn küçəsi 21 nömrəli ünvanda yerləşən “EUROPEAN TOBACCO –BAKU “ASC-nin nizamnaməsinin 6.1 və 6.3 maddələrinə uygun olaraq səhmdarların növbəti ümumi yığıncağı “Qafqaz Business Center”-də, Bakı, Nərimanov rayonu, Heydər Əliyev prospekti 125 nömrəli ünvanda 18 iyun 2023-cü il saat 10.00-da keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin idarəetmə orqanlarının 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə aid illik hesabatının təsdiqi.

**2.** Cəmiyyətin 2022-ci il üzrə xalis mənfəətinin səhmdarlar arasında bölüşdürülməsi və dividendlərin ödənilməsi qaydasının təsdiqi.

Yığıncağın gündəliyinin materialları ilə bağlı cəmiyyətin ofisində saat 9.00-dan 18.00-dək tanış olmaq mümkündür.

Xahiş edirik ki, yığıncaqda iştirak etmək üçün öz şəxsiyyət vəsiqənizi (nümayəndə qismində iştirak edildiyi halda etibarnaməni) təqdim edəsiniz.

***İdarə heyəti***

# B İ L D İ R İ Ş

“Azəristiliktəchizat” ASC-nin “PVC” boru və fitinqlərin satın alınması məqsədilə 2023-cü il fevralın 28-də elektron portal vasitəsilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən “Tələt” firması qalib elan edilmiş və həmin firma ilə 2023-cü il aprelin 27-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# “Xalq qəzeti” heyətinin “Heydər Əliyev ili”nə töhfəsi

## Üçüncü yer uğrunda mübarizə aparmalı olduq





**Biz dünənki yarışda on minlərlə gəncə, yeniyetməyə əvvəlcə futbolun “əlifba”sını, sonra isə dünyanın ən populyar oyununun incəliklərini öyrədən mütəxəssislərlə – Nəsimi rayonundakı təhsil müəssisələrinin müəllimləri ilə oynadıq. Bir həftə əvvəlki oyunda 5–2 hesabı ilə qalib gəlsək də, meydandan o qədər də razı halda ayrılmamışdıq. Dünənki oyunda isə sivil bir komandaya, peşəkar idmançılardan ibarət olan hazırlıqlı heyətə məğlub olsaq da, meydandan xoş əhval-ruhiyyə ilə ayrıldıq. Çünki rəqiblərimiz özlərini həm müəllim kimi apardılar, həm də təmasda olduğumuz müddətdə əsl idmançı rəftarı nümayiş etdirdilər. Hər halda jurnalistlər müəllimlərə qarşı çıxmaq istəməsələr də... oynadılar.**

Dünənki futbol yarışında bizim məsuliyyətimizi artıran üç mühüm amil var idi. Birinci, qatıldığımız futbol turniri milli tariximizin ən görkəmli simalarından olan ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdur. İkinci, təkcə indi deyil, tarixin bütün dönəmlərində heç bir peşə sahibləri müəllimlərə qarşı çıxmaq istəməyib və çıxmayıblar. Ancaq söhbət idman yarışlarından gedəndə hər birimiz daha böyük məsuliyyətlə yarışırıq ki, bizə həyatı öyrətmiş müəllimlər uğurlarımızla fəxr etsinlər. Əgər bu idman yarışı bilavasitə müəllimlərin öz komandasına qarşı təşkil olunursa, onda bizim məsuliyyətimiz ikiqat artır. Bu məqamda xatırladım ki, söhbət birbaşa bizə dərs demiş insanlardan deyil, ümumiyyətlə, müəllimlərin hamısına olan münasibətdən gedir.

Üçüncü, indi haqqında söz açmaq istədiyimiz idman yarışının bizim məsuliyyətimizi artıran başqa bir cəhət təmsil etdiyimiz rayonun adı ilə bağlıdır. Belə ki, paytaxtımızın bəzi rayonlarının adı məkan mənası kəsb edirsə ( məsələn, Səbail, Binəqədi, Xəzər, Qaradağ, Yasamal), Nizami, Nəsimi, Xətai və Nərimanov rayonları Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin adını daşıyır. Məhz ona görə də biz Nəsimi Rayon İcra hakimiyyətinin təşkil etdiyi futbol turnirinə çox böyük maraq və məsuliyyətlə hazırlaşmışdıq. Elə hakimin son fitinə qədər nümayiş etdirdiyimiz əzmkarlıq da məhz həmin məsuliyyətin göstəricisi idi.

Özünəməxsus yumor hissi olan həmkarlarımızdan biri komandamızın əvvəlki oyunlarından hansınınsa mənfi nəticəsi barədə demişdi ki, biz zəif oynamadıq, onlar daha yaxşı oynadılar. Həmin məntiq dünənki oyunun nəticəsinə daha çox uyğun idi. Çünki Qabil Əliyev, Fikrət Əhmədov, Əvəz Rüstəmov, Rövşən Atakişiyev, Fuad Cəfərli, Fariz Ənsərov, Rüfət Abdullayev, Anar Məmmədov və Raqil Səfərli yarışlar başlanan gündən məhz qələbə üçün çalışırdılar. Fikrimcə, üçüncü yer uğrunda mübarizə aparmaq da pis göstərici deyil. Əsas odur ki, ulu öndərimizin 100 illik yubileyinə öz töhfəmizi verə bildik.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Avtonom müharibə nədir?

**Pentaqonun Müdafiə üzrə Qabaqcıl Tədqiqat Layihələri Agentliyi (DARPA) “avtonom müharibə planlaşdırma sistemi” hazırlamaq üçün “BAE Systems” şirkəti ilə müqavilə imzaladığını açıqlayıb.**



Avtonom müharibə planlaşdırma sistemi heç bir insan müdaxiləsinə ehtiyac olmadan hədəfləri seçmək və hücum etmək üçün robotlar, Süni Zəka (SZ) və robot texnologiyasından istifadə edən yüksək texnologiyalı sistemdir.

Verilən məlumata görə, DARPA və “BAE Systems” arasında başladılan proqram bu məqsədə uyğun olaraq maşınla yaradılan döyüş strategiyalarını inkişaf etdirməyi hədəfləyir. “BAE Systems”dən verilən məlumata görə, üç illik iş proqramı müəyyən edilən layihənin ilk iki mərhələsi maşın öyrənmə sistemi üzərində həyata keçiriləcək.

***“Xalq qəzeti”***

# NASA yerdə Mars mühiti yaradır

**NASA rəsmiləri Mars missiyalarını simulyasiya etmək üçün “qırmızı planet”ə bənzər yaşayış mühiti yaratmaq qərarına gəliblər. Onlar Marsın yaşayış mühitinin dörd kiçik otaq, idman zalı və yerə döşənəcək qırmızı qum ilə yaradılacağını, könüllülərin bu mühitdə bir il yaşayacağını, beləliklə də gələcəkdəki Mars missiyalarının necə olacağının araşdırılacağını açıqlayıblar.**



Qeyd olunub ki, “Crew Health and Performance Exploration Analog” (CHAPEA) adlı üç ayrı eksperiment NASA-nın ABŞ-ın Texas ştatındakı Hyuston obyektlərində aparılacaq. Təcrübələrdə insanların uzun müddət təcrid olunmaya qarşı dözümlülüyünün daha yaxşı başa düşülməsi üçün subyektlərin fiziki və ruhi sağlamlığının izləniləcəyi bildirilib.

Tədqiqatçılar həmçinin mütəmadi olaraq sudan istifadənin məhdudlaşdırılması və ya avadanlıqların nasazlığı kimi stresli vəziyyətlərə subyektlərin reaksiyasını sınaqdan keçirəcəklər. Bu yay başlaması planlaşdırılan ilk sınaqda dörd könüllünün iştirak edəcəyi açıqlanıb.

***“Xalq qəzeti”***

# Yer kürəsini hansı təhlükə gözləyir?

**NASA-nın “Çandra” kosmik teleskopu Yer kürəsinə yaxın planetlərdə kütləvi məhvə səbəb ola biləcək fövqəlmüəmmalar aşkar edib.**



Bununla bağlı “The Astrophysical Journal”da alimlərin təhlükə ilə bağlı araşdırmaları dərc edilib. Tədqiqatın müəllifləri bizə yaxın planetlərdə həyat üçün yeni təhlükəni müəyyən ediblər. Ulduz partlayışları zamanı yayılan şüaların yüz işıq ilindən çox uzaqda olan planetlərə təsir edə biləcəyi məlum olub.

Müəmmalı təhlükənin mənbəyi partlayan ulduzları əhatə edən qazın sıxlığından yaranan dalğalardır. Belə bir təsir zamanı əhəmiyyətli miqdarda güclənən rentgen şüaları onilliklərlə davam edə biləcək partlayışdan sonra aylar və ya illər ərzində Yerəbənzər planetləri əhatə edə bilər. Belə intensiv şüalanmanın ardınca yaxınlıqdakı planetlərin kütləvi məhvi baş verə bilər. Tədqiqat sadaladığımız teleskopların rentgen müşahidələrinə əsaslanır.

Təhlillər göstərir ki, hətta, təxminən, 160 işıq ili uzaqlığındakı planetlərin də ölümcül dozada radiasiyaya məruz qalması mümkündür. Təhlükəli şüalar planetin atmosferinin kimyəvi tərkibini kəskin şəkildə dəyişə bilər. Yerəbənzər planetlərdə ulduzların ultrabənövşəyi şüalanmasından qoruyan ozon təbəqəsinin böyük hissəsinin zədələnməsi gözlənilir.

Bütün bu təsirlərdən sonra səmada bir növ tünd dumana səbəb olan böyük miqdarda azot dioksidi əmələ gələ bilər.

Alimlər qeyd edirlər ki, 2-8 milyon il əvvəl Yerdən 65-500 işıq ili uzaqlıqda təhlükənin meydana gəldiyinə dair əsaslı sübutlar var.

***Səadət RZAYEVA, “Xalq qəzeti”***

## *Sağlamlıq guşəsi*

### Unutqanlığı necə unudaq?

***Bir çox hallarda biz öz sosial şəbəkəmizin parollarını, marketə gedərkən alacağımız məhsulların siyahısını və hətta dost-tanışın adlarını unuduruq. Telefonla danışa-danışa telefonumuzu axtarırıq...***

Mütəxəssislər bildirirlər ki, yaddaşımız daha çox yemək balansımızdan asılıdır. Deməli, beynin fəaliyyəti həm də gündəlik qidalanmaya nə qədər düzgün yanaşmağımızdan asılıdır.

### Yaddaşı möhkəmləndirən qidalar



**Ağ göbələk** yaşlanma prosesini ləngidən antioksidant anbardır. Bu mikroelementlər demensiya və Alzheimer xəstəliyi riskini azaldır. Nəticədə yaddaş itkisinin qarşısı alınır. Bəzi göbələk növləri hətta sinir əlaqələrini bərpa edə və beyin funksiyasını yaxşılaşdıra bilər.

**Tünd şokoladın** tərkibində beyin yarımkürələrinin işini aktivləşdirən, koqnitiv qabiliyyətlərin azalmasının qarşısını alan kakao flavonoidləri var.

**Darçının** təsiri də şokoladınkına bənzəyir, həmçinin bu təsir, tərəvəz və meyvələrin istifadəsi ilə əldə edilə bilər.

**Ünsiyyətin** rolu böyükdür. Çoxsaylı araşdırmaların nəticələri göstərib ki, beynin fəaliyyəti ünsiyyətdən asılıdır. Başqa insanlarla dostluq və təmas xoşbəxt və dolğun həyatın əsas komponentidir.

**Həyat şəraiti** beyin fəaliyyətinin saxlanmasında mühüm rol oynayır. Məsələn, təmiz havada az olmaq bir çox arzuolunmaz dəyişikliklərə səbəb ola bilər. Günəş işığından aldığımız vitamin çatışmazlığından hər hansı bir məlumatı öyrənmək və qavramaq qabiliyyətimiz azalır.

Bəzən unuduruq ki, beynin də müntəzəm məşqə ehtiyacı var. Bunun üçün krossvordlar etmək, kitab oxumaq və ya stolüstü oyunlar oynamaq yetərlidir.

Geriyə doğru gəzməklə yaddaşı qeyri-adi şəkildə inkişaf etdirmək olar. İngilis psixoloqlarının fikrincə, kosmosda bu hərəkət keçmiş hadisələri xatırlamağa imkan verir. Hesab edilir ki, bu yolla beynimizə yaddaşımızın dərinliklərində olan məlumatların şifrəsini açmağa kömək edirik.

### Tərəvəz – nə qədər?

Mütəxəssislərin fikrincə, nə qədər ən qısa zamanda hər gün tərəvəz yeməyə başlasaq, faydasını da o qədər çox görərik. Çünki məhz tərəvəzlər qidalanmada çox mühüm rol oynayır, çünki lif düzgün metabolizm üçün çox vacibdir. Diyetoloqların fikrincə, lif mədə-bağırsaq traktının təmizləyicisi rolunu oynayır. İnsan hər gün azı 600 qram tərəvəz yeməlidir.



Gündəlik tərəvəz yeməyə 3 əsas səbəb var: 1. Tərəvəzlər sağlamlığı qorumağa kömək edən vitamin və minerallarla zəngindir. Onların tərkibində C vitamini, karotinlər, kalium, maqnezium və orqanizmin düzgün işləməsi üçün vacib qida maddələri var. 2. Tərəvəz çəkini qaydasında saxlamağa kömək edir. Həmçinin piylənmə və əlaqəli xəstəliklər riskini yetərincə azaldır. 3. Tərəvəz immunitet sistemini gücləndirir. Çünki immun sistemini gücləndirməyə və infeksiya riskini azaltmağa kömək edən C vitamini ilə zəngindir.

### Qızdırıb yeyəsiniz...

Bəzi qidalar dəfələrlə qızdırıldıqda tərkibində insan orqanizmi üçün zərərli olan kimyəvi birləşmələr yaranır. Çoxumuz bu qidalardan xəbərsizik. Həkimlər təkrar qızdırıldıqda insan həyatına təhlükə yaradan qidaların siyahısını hazırlayıblar.

**Çuğundur** bu siyahıda birinci gəlir. Bu tərəvəz insan orqanizmi üçün xeyirli olsa da, qızdırılanda zəhərli maddəyə çevrilir.

**Kartofu** təkrar qızdıranda onun tərkibində olan nişasta tərkibini dəyişir və zərərli maddəyə çevrilir. Hətta həkimlər axşamdan qalan qızardılmış kartofu soyuq yeməyi məsləhət görürlər.

**Yumurta** da təkrar qızdırılan zaman zərərli qidaya çevrilənlər siyahısındadır. Yumurtanı bişirən kimi yemək məsləhət görülür.

**Toyuq əti və göbələyi** də təkrar isitmək olmaz. Bu qidaları da qızdıran zaman tərkibini dəyişir.

### 10 məlhəm qida

1. Çuğundur.
2. Düyü.
3. Toyuq.
4. Göbələk.
5. Kartof.
6. Kərəvüz.
7. İspanaq.
8. Kök.
9. Yumurta.
10. Ana südü.

Səhhətinizin qeydinə qalırsınızsa, yaxud can sağlığınız sizin üçün önəmlidirsə, yeməyi hazırlanan vaxtda yeyin. Üstündən saatlar, yaxud gün keçərsə, yediyinizin xeyrini yox, zərərini görərsiniz.

***Z.HÜSEYNOVA,***
***“Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ *Aprelin 28-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 11-15°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 22-27° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 12-17°, bəzi yerlərdə 20°-dək isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 12-17°, bəzi yerlərdə 20-23° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 23-28° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 22-27°, dağlarda gecə 4-9°, gündüz 13-18° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 11-16°, gündüz 24-29° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 22-27°, dağlarda gecə 10-13°, gündüz 15-20° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Qeyri – Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, Türkiyədə nəşr olunan “Azerbaycanın Sesi” jurnalının baş redaktoru Bilal Dündar, Rövşən Vəliyev, Firuz Novruzov və Babək Göyüş jurnalist Kəmalə Abdinovaya atası

**QURBAN ABDİNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Xalq qəzeti”nin kollektivi həmkarları, Kəmalə Abdinovaya atası

**QURBAN ABDİNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

✓ **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Cəfərov Təvəkgül Səfər oğlunun adına verilmiş PX 3256 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5024
SİFARİŞ 1019
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00